AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ
İYUN 2022 №06 (637)

Ulduz

WWW.AZYB.AZ
WWW.AYB.AZ

BU SAYIMIZDA

Xuraman HÜSEYN
özüylə söhbəti
və şeirləri
3

Həqiqət haqda asan yadda qalan
həqiqətlər...
9

Bahəddin SALMAN
İflicin nağılı
14

Ələsgər ƏHMƏD
Solist
18

Rengin KIZILDOĞU
Yaşıl limon
23

Mətanət VAHİD
Bədii ədəbiyyatda
yalan motivi
25

Rəşid BƏRGÜŞADLI
Tanrının gözü
28

Nicat MƏMMƏDOV
"Aramsızlıq"
33

ƏLİ ƏMİRLİ
Ustad dərsləri
37

Təranə DƏMİR
Saat əqrəbləri
40

Mustafa MAHMUD
tərcümə saatı
43

Kəmaləddin QƏDİM
Göydə tutasan...
49



Şəhriyar
TƏYYAROĞLU
debüt
53

Gülşən ƏLİYEVA-KƏNGƏRLİ
"Kitabi-Dədə Qorqud" eposunda tarixin ruhu
57

Şəfəq SAHİBLİ
Unudulmaq
69

Vahid QAZİ
Gəlmə
60

Rene GENON
Şərq metafizikası
73

Eminquey
İzi bilinməyən Odər!
63

Vaqif YUSİFLİ
Ədəbi fraqmentlər: Aida Adıgözəl
81

Abid TAHİRLİ
tribuna
65

Elvin İNTİQAMOĞLU
dərgidə kitab
83

Təsisçilər:
Azərbaycan Yazıçılar Birliyi və "Ulduz" jurnalının kollektivi

Baş redaktor: Qulu Ağsəs

Redaksiya heyəti: Təranə Vahid (Baş redaktor müavini), Hicran Hüseynova (şöbə redaktoru), Dayandur Sevgin (şöbə redaktoru), Taleh Mansur (şöbə redaktoru), Həyat Şəmi, Elçin Mirzəbəyli, Xəyal Rza, Səhər Əhməd, Xanəmir, Rəsmiyyə Sabir, Elxan Yurdoğlu, Nuranə Nur, Anar Amin, Elmar Vüqarlı, Ələmdar Cabbarlı, Qılman İman, Hafiz Hacxalıl, Cavid Zeynallı, Məshəti Musa, Elşən Əzim, Nargis, Şəfa Vəli, Şahanə Müşfiq, Allahşükür Ağa, Türkan Turan, Ulucay Akif, Seyfəddin Altaylı (Türkiyə), Xaqani Qayıblı (Estoniya), Baloğlan Cəlil (Başqırdıstan), Saodat Muxammadova (Özbəkistan), Nilufər Şıxlı (Moskva), Günay Səma Şirvan (Voronej)

Bədii redaktor: Ədalət Həsən

Ünvanı: AZ1000, Bakı, Xaqani küçəsi, 25
ulduz_dergisi@mail.ru; www.ayb.az

Telefon: 498-72-43

Çapa imzalanıb: 18.06.2022 "Ulduz" jurnalı redaksiyasında yığılıb, səhifələnib.
"ASPOLİQRAF LTD" MMC-də çap olunub. Sifariş №48, Tiraj: 300. Qiyməti: 1 man.
1967-ci ildən çıxır. Şəhadətnamə № 238

"AZƏRMƏTBUATYAYIMI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

"Ulduz" jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

"QAYA" MƏTBUAT YAYIMI

"Ulduz" jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

"KİTABEVİM.AZ"

"Ulduz" jurnalını burdan əldə edə bilərsiniz.

Jurnalın
1 aylıq abunə qiyməti – 1.00 man.
illik abunə qiyməti – 12.00 man.

Bakı şəhərində abunə yazılmaq istəyənlər:

441-19-91
440-16-26

566-77-80

498 – 79 – 89

nömrəli telefonlara zəng edə bilərlər.

ISNN 0134-522 İNDEKS AZ 1000 1 AZN

Xuraman HÜSEYN

özüyla söhbəti...

Həmişə deyirik ki, Azərbaycanı bir üzüyə bənzətsək, Qarabağ onun qaşı olar. Gözəl diyarımız Qarabağın xain qonşularımız tərəfindən işğalı bütün soydaşlarımız kimi, məni də həmişə narahat edirdi. Uşaq vaxtı o gözəl diyarda mən də çox olmuşam. Yadımdadı, babam bizi yayda Ağdərə rayonuna istirahətə aparmışdı. Sonra Şuşada, Ağdamda gördüyüm mənzərələr Qarabağın əsrarəngiz gözəllikləri haqda ömür boyu düşünməyimə səbəb oldu. Şuşa, Cıdır düzü və ordan seyr etdiyim Topxana meşəsi bu günə qədər yadımdan çıxmayıb. Ağdamda, Qiyaslı kəndində atamın dostu, xanəndə Şahmalı Kürdoğlunun həyətində gördüyüm limonları, gül-çiçəyi də unuda bilmirəm. Çox keçmədi, ermənilər digər rayonlarımız, kəndlərimizlə birgə, Şuşanı, Ağdamı da işğal etdilər. O yerlər xatirələrimdə yaşadı və nə vaxtsa özümüzə qayıdacaq günləri gözlədi sanki. Biz o gözəl kəndlərə, şəhərlərə qayıdacağımız günləri gözlədiyimiz kimi... Həmişə arzulayırdım ki, Qarabağ azad olunsun, mən Şuşada Cıdır düzündən yenə Topxana meşəsinə baxım, o vaxt şəkil çəkdirdiyim yerdə yenə şəkil çəkdirim...

Ali Baş Komandan İlham Əliyevin və müzəffər ordumuzun, igid oğulların sayəsində Qarabağ erməni işğalından azad olundu. Bundan gözəl gün ola bilərdimi? Biz qələbə qazandıq və Qarabağımız yenə bizim oldu. İnşallah, tez-tez o yerlərə səfər edər və bu gözəlliklərdən yenə zövq almaqla həsrətə, nisgilə son qoyarıq. Qarabağ arzusu ilə yaşayan bütün söz adamlarının yaradıcılığında işğaldan azad olunan Vətənimiz yenə də əsas yeri tutacaq...

Özümlə söhbət edərkən gördüyüm o gözəl yerləri də heç vaxt unutmadım. İndi daha belə deyirəm: Qarabağ, şükür ki, sən azad oldun! Səni işğaldan azad edən şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə can sağlığı diləyirəm.

...və şeirləri

YENƏ GÜNƏŞ DOĞDU...

Səni əlimizdən almışdı düşmən,
İgid oğulların dözmədi daha.
Sarılıb silaha aldılar səni,
Ümid etmədilər zülmət sabaha.

Kəlbəcər, Qubadlı qərq oldu qəmə
Şuşanı, Ağdamı biz itirən gün.
Qaldıq Xocalısız, qaldıq Laçınsız,
Ümid də ölmüşdü xalqımız üçün.

İgid oğulların qəhrəmanlığı
Ölən ümidlərə can verir indi.
Yenə günəş doğdu göylərimizdə,
Ümidsiz yaşamaq yaman çətindi...

BİLİRİK, DARIXIRDIN

Səni işğal etdilər,
aldılar əlimizdən,
bizsiz qaldın Qarabağımız...
Bilirik, darıxırdın
bizdən ötrü,
ayaq izlərimizdən ötrü
daş küçələrin, dağların, dərələrin, meşələrin, yaylaqların
darıxırdı,
əl izlərimizdən ötrü otların, çiçəklərin,
xarıbülbülün...
Topxana meşəsindən
Cıdır düzünə çəkilən asma körpüdən
asa bilmədilər ümidlərimizi...
Yenə bizim oldun,
yenə ayaq izlərimiz qalacaq sinəndə,
ümidimiz igid oğullarımıza,
Ali Baş Komandanımıza idi,
onlar xilas etdi səni,
azad oldun, Qarabağ!

SUQOVUŞAN YÜKSƏKLİYİ

Suqovuşan yüksəkliyi,
Səni də aldı igidlər.
Qovuşmuşuq artıq sənə,
Qələbə çaldı igidlər.

Yüksəkliklər alındıqca
İgid oğullar yüksəldi.
Qələbəni bayram edən
Xalq sənə salama gəldi.

Daha ağlamayacağıq,
Dərdimiz qaldı dünəndə.
Gözümüzdə yaşa dönən
Sular qovuşacaq səndə.

TORPAQ UNUDULARMI?

Əsirlikdən xilas oldu torpaqlarımız,
danışardılar dilləri olsaydı;
bizim üçün necə darıxdıqlarını
deyərdilər,
gördükləri acılardan
söz açardılar.
Yenə bizə dönməyin
sevincini bölüşərdilər...
Onları unutmadığımızı deyərdik biz də,
torpaq unudularmı,
Vətən yaddan çıxarmı?
O günlər də geridə qaldı,
yenə o yerlər bizə doğma oldu...

ŞƏHİD RUHLARI

Baxın işğaldan azad olunan torpaqlara,
baxın yurd-yuvasından didərgin düşənlərin
sevinc göz yaşlarına,
şad olun, şəhid ruhları!
Sizə görə kədərlənirik..
torpaqlarımıza baxıb sevinirik, şəhid ruhları...
Bu sevinci bizə siz bəxş etdiniz!..
Dünya durduqca yaşayacaqsız,
yeriniz cənnətdir, bilirik,
Qarabağ da cənnətdir
bizə bu dünyada o cənnəti bəxş etdiniz,
əziz şəhid ruhları...

GÖZLƏRİNİZ AYDIN OLSUN!

Yurd-yuvasından didərgin düşənlər,
doğma yurdunuza,
evinizə, isti ocağınıza döndünüz,
gözləriniz aydın olsun!
İşıqlar yandı evinizdə,
daha sönməyəcək ocağınız.
Qaldığı yerdən davam edəcək həyat,
bəlkə də, daha maraqlı,
daha gözəl...
Bu da bir ömür idi, yaşadınız,
həyat çətinlikləri ilə
sizi çəkdi sınağa.
Siz bu sınaqdan
alnıaçıq, üzüağ çıxdınız,
doğma yurdunuz da sizi gözlərdi...

BAYRAĞIMIZ DA SEVİNİR...

Yurdu işğal olunanlar üçün
qələbə xəbəri eşitməkdən gözəl nə var?
İgid oğullar yaşatdı
xalqa o sevinci.
Sevin, ey Azərbaycan!
sevin, ey xalq!
Bu günlərin həsrətini
çox çəkmisiniz.
Azad olunan yerlərdə
dalğalandıqca
bayrağımız da sevinir.
Sevin, ey üçrəngli bayrağımız!
Sənə dalğalanmaq çox yaraşır,
bizə sevinc yaraşan kimi...

"XUDAYAR TƏSNİFİ"

Gülümsər çöhrəylə, şirin səs ilə
"Vətən nəğməsi"ni oxudu, getdi.
İgidlik göstərdi o, həvəs ilə
Nəğmədən bir çələng toxudu, getdi.

Getdi qorxmayaraq düşmən üstünə,
Getdi Vətənini geri almağa.
Xalqı çıxsın deyə, günəşli günə,
Getdi Vətən üçün şəhid olmağa.

Nə qədər çıraqlar yanarkən söndü,
Aldılar düşməndən əsir diyarı.
"Xudayar təsnifi" tarixə döndü,
Yaşatdı o igid, mərd Xudayarı.

YORULMAYAN GÜNLƏR

Qar yağdı, yağdı, yoruldu...
Yorğun qardan bezən göylər
günəşi gətirdi
və
qarı uzaqlara ötürdü.
Sonra
yağışları yağdırdı.
Beləcə yaz gəldi,
heç vaxt yorulmayan göylər
çiçəkləri bitirdi...
Çiçəklər bürüdü
əsirlikdən azad olunmuş torpaqları
və
şəhid məzarlarını...

QIRX DÖRD GÜN

Otuz ilə yaxın vaxt keçdi,
bələnib göz yaşımıza,
bürünüb kədərimizə,
dözdük...
Qırx dörd günlük müharibə
tarixi qələbə bəxş etdi bizə,
birləşdik,
bir olduq,
Vətən müharibəsi ilə
aldıq Qarabağı.

İllərdir kükrəyən vətən sevgimiz,
daşan səbrimiz
qırx dörd günə azad etdi
o yurdu.

Tarixə yazıldı
şəhidlərin qanı,
qazilərin yaralı canı ilə
Qarabağı
düşməndən azad edən
Vətən müharibəsi.

Otuz ilə yaxın
gözlədik səni,
Qarabağ.
Kədərdə boğulduq,
dərddə batdıq büsbütün,
Şükür ki, sən gəldin,
möhtəşəm
Qırx dörd gün...

QARABAĞA GƏLDİ BAHAR

Səmada günəş göründü,
Dağlarında əridi qar.
Hər yer yaşıla büründü,
Qarabağa gəldi bahar.

Gəldi, bəzədi hər yeri,
Güllərdən xalı toxudu.
Gəldi, unutduq dərdləri,
Bülbüllər nəğmə oxudu.

Sevindirdi yeri, göyü,
Belə təbiət harda var?
Görmədik belə gözəllik –
Qarabağa gəldi bahar.

BU YAZ GÜNÜ

Qarabağda çiçək açan ağaclar
Bu yaz günü necə gözəl görünür?!
Çiçəkləri ətir saçan ağaclar
Gəlin kimi ağ libasa bürünür.

Sizin üçün bağlarımız darıxıb,
Meyvənizi neçə illər dərmədik.
Sizsiz keçən çağlarımız darıxıb,
Barınızı, bəhrənizi görmədik.

Dəyməyəcək sizə düşmən əlləri,
Başımıza gəlməyənlər qalmadı.
Yaşamışıq sizsiz neçə illəri,
Qarı düşmən yenə də dost olmadı.

YENƏ GÜL AÇDI

Şükür bu gününə, Allah,
Yenə ocağımız yandı.
Doğdu günəş, gəldi sabah,
Şuşada tonqal qalandı.

Şükürlər olsun bu günə,
Yurdumuza Novruz gəldi.
Bayram gördü Şuşa yenə,
Yenə gül açdı, yaz gəldi.

Gördü baharı, Novruzu,
Xarıbülbül açdı çiçək.
Çox sevindi Cıdır düzü,
Həmişə bahar gələcək...

XARIBÜLBÜL

Əsir düşən xarıbülbül,
Biz Şuşada dərdik səni.
Şuşa qürbətə dönəndən
Şəkillərdə gördük səni.

Dərdlər gəldi dərd üstünə,
Biz səndən doya bilmədik.
Əlimiz çatmadı sənə,
Ətrini duya bilmədik.

Şəninə nəğmə yazıldı-
Təsəllini tapdıq səndə.
Bu illərdə necə dözdün
Əsir düşən o Vətəndə?

Düşmən solunda, sağında,
Zaman ötür, vaxt tələsir...
Bitmədin "Vətən bağı"nda,
Öz yurdunda düşdün əsir.

LALƏLƏR

Örtün şəhid qanlarının üstünü,
Dağ-dərələr lalələrə bürünsün.
Biz çox gördük bu fələyin qəsdini,
Üzümüzdə bir az sevinc görünsün.

Bu illərdə nə çəkmədi başımız?
Neçə igid oğulları itirdik.
Qurumadı gözümüzdə yaşımız,
Məzar üçün qərənfillər bitirdik.

Qarabağ da lalələrə bürünür-
Bu gözəllik el-aləmə səs salır.
Hər tərəfdə al lalələr görünür,
Qələbədən təbiət də zövq alır.

"DƏMİR YUMRUQ"

Neçə ildir xalqın nələr çəkmədi?
Gözün aydın olsun sənin, ey Vətən!
Heç kimsəyə gözlərini dikmədi,
Azərbaycan, mübarəkdir qələbən!

Birləşdi, bax, bu xalq ilə bu ordu,
"Dəmir yumruq" dedi öz son sözünü.
Ər oğullar xilas etdi bu yurdu,
Qoymadı heç düşmən açsın gözünü.

Vətən dərdi qaldı daha keçmişdə,
Vətən, ordu-indi hamı bir eldir.
Yumruq kimi bir olduq bu döyüşdə,
Birləşib bir olmaq necə gözəldir!

8 MAYDAN 8 NOYABRA...

28 il əvvəl işğal olundu Şuşa
mayın 8-də,
noyabrın 8-də isə
azad edildi...
O 8 maydan sonra nələr dəyişdi həyatında,
əziz Şuşa?
Nə günlərə qoydu səni
mənfur düşmən?
Daha bizimsən,
Qayıtdın öz sahiblərinə,
əziz Şuşa!
Daha xarıbülbüllərin sevinə-sevinə
açacaq çiçək,
daha Cıdır düzü düşmənlərin
yallı getməsinə şahidlik etməyəcək.

Sevin, əziz Şuşa, sevin,
Hər 8 may günü yaşadığımız
ağrı-acını bizə
8 Noyabr günü unutduracaq:
Sən dirçələcək,
gözəlləşəcəksən,
qələbə həmişə bizimlə,
gözəl günlər sənlə olacaq.
Ağlımıza gəlməyənlər gəldi başımıza,
daha heç nə olmayacaq bizim gözəl
Şuşamıza...

BÜLBÜLLƏR GƏLƏNDƏ

Bülbüllər də gəldi Şuşaya,
Cıdır düzündə
onlar da oxuyur indi...
Nəğmə
nəğməyə qarışacaq
musiqimizin beşiyində.
Ən gözəl günləri
bundan sonra görəcək Şuşa,
xarıbülbülləri,
sarı bülbülləri ilə dönəcək cənnətə...

Nə qədər ki dünya var,
gözəlliklər var,
sən varsan.
Sənlə görəcəyik cənnəti, gözəl Şuşa,
xarıbülbülləri, sarı bülbülləri ilə
Vətənin bağları yenə al-əlvandır...
Gözəl cənnətimiz,
xoş gəlib xarıbülbüllərin...

QARTALLAR SEVİNƏN GÜN

Şuşada
bayram bayrama qarışdı
həmin gün
müqəddəs Ramazan bayramı
və
"Xarıbülbül" festivalı
Cıdır düzünü silkələdi,
yenidən oyatdı,
"Oyan, ey gözəl diyar,
Sənin sahiblərin gəlib" – dedi.
Özünə qayıtdı həmin gün Şuşa,
yenə muğamlar, mahnılar oxundu,
gözəl sözlər deyildi,
hamı sevindi...

Bundan gözəl gün olardımı
düşmən əsarətindən azad olan
yurd üçün –
Şuşamız üçün?
Qartallar da qanad çaldı
Şuşanın bu sevincinə,
Cıdır düzündəki bayramlara
onlar da sevindi...

Gözəl Şuşa,
başımızın tacı,
xarıbülbülün vətəni Şuşa,
mədəniyyət paytaxtımızsan artıq...
Hamı məftun olacaq sənə,
bütün dünya
danışacaq
gözəlliyindən.
Şükür bu günə, İlahi,
çox şükür!
Özümüzə qayıtdı Şuşamız...

TARİX YAŞADACAQ SİZİ

Yurdumuz əsir düşəndə
uşaq idiniz,
Vətənin nə demək olduğunu
tək şeirlərdə, nağıllarda, cizgi filmlərində yox,
çadır şəhərciklərində, vaqonlarda böyüyərkən
öyrənənləriniz də oldu...
"Qaçqın" dedilər, "didərgin" dedilər sizə,
Vətən dərdi böyüdü qəlbinizdə
və sizi də böyütdü
öz ağrısı, acısı ilə...

Böyüdünüz və Vətəni aldınız düşməndən,
"Vətən müharibəsi" dedik o savaşınıza,
inqilabınıza,
"Zəfər Günü" dedik o qələbənizə.
Şəhidlər də oldu,
qazilər də aranızda,
qanınızla aldınız əsir düşən yurdumuzu,
o qan ilə çiçəklənəcək o torpaqlar...

Adınız yazıldı tarixə,
tarix yaşadacaq sizi,
nəsillər qeyd edəcək
o böyük qələbənizi!..

HƏQİQƏT HAQDA ASAN YADDA QALAN HƏQİQƏTLƏR...

Atalar sözləri:

Haqq deyəndən sonra axan sular dayanar.
***
Haqq sözdən gül iyi gələr.
***
Haqq daşı ağır olar.
***
Doğru yolla gedən yorulmaz.
***
Doğru gələn dolaşmaz.
***
Əyrini tox, doğrunu ac görmədim.
***
Haqq nazilər, üzülməz.

Həzrət ƏLİ:

Bir həqiqəti müdafiəyə qalxarkən öncə ona özümüz inanmalı, sonra başqalarını inandırmağa çalışmalıyıq.

İmadəddin NƏSİMİ:

Mən həqqə məkan, məkan mənəm, mən!
Mən həqqi-əyan, əyan mənəm, mən!..
Mən atəşi-eşqi-nuri-həqqəm,
Mən cümlə cəhani-kainatəm...

Şəms TƏBRİZİ:

Hansı həqiqət gizlənmək istəndikcə daha çox aşkar olmadı ki?!
***
Yalan dördnala çapar. Həqiqət isə addım-addım irəliləyər, fəqət yenə də gəlib vaxtında yetişər.

Hüseyn CAVİD:

Həqiqət istərəm, yalnız həqiqət...

Əbdülhəq HAMİD:

Həqiqətin üzü lakin gülümsəməz, ağlar...

Tofiq FİKRƏT:

Zülmün topu var, gülləsi var, qələsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır...

Məhəmməd HADİ:

Həqiqət sayəsində kəsbi-qüdsiyyət qılar millət...
Həya etməzmi nəfsin bəsləyənlər, bir utanmazmı?
***
Hüququn namı vardır, dünyada qüvvətlər həqiqətdir...

Şeyx Məhəmməd XİYABANİ:

Həqiqətsiz əsl azadlıq ola bilməz.

BUDDA:

Həqiqəti bilməməkdir şərrin kökü.

PLATON:

Gözəllik həqiqətin ehtişamıdır.
***
İnsanlar həqiqətə yox, həqiqət kimi görünənə inanırlar.

Bizanslı FEOFAN:

Mən həqiqəti gözəlliyindən tanıyıram.

İmam QƏZALİ:

Həqiqətlərə yetməyin daim dəlil ilə olduğunu sananlar Allahın geniş və sonsuz rəhmətini azaltmış olurlar.

PİFAQOR:
Həqiqəti çılpaq görmək faydalıdır. Yalansa qoy al qumaşa bürünsün.

SOFOKL:
Həqiqət mənimlə olanda heç nədən qorxmuram.

ARİSTOTEL:
Əflatun mənə əzizdir, həqiqətsə ondan əziz.

HORATSİ:
Həqiqəti gülə-gülə söyləməyinə kim mane olur ki?!

Aligyeri DANTE:
Həqiqətin alovu elə onu aparanın da əlini tez-tez yandırır.

DEMOKRİT:
Həqiqət uçurumun dibindədir.

Cəmil MERİÇ:
Həqiqət – müqəddəslərin müqəddəsidir... Həqiqət və sevgi...

***

Sürüyə qoşulmaq həqiqəti axtarmaqdan vaz keçməkdir.

***

Xəyal sarayları həqiqətin mərmər sütunları üzərində dayanmazsa, bir üfləməklə yıxılar...

***

Həqiqət əsrdən-əsrə dolaşan ilahədir; hər əsrdə başqa-başqa don geyən bir tanrıça...

***

"İnananlar qardaşdırlar". İnananlar, yəni həqiqəti birlikdə arayıb-axtaranlar.

Hilmi Ziya ÜLKEN:
Hikmət yalnız həqiqətdədir.

Nəcib Fazil QISAKÜRƏK:
Çəkil, ey nəfsim, çəkil, həqiqətə pərdəsən; həqiqət başqa yerdə, sən bambaşqa yerdəsən.

***

Allaha həqiqətdən yola çıxmaq məşəqqət; Allahdan yola çıxıb varılan şey – həqiqət.

Nurəddin TOPÇU:
Həqiqət ruhun sevgilisidir və bu eşqin övladı düşünməkdir.

***

Ustaddan soruşublar ki, həqiqət yerinə gerçək desək, nə itirərik? Ustad da deyib: "Həqiqəti itirərik".

***

Həqiqət əsla ətrafında qələbəliklərin toplana bildiyi bir şey olmayıbdır.

Jiddu KRİŞNAMURTİ:
İnsan yalnız azad olduğu zaman həqiqəti kəşf edə bilər.

***

Həqiqət uzaqda deyil. Şayəd necə baxmaq gərək olduğunu bilsəniz, görərsiniz ki, elə öz yanınızdadır.

Mahatma QANDİ:
Həqiqət bir daş qədər sərt, bir qönçə qədər də yumşaqdır.

Cordano BRUNO:
Bir həqiqət o birini aydınladır.

***

Həqiqət həqiqətə zidd ola bilməz.

Fransua RABLE:
Mən həqiqət aşiqiyəm, amma dar ağacınacan.

Jan LABRÜER:
Ən yaxın dostlarım – həqiqətlə Sokratdır. İkisindən birini seçəcək olsam, həqiqəti seçərəm.

***

Həqiqətə yalnız bir yol aparır; ordan aparan yol isə minlərlədir.

Fransua FENELON:
Həqiqəti görər gözü olmayanların həqiqəti söyləmək hünəri olanlara da nifrəti var.

Jan-Jak RUSSO:
Mənim işim həqiqəti söyləməkdir, daha ona inanmağa məcbur etmək deyil.

***

Yoldan çıxmaqçün min yol var, həqiqətinsə yolu birdir.

Deni DİDRO:
Həqiqəti yazmaqçün savaş meydanına atılmış ər cəsarəti gərəkdir.

Frensis BEKON:
Acı da olsa, həqiqəti gizlətməyin.
***
İnsanlıq həqiqətə möhtacdır.

Fransua VOLTER:
Azadlığı və həqiqəti sevməyən biri güclü ola bilər, fəqət heç vaxt böyük ola bilməz.

GETE:
Dühadan bizim ən əvvəl gözlədiyimiz – həqiqət aşiqliyidir.
***
Yeni həqiqət üçün köhnə aldanışdan da təhlükəli heç nə yoxdur.

Lorens STERN:
İnsanlıq var olduqca həqiqət axtarışları bitməyəcək.

Nikola BUALO:
Yalnız həqiqət gözəldir; sevilməyə də bir tək o layiqdir.

Jan-Jak RUSSO:
Həyatınızı ancaq həqiqətə qurban eləyin.

Blez PASKAL:
Mən yalnız o kəslərləyəm ki, həqiqəti axtarır.
***
İlahi həqiqətlər zəkadan qəlbə deyil, qəlbdən zəkaya doğru yol gedər. Allahı hiss edən qəlbdir.
***
İnsan həqiqəti əldə etmək yox, axtarmaq üçün yaradılıbdır.

Viktor HÜQO:
Almazı yerin təkində axtardığımız kimi, həqiqəti də düşüncələrin dərinliyində aramalıyıq.

Otto fon BİSMARK:
İnsanları yanıltmaq istəyirsənsə, həqiqəti söylə.

Kamillo KAVUR:
Diplomatları aldatmağın yolunu tapmışam. Mən onlara həqiqəti deyirəm və onlar da mənə heç vaxt inanmır.

Qüstav LEBON:
Kütlə heç zaman həqiqətə can atmayıb.

Pyotr ÇAADAYEV:
Xalqını sevənə eşq olsun. Həqiqəti sevənə ikiqat eşq olsun!

Aleksey XOMYAKOV:
Həqiqət bir bütövdür və yalnız bütöv insana da əyan ola bilər.

Vilhelm ŞVEBEL:
Aforizm – asan yadda qalan həqiqətdir.

Fyodor DOSTOYEVSKİ:
Əsl həqiqət heç vaxt həqiqətə bənzəmir. Həqiqətə bənzəri olmağıyçün gərək ona yalan da qatasan. Adamlar, əslində, həmişə belə eləyiblər.
***
...Həqiqət istəyən kəs artıq qorxunc dərəcədə güclüdür.
***
Yer üzündə var olanlar içərisində ən şairanə, ən gözəl və ən valehedici olanı həqiqətdir.

Tomas CEFFERSON:
Həqiqətdən qorxmayanın yalandan qorxmağa heç əsası yox.

Rene DEKART:
Həqiqəti dərk etməkçün ömür boyu ən azı bir kərə bacardıqca şübhələnmən gərək.

Emil ZOLYA:
Həqiqət yoldadır və heç nə onu dayandırmayacaq.

Anatol FRANS:
Ədalət ancaq həqiqətdən, səadət isə yalnız ədalətdən doğula bilir.

Lev TOLSTOY:
Həqiqətin dərki yolunda ən böyük maneə – yalan yox, onun həqiqətə bənzəridir.

Vaşinqton İRVİNQ:
Bu Yer üzündə heç nə həqiqət qədər çətin ələ gətirilmir.

Jül RENAR:
Həqiqət quyunun dibində olsaydı, özümü həmən quyuya atardım.
***
Həqiqət onu bir neçə il axtarıb tapa bilməməyimizə dəyər.
***
Meylim yüksəklərədir və yalnız həqiqəti sevirəm.

Fridrix NİTSŞE:
Həqiqətdə kül olmadan özünüzü necə yeniləyə bilərsiniz?!
***
Biz həqiqəti sınaqdan keçiririk... Ola bilər, bundan insanlıq ölsün...

Edqar PO:
Həqiqət ayaqqabılarını geyincə yalan artıq dünyanı dolaşır.

Mark TVEN:
Heç vaxt həqiqəti layiq olmayan adamlara deməyəsən.
***
Heç kimsə daim həqiqət söyləyən biriylə yaşaya bilməzdi, Allaha şükürlər olsun ki, bizlərdən heç birimizçün belə təhlükə yoxdur.
***
Nə söyləyəcəyini bilmirsənsə, həqiqəti de.

Albert EYNŞTEYN:
Həqiqəti axtarmaq onu əldə etməkdən daha qiymətlidir.
***
Həqiqət məndən o dərəcədə güclüdür ki, onu qorumağa qalxmağım əldə qılınc Rossinatı yəhərləyən bir Don Kixot qədər gülməli göstərərdi məni.
***
Həqiqət dağlarına ümidsiz çıxmaq olmaz.

Albert ŞVEYSER:
Həqiqət ancaq fikirdən doğulduğu zaman yaşamaq gücündə olur.

Alber KAMYU:
Həqiqət də işıq kimi gözləri kor eləyir.
***
İdrakın ilk işi – gerçəyi yalandan ayırd eləməkdir.

Rəsul RZA:
İstər zindanda çürüt,
istər sürgündə qocalt, istər dara çək;
həqiqət ölümə baş əyməyib, əyməyəcək!

Lord NORTBORN:
İnsan oğlu istər xatırlasın, istər unutsun, həqiqət olduğu, olacağı və olmalı olduğu kimi də qalır.

Andre JİD:
Həqiqətin rəngi bozdur.

Antuan de SENT-EKZÜPERİ:
Həqiqəti görən yalnız ürəkdir; gözlə görəmməzsən əsl mənanı.

Qabriel LAUB:
Kim ki bir tək həqiqəti bilir, məcburdur tez-tez yalan danışa.

Georq LİXTENBERQ:
Ən qorxulu yalan azca təhrif olunmuş həqiqətdir.

Stanislav Yeji LETS:
Yalanla yaşayanlar həqiqətlə də yaşaya bilərdilər.
***
Tarixdən bütün yalanların silinməyi o demək deyil ki, yerdə ancaq həqiqət qalacaq. Ola bilər yerdə, ümumiyyətlə, heç nə qalmasın.
***
Həqiqət hər vaxt çılpaqdır,
son dəblə geyinsə belə.
***
Həqiqətə baş endirməyin üçün əvvəl onu idrak etmən gərək.
***
Təsəvvürə gətirmirəm ki, dünyanın axırı həqiqətin təntənəsindən əvvəl gələ.

Uinston ÇÖRÇİLL:
Sizə həqiqəti söyləyəcəyimi vəd eləmişdim, amma bütün həqiqəti deyəcəyimə heç vaxt söz verməmişəm.

***

Dünyada istədiyin qədər yalan var, ən pisi isə odur ki, bütün yalanların yarısı da saf həqiqətdir.

***

İnsanlar ara-sıra həqiqətə rast olur, amma çoxu da tez özünü toplayıb heç nə olmayıbmış kimi sürətlə oradan uzaqlaşır.

Filip ÇESTERFİLD:

Hər kəs həqiqət axtarır, ancaq bir Allah bilir ki, onu kim tapıb.

Mixail PRİŞVİN:

Gücsüz olan biri həqiqət haqda heç nə söyləyə bilməz.

Fridrix ŞİLLER:

Həqiqət, onu kiminsə qəbul etməməyindən zərrəcə ziyan çəkməz.

Redyard KİPLİNQ:

Bir savaşın ilk qurbanı hər zaman həqiqətdir.

Riçard FEYNMAN:

Həqiqət hər zaman güman edilə bildiyindən belə sadə olur.

Xorxe Anhel LİVRAQA:

Bütün doğrular və bütün həqiqətlər ağılla da, ürəklə də uyum içində olur.

***

Həqiqəti sadəcə axtarmaq azdır, onu gərək tapasan da.

Klarens DARROU:

Həqiqət axtarışı, hətta onu heç vaxt tapmasanız belə, sizə azadlıq bəxş edər.

Vladimir NABOKOV:

Həqiqət – heç nə ilə qafiyələnməyən çox az sayda sözlərdəndir.

Karl SENDBERQ:

Həqiqət gecikməyi sevmir.

Martin HAYDEGGER:

Gözəllikdir Həqiqətin alın yazısı…

Xəlil CƏBRAN:

Həqiqət parçalana bilməz.

***

Varlıq aləmində üçüncüsü olmayan ikicə ünsür var – gözəllik və həqiqət.

Ervin ÇARQAFF:

Hər bir şey keçib gedir – ən qəti həqiqət budur Yer üzündə.

Çe GEVARA:

Ardınca getməyə cəsarətin varsa, bütün xəyallar həqiqət ola bilir…

Umberto EKO:

Həqiqət bizə azadlıq verir.

***

Həqiqəti söyləmək öz ürəyini yarmaq kimidir...

Utimira KANDZO:

Həqiqəti unutmuş olan bir cəmiyyətin necə uzun yaşaya biləcəyini təsəvvürə gətirmək də çətindir.

Tərtib və tərcümə edən:

C.MƏMMƏDOV

Bahəddin SALMAN

İflicin nağılı

O gün hamı gəlmişdi. Məni palataya atam yerləşdirdi. Alnımdan, üzümdən öpdü, bir-iki vida sözü dedi və onu gözləyən çoxluğa qoşulub getdi!

***

Sanki hər anım caduya bələnib!

***

Görməsəm də, eşidir, səslərin kimə, nəyə aid olduğunu yaxşı bilirəm!

Başlanğıcda hər şey düşündüyümdən fərqli və asan idi. Burda saysız-hesabsız, dar-dütdək palatalar var və əminəm ki, həmin darısqallıqda yatan qonşularım da bu yerin qısa təsviri ilə bağlı eyni fikirdədirlər. Çünki onlar da nə vaxtsa mənim kimi bu palatalardan xəbərdar olublar!

Bizə nə olub? Əzizlərim, bura çox böyük xəstəxanadır və onun pəncərəsiz, işığa həsrət palataları iflic adamlarla dolub. Bu cavab sizi hələlik qane edir?! Biz zərrə qədər də cismani ağrı hiss etmirik. Bədənimizə nəyinsə toxunduğunu bilir, amma nə ağrı-acı, nə də xoşhallandırıcı bir şey hiss edirik. Söhbət, əlbəttə ki, ancaq və ancaq bədəndən gedir. Bizə yalnız bədənimizə nəyin toxunduğunu ilk saniyədəcə hissetmə vergisi verilib. Qəribə hissdir, deyilmi? Heç siz bu cür insan bədəni, yaxud iflic birisini görmüsünüzmü?! Çətin!

Düz yüz qırx gündür ki, bu palatadayam. Kaş sağ ayağımın baş barmağını didişdirən sərsəm ağcaqanadı görə biləydiz! Düzünə qalsa, bayaqdan onun ağcaqanad, yoxsa milçək olduğunu dəqiqləşdirə bilməmişəm. Əşşi, hər nə zibil olur-olsun, deyək, tarakandı, bitdi, birədi, lap elə əqrəbdi, ha, ha, ha, axı nə fərqi, hansı həşəratdır?! Axmağın yerində olsaydım, nəinki baş barmaq, bütün ayaq barmaqlarını bircə günə sümükqarışıq yeyib qurtarardım. Əgər acsanız və qabağınıza bəsdi deyincə yemək qoyublarsa, yeyin, lap gözünüzə təpin… Dedim axı, mənim bədənim nə ağrı, nə də ləzzət bilir, bircə toxunuşun ilk saniyəsini hiss edir.

Yadımdadır ki, hələ iflic olmamışdım, amma həkimlər lap yaxın vaxtlarda iflic olacağımı ailəmə, bəzi yaxınlarıma deyəndə onlar hərəsi ayrı-ayrılıqda zırzır ağlayıb zəhləmi tökmüşdülər. Bura yeni gəldiyim vaxtlarda "Mənim gicbəsər doğmalarım, kaş bu xəstəlik, xəstəxana, onun palataları barəsində deyilənlərin nə qədər uydurma olduğunu sizlərə başa sala biləydim!" deyə düşünürdüm. Kaş düşünməzdim!

Onların istənilən vaxt xəstəxanaya girmələrinə icazə var, amma palatalara daxil olmaları qadağandır. Çünki bu, səhiyyə qanunlarına ziddir. Məncə, icazə olsaydı da, onlar belə eləməzdilər. Əllərindən gələn odur ki, palatanın qabağında dayanıb hönkürtü ilə ağlasın, öskürüb sus-pus dayansın, ya da mənə heç bir köməyi dəyməyəcək söhbətlər eləsinlər. Qabaqlar, "Axmaqlar, əl çəkin məndən,

səssizlik əla işdir!”, – deyib var gücümlə bağırmaq istəsəm də, iflic olduğumdan bunu edə bilmirdim. Heç indi də bu məndə alınmır! Lap alınsa da, mümkünsüzdür, çünki çoxdandır gəlib-gedənim yoxdur.

Məncə, “iflic” sözü hərəkətsizliyin ən gözəl simvoludur. Yadımdan çıxmamış onu da deyim ki, bu cür böyük birmərtəbəli xəstəxanalarda qədimdənqalma bir adət var. Bu adəti indi də yaşadan ifliclərin ailə üzvləri və tanışlarıdır. Adət belədir ki, onlar öz adamları hansı palataya köçürsə, bir neçə müddət sonra oranın damını təmir etdirirlər. Qabaqlar bu jestin nə demək olduğunu heç cür anlamırdım. Amma indi artıq başa düşürəm. Bir də ki nə jestbazlıqdır e?! Onlar bu əziyyətə öz adlarına ləkə gəlməsin deyə, qatlaşırlar, yoxsa darısqal palatanın damından ifliclərə nə?!

Sağlam vaxtlarımda bu cür xəstəxanalarda yatan bəzi tanışlarıma öz doğmaları tərəfindən belə jestlər edildiyinin şahidi olmuşdum. Amma nə gizlədim, doğmalarım öz adları üçün mənə göstərdikləri jestin ustalar tərəfindən necə iyrənc bir şeyə çevirildiyini görsəydi, yəqin ki, dəli olardılar və bu, ustalar üçün heç də yaxşı qurtarmazdı. Ustaların öz yerində sakitcə uzanan ifliclərə məhəl qoymadan elədiyi ucuz zarafat və boş-boş didişmələr hər palatanın damı təmir olunub bitənə qədər, adətən, eynilə təkrar olunur.

Yaxşı yadımdadır, palatamın damını suvayıb düzəltməyə gəlmişdilər. Danışıqlarından iki nəfər olduqları hiss olunan axmaqların səsi və küləyin vıyıltısı palatanı başına götürmüşdü. Mənim üçün elə vacib olmasa da, bekarçılıqdan düşünürdüm ki, görəsən, bu axmaqlar damı yaxşı suvayacaqlarmı? Palatam bayırdan necə görünəcək?

Elə bu vaxt üzünü görə bilmədiyim ustalardan biri digərinə, – “Gic köpəkoğlu gic, niyə heç vaxt dediyin sözün üstündə durmursan? – deyə lağlağı bir sual verdi.

– Hansı sözün?

– Hansı sözün, hansı sözün! Canına azzar, gözünə də belə lap vərəm sözün! Necə yəni hansı sözün? Bilmirsən, bəyəm hansı sözün?

– Boş-boş mırtdıyıb ürəyimi üzmə, sözünün canını de.

– Ay əclaf, on gündür ki, pivə qonaqlığımı fırladırsan. İndi bildin, hansı söz?! Sement tök bura!

– Tüpürüm sənə də, sənin yoldaşlığına da! On gündür sənə demirəm ki, bəs, böyrəklərim xəstə düşüb?! Axşamlar sidiyə gedəndə gözümdən yaş gəlir.

– Mənə nə? Gedək, mən içərəm, sən də ac it kimi ağzının suyunu axıdarsan. Təkcə pivə içəndə yox e, ha, ha, ha, ha, mən tualetə gedib, iyirmi saniyə sonar geri qayıdanda da.

– Nə murdar adamsan əəə sən!!!

– Murdar sənsən ki, için çürüyür, ha, ha, ha!

– Gəl, sənə bir tapşırıq verim, istəsən, lap mərc eləyək. Əgər dediyimi eləyə bilsən, yalan deyirəmsə, nəslimə-kökümə nəhlət, işi qurtaran kimi gedirik pivəxanaya.

– Bəs eliyə bilməsəm, nolacaq?

– Heç nə. Kefim nə vaxt istəsə, qonaqlığını onda verəcəm. Yox, əgər mərci sən udsan, ağrıdan ölsəm də, atasına nəhlət yalan deyənin, axşam sənnən bərabər içəcəm.

– Əvvəla, bacarsam da, bacarmasam da, sənin atana nəhlət! İkincisi, de görüm, mərcin nədir?

– Ay iyirmi saniyəyə geri qayıdan oğlan, nə qədər ki, üstünü bərkitməmişik, elə bil tualetdi, işə bura.

– Nə?! Bura?!!

– Hə… ha, ha, ha!

– Başın xarabdır?! Axı süzülüb aşağıdakının başına tökülləcək.

– Əşşi, dili yox, ağzı yox, sən başla!

Bu adam həmin gün pivə içməyi necə başına doldurmuşdusa, söhbəti uzatmadı. Qabaqca nəsə şırhaşır səs gəldi, az sonra damdan üstümə damcı-damcı sidik süzülməyə başladı. Damcıların bədənimə necə toxunduğunu hiss edib, bərk qəzəbləndim! Amma nə illah eləyirdimsə, səsimi qaldıra bilmirdim! İfliciydim, axı!..

Çox keçməmiş mərci uduzanın, – “Söz! Sənə araq alacam, halal olsun, ha, ha, ha!”, – deyib, qəhqəhəsini eşitdim. Onların səslərini eşitmək get-gedə çətinləşirdi. Sidiyin son damcısı üstümə çox nazla düşdü. Yır-yığış edib getdilər. “– Bu nə biabırçılıqdır?! Heç başıma belə iş gəlməmişdi!” deyə düşünürdüm.

Ertəsi gün yenə gəlib, çox uzun-uzadı çalışdılar. Ta ki onlar işlərini qurtarıb gedənəcən heç nəyə məhəl qoymurdum. Bir şeyi qaçırmışdım – “Axı dünən işin axırında, bu gün də vaxtaşırı onların səsi nəyə görə get-gedə uzaqdan eşidilməyə başlayırdı?”

Qəfil səssizliyin baş qaldırdığını hiss etdim. “Onlar çıxıb getmişdi, bəs küləyin vıyıltısı, xəstəxananın yanından ötüb keçən maşınların siqnal və təkər səsləri hara yoxa çıxıb?” – deyə bura

gəldiyim gündən bəri ilk dəfə xoflu halda düşündüm. Yanımda iki şey hiss edirdim – qaranlıq və səssizlik… O gecə üçümüz də əzəmətli şəkildə bir-birimizə təslim olduq. Lənət olsun! Ən çox qorxduğum şey başıma gəlmişdi – yavaş-yavaş həyata xiffət hissi duymağa başlayırdım. Çünki onun səsini kəsmişdilər! Keçmiş həyatıma aid bütün xatirələri yada salmağa başladım. İlk yadıma düşən sağlam vaxtlarımdakı bir gecə idi…

Qışıydı… Həmişə olduğu kimi çoxlu siqaret çəkib, otağımı tüstüylə doldurmuşdum. Pəncərəni açıb, dişlərimi fırçalamaq üçün hamama getdim. Geri qayıdanda qoxu da, tüstü də hələ otaqdaydı. Pəncərəyə dəstək üçün eyvanın da qapısını açdım və çəkələyimin bir tayını qapıyla döşəmə arasına dürtüb yerimə uzandım. Ətrafdan maşın, adam, it, pişik nədir, heç külək səsi də gəlmirdi. Amma o vaxtacan mənə tanış olmayan bir səs varıydı ki, ona biganə qalmaq olmurdu. Guya ya dünya nəfəs alır, ya da təngnəfəs olurdu. Dayan, dayan, guyasıfilanı yoxuydu, elə fikirləşdiyim kimiydi ki, durmuşdu! Vahimə içində cəld ayağa qalxıb, qapını, pəncərəni bağladım və yerimə uzandım. Sonrakı günlərdə nə qədər çalışsam da, o səsi bir də eşitmədim, ta ki palatanın damının təmiri qurtaranacan…

Bu xatırlama sonrakı peşmançılıqlarıma toxum səpmişdi və onlar hər saniyə, hər dəqiqə, hər saat, hər gün cücərir, amma pöhrə vermirdilər. Onda bu səsdən axı niyə qorxmuş, həyatın gözəl, təravətli, həzin, cilvəli nəfəsinə dərindən qulaq verib, onu var gücümlə ciyərlərimə çəkməmişdim?! Nəyə görə bütün bu lütfkarlığına baxmayaraq, bircə dəfə pıçıltı ilə olsa da, ona ürəkdən minnətdar olmamışdım?!

Bunun ardınca sağlam vaxtlarımdakı bütün yaşadıqlarım saniyə-saniyə üstümə aşmağa başladı. Məktəbli vaxtlarımda bir dəfə məndən çörəyin pulunu almağı unudan satıcı qadını, kağız pulu ovcumda gizlədərək ehtiyatla univermaqdan çıxmağımı, univermağın çıxışındakı balıq və heyvan yemi satılan bölməni, bu bölməyə gələn alıcılara anlaşılmaz nifrətlə baxan satıcı kişini, göy rəngli akvariumdakı növbənöv balıqları, mənim üçün yaradıldığını düşündüyüm və barmağımı şüşədən düz dodaqlarına söykədiyim balığı, tərləmiş ovcumda əzilən pulu satıcıya uzadıb, qətiyyətlə – "Alıram! Verin!" – deməyimi, satıcının balığı suyla doldurduğu plastik paketə qoyub, incə bir gülüşlə mənə uzatmasını, evə qaçıb balığı su dolu şüşə balona buraxmağımı, sonra saatlarla onun hərəkətlərini izləməyimi, qəfildən balondakı suyun mağazadakı akvarium kimi göy olmamasının fərqinə varmağımı, bu kəşfimdən doğan təəccübümü, az sonra məsələdən çıxış yolu tapıb qürurlanmağımı, qələmi qayçıyla ortadan kəsib göy rəngli məhlulu suya damcılatmağımı, istədiyim nəticəni ala bilməyimin nəşəsini, o gecə böyük bir rahatlıq içində dərindən dərin bir yuxuya getməyimi və ertəsi gün balığın cansız bədənini görməyimi xatırladım. İlahi, bu anlar ömrümün hansı küncündə tozlanıb görünməz olmuşdu?! Onlar nağıllardakı mərdimazar divlərə bənzər qayğılarımın dabanı altındamı əzilmiş, yoxsa üfüqün gözü kor edən parlaq işığındamı seçilmirdilər?! Necə də məftunluqla, kədərlə dolu anlar idi? – deyə o gündən bu günə düşünürəm.

Günlərdir unutduğum qorxu deyilən bir duyğu geri qayıtmışdı. İflic olduğum üçün qabaqlar mənə üzülən doğmalarımı daha qınamırdım. Sən demə, mənim mərhəmətə ehtiyacım var imiş! Elə hey nələrisə xatırlayırdım... İnanın, bu nağılımı sağlam vaxtlarımı xatırlamamaq, qorxmamaq üçün uzadıram. Həm də, əslində, "siz" deyə bir şey və mənim sizləri uydurmaqdan savayı çıxış yolum yoxdur.

Kaş bu neçə gündə yaddaşımda nələrin xortladığını biləydiniz! Məsələn, avtobusla və piyada gedəndə adamlara duyduğum sərhədsiz nifrət hissini… Ən kobudu və mədəniyyətsizinin yaşamağa haqqının olmadığını, ən "düzgün"ün isə hansısa fayda üçün özünü belə göstərdiyini düşünürdüm. Yox, yox, düşünmürdüm, buna tam şəkildə əminiydim. Adamlar iki cür idilər: kobud və mədəniyyətsizlərlə yola getməyin asan, özünü aktyorluğa vuranlarla isə mümkünsüz olduğuna inanırdım. Çünki bu ikincilər gülür, qaynayıb-qarışır, daim xeyirlərə vəsilə olur, amma mən onların gözündə hansısa mübhəm bir arzuya çatmaq həvəsi görürdüm. Axı niyə, nəyə görə bu cür düşünürdüm?! Bəs mən özüm necəydim? Kim idim?! İlahi!!! Onların şəhərin küçələrini, metrostansiyalarını, məhəllələrini, xəstəxanalarını – bir sözlə, bütün künc-bucaqlarını dolduran səs-küyləri, pis və yaxşı sözləri, gah sualedici, gah da sonsuz məna ifadə edən baxışları necə də dəyərli imiş! İlahi, indi şəhərlərə, küçələrə sonsuz addımlar iz salır, dodaqlardan sözlər yayılır və onların sahibləri mənim yoxluğumu hiss etmirlər. Amma mən bu bəşəri itkimi hiss edir, tənhalığın kabusanə rəngini qəbul edə bilmirəm. Eynən kiçik dünyasını göy rənglə zəhərlədiyim o balıq kimi!!!

Palatamın damını suvayanlara min lənət olsun! Darısqal komamı bütün bəşəri səs-küydən məhrum elədilər. Hələ qapalı gözlərimin arxasındakı qaranlıqdan danışmıram! Onu aydınlığa qovuşdurmaq heç cür mümkün deyil. Sağlamlıqda sayca neçə dəfə evimin işığını yandırmışdım! Ən acısı bilirsinizmi nədir? Adi saydığım bu şeylərdən məhrum qalacağımı bircə dəfə də olsun düşünməməyim!

Nələri xatırlayıb, nələrin həsrətiylə qovrulduğumu bilən olsaydı! Diş ağrısını, baş ağrısını xatırlayıb, insan kimi ağrımaq üçün nələri qurban verməzdim!!! Kaş öz evimdə olaydım! O hündürmərtəbəli binadakı bütün mənzillərin qapısını döyüb, – "Mənim danışan, addımlayan, gülən, ağlayan, mədəni, kobud qonşularım necəsiniz? Bəlkə, bu axşam bizə toplaşaq? Uzun-uzun dərdləşməyə nə deyirsiz, hə? Bəlkə, birlikdə futbola baxaq?", – deyə təklif edərdim. Axı burdakı qonşularımın qapısını döyə bilmirəm. Onlar gördüyüm ən qapalı, ən sakit, ən maraqsız adamlardır. Lənət olsun iflic olmağa! Bu ada min lənət!!!

Dayan, deyəsən, kimsə gəldi!!! Zibilə qalsın, heç cür eşitmək olmur! Yox, yox, bunu əldən qaçırmaq olmaz! Bəlkə də, son yüz gündür ziyarətimə heç kim gəlmir. Bayaqdan, – "Ailəm, sevdiklərim ağlayırlar, sus-pus dayanıb öskürürlər", – deməyimə baxmayın. Bu yalnız beş, ya da altı dəfə baş verib. Nəsə, azca səbirli olun, bu dəqiqə onun kim olduğunu biləcəm. Deyəsən, hava da sakitdir. Bəh-bəh, bəlkə də, günəş çıxıb. Bu kimdisə, hələ danışmır. Yaşasın! Necə sevinirəm!!!

– Salam, oğlum.

Bu, atamdır. Bu, onun səsidir. Oh!!! Nə yaxşı ki, gəlib çıxdı:

– Salam, ata, necəsən?

– Oğlum, bilirəm ki, məni eşitmirsən!

– Sən nə danışırsan, ata?! Mən səni eşidirəm. Lap dərinə getsək, hələ səndən kümüşəm də!

– Bilirəm, oğlum, gəlib-gedənin yoxdur. Belə baxanda camaatı heç qınamıram! Axı nəyə görə gəlsinlər?!

– Cəhənnəmə gəlsinlər, mənə sən bəs edərsən!

– İndi tərpənib, danışa bilsəydin, məni bu sözümə görə borclu çıxardacaqdın!!!

– A kişi, xəbərin var ki, səni eşidirəm?! Nədir, məni borclu çıxarmağa gəlmisən?!

– Etdiyini etdin, dağıtdığını dağıtdın!!! Yaxşıları yaxşılıqdan çıxardın. Hamını özünə düşmən bildin! Ailəni dağıtdın, uşaqlarına bircə gün də olsun yiyə durmadın! Bütün ömrüm boyu yığdığım var-dövləti bir ayda havaya sovurdun. Yolda yeriyən itə də mız qoyurdun! Amma kaş biləydin ki, əzab verdiyin doğmaların nə qədər ağladılar sənin üçün.

– Hə, bilirəm. İndi onlar hardadılar bəs? Yaxşı görək, bəsdir, ata! Hamısı artistlik eləyirdi. İndi bunları danışmağın axı nə mənası var?!

– Bir dəfə səndən xoş üz görmədim! İndi üzün də susub, dilin də! Gəldim ki, sağollaşam.

– Bu nə danışır?! Nə sağollaşmaq, a kişi?! Atamsan, sən gərək mənlə kin saxlamayasan.

– Gedirəm Finlandiyaya, bəyənmədiyin qardaşım uşaqlarının yanına. Daha məni bura bağlayacaq heç nə qalmadı. Qayıtmayacam. Allah qismət eləsə, elə orda da öləcəm! Qardaşım uşaqları yaxşı adamlardır, mənə yiyə çıxarlar! Dilim gəlməsə də, deyəcəm. Sən indiyəcən eləmədiyini elə… Öz başının çarəsini qıl! Sənə su gətirmişəm. İç, bir az yüngülləş.

– Ey tökmə o suyu, tökmə!!! İlahi, o neynir?!

– Sağ ol, oğlum! Biləsən, həmişə ürəyimdə olassan!

– Ey ata, ata, ata, getmə, ata, yalvarıram sənə! Bilmədiyin şeylər var! Mən bütün səhvlərimi anlamışam, üstəgəl, çox qorxuram, ata! Bütün danışıqlarını eşitdim, kaş sən də mənim dediklərimi eşidəydin! Ata, nə olar, getmə! Ata!!! Ata!!! Hələ bir de görüm, hava günəşlidirmi?! Ax, ax, ax, o maşının qapısını necə bərk çırpdı! Mən o maşının qapısını nə qədər açıb-örtmüşdüm! Ata! Getdi, getdi, getdi!!! Hamınızı zibilə qalasınız, axmaqlar! Heç kimin mənim buranı qəbiristanlıq yox, xəstəxana, qəbir yox, palata olduğunu düşünüb, günlərdir özümə toxtaqlıq verdiyimdən xəbəri yoxdur. O murdar ustaların başdaşımı, sinə daşımı düzəltdiyini bilirdim, amma bunu qəbul edə bilmədiyim üçün uydurmalara baş vururdum. Mən hamınızı, hər şeyi, eşidirəm! Axmaqlar, biz cismən ölmüşük, amma bütün günahlarımıza, savablarımıza baxmayaraq, yolunuzu gözləyirik! Siz də öləcəksiz! Sən də öləssən, ata!!! Aldanma ki, ruhun bədənindən çıxıb göyə qalxacaq! Yox, o bax elə burda, o suyu əndərdiyin yerdə islanıb quruyacaq! Səni də isladacaqlar!

Ey, qəbir qonşularım! Biz iflic olmamışıq, ölmüşük! Bura qəbiristanlıqdır! Qaranlıqdır! Eşidirsiz?! Yoxsa siz bunları bilrdiniz?! Siz bunu necə qəbul etmisiniz? Ax, ölmək necə də dəhşətlidir…

Ələsgər ƏHMƏD

QARANLIĞA ƏRİYƏN ŞAM FƏDAKARLIĞI

Sıçrayış üçün
dizlərini bükmək vacibatdır, – dedi bir çəyirtkə:

Böyürtkən yabanılığında,
kolların tərpənişindən ürkmək, toxumdan əbədi.
Alimin enişindən şikayətlənən,
çobanlığını da cəhalətin məbədi yedi.

Röyalara riqqət!
Hündür pozuntuları qoruya-qoruya yolların
bəstəboy azır.

İmperiya zindanlarından həqiqət yazır:

Teymurun axıtdığı qanlar
burnundan üsyan etdi,
başını göyə qaldırsa da, boğazında boğuldu.
Sığal çəkdi
bir zaman işğal xətti çəkdiyi torpağa.

Çingiz xanın təkəbbürlü duruşu
belini sındırdı,
şəcərəsindən bir ağac doğuldu,
o da başını əyməklə ibrət oldu yarpağa.

Hər evin pəncərəsindən,
çöl içərini görməyən də
sənin də, damarını kəsdiyin əlin
çarpayından yerin cazibə qüvvəsini bir daha
təsdiqlədi.
Alovun xəncərini
dövrəsini odlayan əjdaha təsdiqlədi.

Ovun fəryadına
xalçaları qırmızıya boyadı qəddar ləyən də,
əlamətdar edamların dadına
artdıqca faciə, beyət yetdi.

“və” qucaqladı “lakin”i
mən də,
ikinci dünyama səriləcək çəməndə əsdim,
Quraqlığımı seçdi behiştim

Bankohg sakini müraciət etdi;
Van Qoq,
çəkdiyimi eşitmədim, qulağımı kəsdim,
Çiynimə süzülən damcıların səsini eşitdim.

Əyalətin ortasına doldular
təkzib etmək üçün – qaniçən əmrlərini,
dedilər, haqqdan yazılış:
qanı eyni qalan vücud yarasında vahidlik.
Sizin təzim bütədi...
Qəflətən limanda gəmilərini tərk etdilər

Dərk etdilər;
Yağış –
torpaqla bulud arasında ilahi rabitədi.
şahidlik edən ayaq izlərini qorxudur,
Duman da
qanlı bədən atəşindən ucalan dayaq közlərini
azdıran irfani “qorxudur”

Bilməzdilər,
ağzına parça tikilənlərin sözləri qəliz olur,
Diqqətsizlər üstündə gəzdilər
gözləri bir nöqtəyə qırpınmadan dikilənləri.

Ahını izlədik rəqəmsallardan,
çırpınmadan, bu əmsallardan köçün,
çünki
3-ün,
boşluqlarını soldan dolduranda 8,
dilim ayaqlarıma danışdıqlarını
yoldan quranda iz olur.

Bu gün də səbir!
Nəsə bir narahatlığa sus, nəyəsə xatir, nədisə
Mütavatir hədisə əsaslan.

Köstəbəkləri xəbərsiz düşünmə,
göbələkləri papaqsız.

Düyünlərin ömrünü bitirməkdənsə – çöz
Qapaqsız qum saatına tozsoran tutub
zamanı bir hərəkətdə itirməkdənsə – döz.

Paslan...
Meşədə təhlükə hiss etmədikcə
nərildəməz aslan.

Çarpayının yanında
biləyini sarıdıqca boğuluram qanında,
qayıtmırsan
əsməcə tutan pəncələrimə taqqıltı dadanır.

Eşitmisən,
mənim də söz demək eşqim, sözün haqqını danır.

Mütləq nəsə yazmısan.
Deyirdim də. Məktubundakılar:

"Heç vaxt ağlamayan şair,
biləyimi sıxdıqda şeiri hönkürdü.
Biz nə qədər uçurumun
qəddindən dartdıq,
indi birimiz yolçudur.

Bil ki,
eşq həddindən artıq solçudu.
Və onun içindən sağ çıxmaq qeyri – mümkündü".

Sən gələnədək görəcəksən,
bir üləma kənizini basdırdılar,
Ankaranın dənizini asdırdılar.

Yenə öləcəksən.
Deyəcəksən,
ağ rənginin fərsizliyində gecələri qaradı qışın.

yaradılışın inkarı hünərsizliyində
hünərdim:

"Deməməliydi Zərdüşt,
gərək
intiharı Məliklə müştərək düşünərdim".

Bu sənsən,
elə bu olmalısan, təsadüf mərhələdə.
Təəssüf, hələ də...

Yol göstərmir, biri sevgiliyə,

pişiklərin itə döndüyü məstan göllərində
Pinqvinlərin üşüdüyü
Ərəbistan çöllərində
Haramilər yaşayır haram ilə.

Susqunluğa dastan, qadın döllərin də
bətni – məcburi evliliyə hamilə.

Buna da sus,
sənin də qırmızı olacaq biləyindən axan
ot kimi yaşayanlar,
hardasa günəbaxan.

Taleyində var.
Qapısı döyülməyən
meyxanə sahibinin saqilik əhdi,
əcəli sərxoş istəməklə edilən baqilik cəhdi.

Cavabsız telefon çağırıqlarının fərmanı,
Səncə,
ilanın zəhərimi,
pişiyin üstündə yatışımı ağrılarının dərmanı?

Məncə,
bataqlıqdan "Ney"ə çevrilən qamışlar
Onun lütfündən hali,
bəs xəcalətinə əhali qütbündən dözərmi?
Tarixin sinəsində mərmi qalmışlar.

Yordum?
beynini süquta uğratdı izahat ordum?

Çək,
yəqinliyini gümandan.

dəfn etdikdə qanadı yerdə sürünər
anadı, vəfat adlı səfərdə – bala qarğası

Öyrən,
öyrətdikdə çabala bir az.
Ümmandan yox, insandan görünər etiraz dalğası.

Tamaşaçını unut,
səni səhnəyə hazırlayanın alqışları mühümdü.

Ovcundakı müqəddəs qunut:
"O, rəhmanir-rəhimdi!"

Davam et,
salamdı! Nəyə dəvətnamə?
Qətnamə: "Üzümün gözündən çəkilən şərab,
haramdı".

ARZU SİMFONİYASI

Qələmin sonuncu mürəkkəbiylə
nəysə yazmalıydım, adını xatırladım.

Deyəsən, səni sevirdim,
üzümü çevirdim, gecəliyində ulduz kimi parladım.
Gözlərimi tək qoymazdı,
öpüşlərdən doymazdı dodaqlarının tətmini

Çiyninə toxunmaqla dəyişirdim ürək ritmini.
İstəsən, gəl,
amma mənim təhlükəlidir çevrəm,
Üstəgəl,
polislər harda görsələr, aparacaqlar.
Damənim ləkəlidir
saçlarında gəzişən barmaqlarımı qıracaqlar.

Qısqanacaqlar
mənim sevgimi, sənin xoşbəxtliyini,
qorxacaqsan qaranlıq podvaldan,
cəsədimin iyini hiss edəndə darıxacaqsan –
ruhum eşqlə möhürlənəcək mənsiz bədəndə...

Məni arzulayacaqsan,
sənin olmasam da, sən olacağam və sən də
sağsan.
Yaşlansan da,
yadından çıxmayacaq
yanından aparılan gənc şairin ölümü.

Heç kim sənin kimi sıxmayacaq əlimi.

İndiysə
dalanında güllələndiyim küçəyəm,
Həqiqətə çevrilirəm, bir ticarətçi yalanında.

Nə olsa da,
ürəyim morqda qalsa da, mütləq səni sevəcəyəm.

Arzum budur ki,
özünü qoru. Xəyallar qur ki, yanında varam.

Məni o qədər sevərsən ki,
sevgi şeiri yazmaram.

SOLİST

O, müttəqi idi.
Onu daşlayanlar əzazil olub.

Quranı elə oxu,
düşün ki, bir yuxu əsnası sənə nazil olub.

Çünki
yağışın gur anı qaçmağa başlayanlar
küfrün azacıq kinayəsiylə,
xainlərin məntiqi idi əksər dində.

Bəzi ayinlərin məqsədində
ayəsiylə açıq qapılar – kahin dayanır.
Qarışqaya
Süleymanın səsiylə pıçıldadılar – İbrahim yanır.

Allaha üsyan –
evdə atana qışqırmaq kimidir,
gedişatdakı şilləni yeyən də sən olursan...

Dişaltdakı ucuz nemətlərə
baha nisyan!
Hekayənin sonuna çatana, başlığı qəmidir, –
deyən də sən olursan.

Bir ərazidəki yalnız güc tanına,
orda nə ibadət, nə səs-küy, nə büst?

"Mənim vicdanım, mənim Tanrımdır"
deyənlər də gördük, öz vicdanına ateist.

Qübbələr
ondan məhrumların gözünə siratdı,
məscid xana,
qüllələr özülünə qayıdar,
güllələr özünə.
Təcridxana – Məhkumların fəthi – iraddı,
vəd edilənlər səthi xatiratdır – mazidəki.

Qazi də ki
şəhidliyin şahididir.
Bir az da ümid – təəssüfü sevirsən də
Armud ağacında arı pətəyi,
səmaların ətəyi – şimşəklərin sarı sayğacında
uğurun vahididir ayılar.

Ümidlənmə.
Dırnağınla dünyanı məzarlığa çevirsən də,
traktorun etdiyi əziyyətli sayılar.
Günahın yox,
qoxusuz bağçalar yenilməz – bu, şükufə cəhli
parlar barmaqçalar – bəyənilməz kufə əhli...

Sevmək gözəldi...
Sanki öz dadıyla öyünür qaşıqlanmış xörək,
aşiqlənmiş ürək,
onu gördükdə normal ürəkdən sürətli döyünür...

Həvəsin də olur,
Lakin havayı pendir siçan tələsində olur.
İzləmə!
eynisini oxumaz, tar siminin qəsbkarı.
De ona:
Stəkanın içindəkini
masanın külqabısından çölə atdın,
sona çatdın.
Çağırıldığın məkanın qapısından
əl sallamağımı gözləmə,
Kimi qarşılayıb ki yas mərasiminin səbəbkarı?

Çox da önəmsəmə,
həm də hazırlaş.

Razılaş –

Qəbrini nurlandırar vətən? Haşa!
Qədər adlanar
10 nəfəri güldürmək istəyən,
tək məşq edər və tənha şadlanar.

Odun üşüyəndə
özü üçün, cəhənnəmdə sənincün odlanar ...

səssizlikdəki qaçışından bəlli ulduz.
həmin ulduz ki,
ay bədirləndikdə qısqanclığını büruzə,
yeraltı qablar kirləndikdə
otuz iki dişi tüpürcəklərə kuzə edə bilər.

Edərsə zümzümə hamı,
cəldliyin pozular.
Fərsizlik də ki utancdan "Ərsə"
eybdən qısa.

Nisa. 159.
tərcümədə: qeybdən xəbər;

cümə axşamı etdiyin mötəbər arzular
yerinə yetər cümədə.

Zəruri qeyd:
Özünü inqilabçı sevdirib,
burjua hərakatıyla qaçanlar gimnaziyası.
Budda hərəkətiylə
pişik gözündə itə çevrilib siçanlar poeziyası.

Eşqini susdurur divan, binəvaların da
Varın təkindəkini,
torlar hörəndə pusarsan...
Heyvan müqəvvalarında nekrofillər – səfillər.

Karın könlündəkini korlar görəndə susarsan.
Onlar zirvələrə çatmış heyətdi
Fasiqi bulağına qatmaz şövqünü,
dayaz almazlar.

Üstünlüyümü 3 rəqəm etsən,
yaz: 667.
Qeybətdənsə get sən.
Musiqi qulağına kiminsə zövqünü pıçıldamazlar.

Köməkkkkk....
demək belə, siqaret satışında köşk ürək
atışında öldürücü öskürək.

Boyun durduqda təkanına inandığın dirsək
Əssə, itirərsən yaddaşını,
Dəyər
gözümüzü yuma bilsək,
Təbiət ana ağacları soyundurduqda
çiçəklər abrından başını əyər.

Məhdinin Armageddonda ordu rəhbərliyi
Hegemon da,
zəif də sordu;

Xızırın əhdinin,
megida dağına səfərbərliyi?

Yox,
insanların birliyi, misraların şairliyi...
Həyəcanlılar qazanar, ali qatlar
Canlılar,
kitabdan – kitaba görünüşcə dəyişən ilahi plagiatlar.



Təqvimi dərk edə-edə
keçirir qəza əsrlər,
Get-gedə pinqvinlər tir-tir əsir,
İxtiyarlar zülmə
ədalət deməsin də, axı uşaqlar demir.
Və dəmir döyülmək istər isti-isti

Artıq ədalət məhkəməsində
1 əsr cəza kəsirlər,
artıq nihilistlər narsistdi.

Qayıtmaq olsa, qayıdaram
dostumun dənizinə, qəsd vadisinə aparan
mövsümə.

Bir də sənin bənizinə yansıyıb
hissləri qoparan,
qəlblərin ən adisinə yaşa deyən, öldürücü
təbəssümə

Bunları yemlər əyalət,
teoremlər çox vaxt,
Borxesin irlandiyalı falçı məktubunu yandıran

Bəs səncə,
tərbiyələndirən, yoxsa cəzalandıran ədalət?
Əfv diləyim?
meymunlar cəhənnəminə etsin qorilla sitəm.

Məxfiliyim – Kontrgerilla Jitem.

Rengin KIZILDOĞU

YAŞIL LİMON

(hekayə)

Küçədə kimsə yox idi. Hardasa yeriməyi unutmuş qıçlarını açə bilmək üçün hədəfini bir az da uzağa daşımağı düşünürdü. Daxili səsiylə münaqişə halındaydı. "Marketə qədər çətin gedərsən", daxili səs deyirdi, lakin qıçları yorulsa da, iradəsinin təslim olmaq fikri yox idi. Məqsədi bu dəfə marketi keçib beş bina o yandakı poçta çatmaqdı. "Tamam, artıq poçt binasından dön, bax evə iməkləyərək qayıdası olacaqsan!" – daxili səs deyirdi. "Sənmisən bədəninə etibar eləməyən, əczaçı evini görmədən geri dönməyəcəyəm!" hirslə deyirdi.

Səhər saatları bu dioloqlarla keçirdi. Aylarca evində təkbaşına qalmışdı. Daha pisi də o idi ki, onu axtarıb arayacaq kimsəsi yox idi. Küçələrdə insanlar da olmayınca dünyası dərin bir səssizliyə qərq olmuşdu.

İçindəki musiqi susalı çox olmuşdu, əslində. İnsanlığı öz dünyalarına həbs edən virus təxminən bir il idi sürətini azaltmadan yayılmağa və insanları öldürməyə davam edirdi. Öncə məktəblərdə tətil oldu, xəstəxanalar viruslu xəstələrlə dolub daşdı. 65 və yuxarı yaşı olanlar təhlükədə olduqları üçün küçəyə çıxma qadağası qoyuldu. Bütün ofislər, meyxanalar, kinoteatrlar, alış-veriş mərkəzləri bağlandı. Sadəcə, yaşadığı ölkə deyil, bütün dünya səssizləşdi. Zamanla insanların alışqanlığı yaddan çıxmağa başladı. İnsanlar yeriməyi, qucaqlaşmağı, öpüşməyi, qol-qola girib gəzməyi, alış-veriş eləməyi, növbədə tanımadıqları insanlarla gözləməyi unutmağa, ən əsası da bunları eləməkdən qorxmağa başladılar. Xəstəliyin yayılmasını əngəlləmək adına istifadə olunması çətin olan maska üzlərini elə örtürdü ki, təbəssümlər görünməməyə başlayırdı. Zaman keçdikcə insanlar onsuz da gülməyi unutmuşdular.

Özümün vəziyyəti isə bir az başqa cürdü. 23 yaşından bu yana bu həyatda təkbaşınaydı. Dilə asan gəlir, kimsəsiz qalalı otuz yeddi il olmuşdu. Acı bir olay yazılmışdı həyatının ortasına. Özüm oraya nöqtə qoyub, bir növ yeni sətrə böyük hərflə başlaya bilməmişdi. Qonum-qonşu çox acısa da, kimsə əl uzatmamışdı. Maddi sıxıntısı olmayınca, bəlkə də, başqa bir ehtiyacının olmadığını düşünmüşdülər, kim bilir. Xoş bir münasibət qurmağa çalışsalar da, böyük ehtimalla Özümdən qarşılıq görməyəcəkdilər.

Hamilə qaldığı üçün evlənmək məcburiyyətində olan bir ana ilə varlı ailənin tək övladı olan bir atanın könülsüzcə nikah bağlamalarının səbəbi olan "arzu olunmayan uşaq"dı Özüm. Adını qoyan və hər zaman bir qız övladı olmasını istəyən rəhmətlik atasının anasından on yaşına gələnədək

gördüyü sevgidən başqa bir daha sevgi və şəfqətə bənzər bir duyğuyla qarşılaşmamışdı. Atası onu heç görməmişdi, varlığına etinasız olmuşdu. Olumlu, olumsuz heç bir əlaqələri olmamışdı Özüm ilə. Birlikdə çəkdirdikləri tək bir fotoşəkilləri belə yox idi. Anası da hər zaman "Sənin üzündən" deyə başlayan cümlələr qurmuşdu Özümə. Özümün yaşanan bütün fəlakətlərin öz günahı olduğunu sanması həmişə o cümlələrdən qaynaqlanmışdı. Duyduğu ən gözəl sevgi dolu cümlələr atasının anasının ipək kimi səsindən gələrdi qulaqlarına, ordan da qəlbinə enər, içini isindirərdi. "Yaşıl limon qoxulu qızım" deyərdi atasının anası Özümə. Bağçalarındakı yaşıl limon ağacları ata nənəsinin ən sevdiyi ağaclardı. Bu bənzətmə, bəlkə, ondandı, bəlkə, başqa bir səbəbi var idi, amma Özüm bunun cavabını heç vaxt bilmədi.

Bir-birlərini və uşaqlarını heç sevməyən, münasibət qurmaq üçün əsla səy göstərməyən ərarvad tək bir ortaq nöqtədə qovuşmuşdular: Ölüm. Maşınlarını bir təpədən dənizə sürmüşdülər.

Xəbər ətrafdakı insanlar tərəfindən bir faciə adlandırılmış olsa da, Özüm bu itkidən ağır bir psixoloji travma almadı. Heç sahib olmadığı ana və atası cismən də həyatından çıxmışdılar. Özüm onsuz da öz səssizliyinə o qədər alışqan idi ki, həyat tərzini dəyişdirmədən əvvəlkitək yaşamağa davam eləmişdi. Əcnəbi dil məzunu olmuşdu həmin il. İnsanlarla əlaqəsi son dərəcə zəif olduğundan müəllim olmaq ona uyğun deyildi. İnsanlarla ən az əlaqə qura biləcəyi sahəni seçərək evdə tərcümələr eləməyə başlamışdı. Bu sahədə böyük uğurlara imza atmış və illər içində axtarılan bir tərcüməçi olmuşdu. Bu arada texnologiya da sürətlə irəliləmiş, işlər daha da praktik bir hal almışdı. Özümün daha çox vaxtı olduğundan daha çox oxuyur, yazır və düşünürdü. Vaxtının qalan hissəsini bağçasındakı meyvə ağaclarının arasında gəzir, bir az o tərəfdəki dənizə girir və öz məhəlləsində qaçmağa sərf edirdi. Qonşularla salamlaşır, lakin bir cümlədən artıq danışmırdı. O qədər sevgisiz böyümüşdü ki, bütün tələbəlik həyatından bir nəfər rəfiqəsi belə yanında qalmamışdı. Gündəlik əlaqələrdən savayı heç bir əlaqə qurmurdu. Hər kəslə ürkək və çəkingən rəftar eləyirdi. Kiçik yerdə böyüyərkən dedi-qodular əsla onu rahat buraxmır, insanlar da susmurdu. Özüm üçün müxtəlif əhvalatlar uydurur, həqiqətlə əlaqəsi olmayan hekayələr danışırdılar. Özüm bunları heç eşitmədiyindən özü haqda danışmamış, amma vəziyyət belə olunca özüylə baş-başa uzun illər keçirmişdi. Pandemiya dünyanı və insanları təsir altına alanda – insanlıq dərindən sarsılarkən Özüm, bəlkə də, heç təsirlənməmişdi. Sadəcə olaraq, qaçışlarını azaltmaq artıq yaşlanmağa başlayan qıçlarına heç də yaxşı təsir eləməmişdi. Səhərlər daxili səsiylə mübahisəli keçən gəzintiləri sırasında qarşılaşdığı insanlarda bir müddət sonra bunu sezdi: artıq hər kəs onun kimiydi. Ürkək, səssiz, sevgisiz…

Bir səhər yenə çörəkçi yolunda başındakı səslərlə mübahisə edərək gedərkən qonşuların maskaların altından danışdıqları qulağına çatdı. "Balaca, necəsən?" deyə, soruşan xalaya cavab verməyən kiçik qızının qolunu sıxışdıraraq yerimə-yə məcbur eləyən anası bir yandan da eynən bu cümlə ilə qızını danlayırdı: "Söz soruşulanda cavab versənə, qızım, yad Özüm qarısı kimimi olacaqsan?!" Üzünə güclü bir şillə vurulmuş kimi oldu. "Yad Özüm qarısı", demək, arxasınca belə deyirdilər. Özüm o axşamdan başlayaraq səkkiz gün günəşi qarşıladı kompüterin başında. Qələmi bir konki kimi buz tutmuş qəlbinin üzərində izlər buraxaraq sürüşdü, durdu.

Günəş bir başqa günü isitməyə başlarkən qəlbinin soyuqluğu da çəkilmişdi sanki. Dodağının kənarında ona heç tanış olmayan bir qıvrılma oldu. Gülümsəyirdi, deyəsən. Altmış illik irin barmaqlarının uclarından kompüterinin ekranına axıb onu tərk eləmişdi. Yazının son səhifəsini də çap eləyəndə Özüm özünü əlində həyatının giriş qapısının açarını tutmuş kimi hiss etmişdi. Yaşadığı bütün sevgisiz günlər, gecələr, birinin övladı ola bilməməsi, ümidin, həyəcanın, yoldaşlığın olmadığı illəri, heç bilmədiyi, görmədiyi dəyər, heç qurmadığı xəyallar bütün təfərrüatıyla əlindəki kağızlardaydı indi.

Nəşriyyata romanının bir surətini göndərərkən üzərinə bir qeyd yazmışdı: "Siz bunları oxuyanda mən yenidən doğulmuş olacağam".

Türkcədən
tərcümə edən:
Aslan Quliyev

ESSE

Mətanət VAHİD

BƏDİİ ƏDƏBİYYATDA YALAN MOTİVİ: "QOYMA BİLİM"

Yalan həyatımızda hər yerdədir, üstəlik, sözün geniş mənasında ədəbiyyat və bütövlükdə sənət də yalandır. Lakin burada yalan yalnız vasitədir, məqsəd deyil – həqiqəti təhrif edən yox, həqiqətüstü yalandır. Oxucu "yalan söz"ə aldandığı müddətcə bu, sənətdir, ədəbiyyatdır. Onun gerçəkliyini (bədii gerçək) inkar etdiyi zaman artıq söz sehrini itirir və yerini çılpaq reallıq alır. Başqa sözlə, oxuyan yalnız oxucu məntiqi ilə mətnə yanaşdığı zaman həmin sözlər bədii mətn olur, real məntiq oxucu məntiqini üstələdikdə isə o, bədiilikdən çıxır. Oxucu aldadılmağı könüllü şəkildə qəbul etməlidir ki, mətnin gerçəyi ilə üz-üzə qalıb alternativ dünyanın zövqlərini duya bilsin. Bir oxucu mətn gerçəklərinin içində yalanlar axtarışına çıxan "həqiqətpərəst"dirsə, demək, əslində, oxucu deyil. Sənətin gerçəkliyinə inanmaq Tanrıya inanmaq kimidir. Şübhələr ürəyini didsə də, suallar beynində dolu kimi yağsa da, inanırsan...

Yalan müxtəlif çalarları ilə – riya, təhrif, manipulyasiya, simulyasiya, özünüaldatma və digər formalarda bədii mətnlərdə mütləq iştirak edir. Məsələn, bədii ədəbiyyatda yalançılıq simvoluna çevrilmiş Baron Münhauzen (R.E.Raspe "Baron Münhauzenin sərgüzəştləri") başqalarının gözündə öz dəyərini artırmaq üçün yalan danışır. Lakin onun yalanlarının kimsəyə zərəri yoxdur, sadəcə, danışdığı əhvalatlar məzəlidir, aşırı dərəcədə yalan olması ilə ətrafdakıları əyləndirir. 39 yaşlı Uinston Smit isə (C.Oruel "1984") gənc yaşlarından "həqiqət nazirliyi"ndə çalışır və davamlı olaraq statistik məlumatların saxtalaşdırılması, tarixi faktların təhrifi, əhalinin bütün səviyyələrdə yanlış məlumatlandırılması ilə məşğul olur. Burada yalan artıq geniş miqyasda sosial şər daşıyıcısına çevrilir. "Aldanmış kəvakib" əsərində (M.F.Axundzadə) isə ən böyük "yalana uğrayan", "aldadılan" ulduzlar olur: "Kəvakibin hərgiz xəyalından xütur etməzdi ki, iranilər oları aldadacaqlar, padşahi-həqiqinin əvəzinə padşahi-məsnuu oların sədəməsinin altına salacaqlar..." Hər dəfə yalan danışanda burnu uzanan Pinokkio (Karlo Kollodi "Pinokkionun macəraları. Taxta kuklanın hekayəsi") da məşhur yalançılardandır. Pəri ona deyir ki, yalan dərhal tanınır. Çünki o, mahiyyətcə 2 cür olur: birinin ayaqları qısadır, digərinin burnu uzundur – sənin yalanın burnu uzun olandandır...

Reallıqdakı insanlar kimi, əsərlərdəki obrazlar da böyük yalanlar danışanda Allahı, peyğəmbəri, imamı, lap belə ay işığını da şahid gətirərlər – yetər ki, məqsədlərinə nail olsunlar, yalanlarına inandıra bilsinlər. Bədii əsərlərdə ən geniş yayılanı yalanın xəyanət çalarıdır. Bir də var, könüllü aldanış, aldadılmağa göz yummaq.

Erix Mariya Remarkın "Lissabonda bir gecə" romanının qəhrəmanı emiqrant İosif Şvarts (əslində, bu adı da yalan idi) arvadını həmişəlik itirməmək üçün onun yalanlarına göz yumur. İkisi də arada böyük bir yalan olduğunu bilirlər, lakin sözsüz razılaşmaya əsasən, nə arvadı Yelenanın ümidsiz xəstəliyi barədə danışırlar, nə də onun "özxoşuna yaşayan pişik" kimi gecə

gəzintilərindən söz açırlar. 5 il ölkəsindən, ailəsindən uzaq düşmüş kişi bir gün sevdiyi qadınını görmək, özü ilə aparmaq ümidi ilə böyük əzablar hesabına geri qayıdarkən ona bir çox xüsusiyyətləri ilə tanış olmayan qadınla qarşılaşır: həm doğma, həm yad. Öz evində yad kişinin fotosunu görür, hətta arvadı ondan heç nəyi gizlətmədən bu illər ərzində ona sadiq qalmadığını da dilə gətirir. İosif bunları özünə dərd etmir, haqqında düşünməməyə çalışır. Çünki düşünsə, qısqanclıq qığılcımı ürəyinə düşsə, alova dönüb varlığını saracağını bilir. Buna görə "carpe diem" yaşayır, indi və burada sevdiyi qadınla birgə ola bilməkdən zövq almağa çalışır. 5 il ərzində hər ikisi yalnızlığını unutmaq üçün kimlərləsə ünsiyyətdə olublar, lakin bunun sevgi deyil, ötəri hisslər olması təsəllisi ilə buna fikir vermirlər. İosif arvadı ilə birlikdə yaşadığı aylarda belə ona məktublar gəldiyini görür, komodun siyirməsində qalaqlanmış məktubların bircəsini də açıb oxumur. Həqiqəti bilmək istəmir. Onu ovudan yalanla xoşbəxtdir. İosif təsadüfi adama başına gələnləri danışanda həyat yoldaşı ilə birgə xoşbəxt günlər yaşadığını deyir. Bəlkə də, bu xoşbəxtlik illüziyadır, bəlkə də, özünün uydurmasıdır, amma yaşadığı anlar üçün ona sevinc, hüzur bəxş edir. Bu hissləri qorumaq naminə yalana tutunmaq, həqiqətə arxa çevirmək lazımsa, onu da edir.

Arvadı öləndən sonra ona ünvanlanmış məktub qalağını hər şeyi danışdığı yad adama verir. Çünki arvadı bu həyatda olmasa belə, gerçəyi bilmək, onlu xatirələrini kirlətmək istəmir, səadət dolu günlər yaşamış olmasının sevincini hər hansı şəkildə kölgələməkdən qaçınır. Yelena ərinə xüsusən son zamanlar tez-tez və şövqlə "səni sevirəm" deyir, – "nə olursa-olsun, bil ki, mən məhz səni sevirəm". Şvarts bu haqda danışanda belə bu sevgi etiraflarının yalanmı, doğrumu olduğunu bilmədiyini deyir, lakin heç vaxt araşdırmaq da istəmir. Bu, eynən İlqar Kamilin "Qoyma bilim" şeirindəki kimi könüllü aldanışdır.

Gözümün yaşını silirəm
məğlubam,
dərdimdən gülürəm.
Sən məni sevmirsən, bilirəm,
bilirəm,
qoyma bilim!

Burada artıq yalan yoxdur, gerçəkdən qaçış, könüllü aldanış var. "Acı həqiqət dadlı yalandan şirindir" deyirlər – bu fikirlə əksərən razılaşa bilmirəm. Bəzən həqiqət acıdacaq, yaralayacaq qədər amansız və eyni zamanda buna dəyməyəcək qədər əhəmiyyətsiz olur. İkisini tərəzinin gözünə qoyub çəkəndə yalanla da olsa, qorumaq gərəkən münasibətlərin olduğunu görürsən. Gerçəklərin məhv etdiyi münasibətlər var ki, onları yalnız dilinə qıfıl vuraraq qoruya bilərsən. Nə qədər qəribə olsa da, bəzən yalan danışmaq ən böyük alicənablığa, hətta xeyirxahlığa çevrilir. Ümumiyyətlə, İlqar Kamilin şeirlərində aldanış, yalan motivi nəzərəçarpacaq dərəcədə qabarıqdır. "Bəyaz yalan" şeirinə baxaq:

...Sənə gözəlsən deyəndə
kor idim mən –
gözüm görmürdü ki mənim.
Sənə ürəyim deyəndə
qəlbim vurmurdu ki mənim.

...Hər şey adi yalan idi,
su kimi təmiz bir yalan.
Acı həqiqətdən şirin,
doğma
və əziz bir yalan...

Şeirin adındakı "bəyaz" sözü dilimizdə oturuşmuş "ağ" əvəzinə işlənməklə sanki yalanlara dəyər biçir, hörmətə mindirir. Şeirdə sevdiyi üçün dağları "dəldiyini", dəryaları "ram" etdiyini dilə gətirən lirik qəhrəman nədən bu yalanlarını etiraf edir ki?! Bəlkə, əslində, bu izahlarla bu gün hər şeyin fərqli olduğunu etiraf edir. Məsələn, "daha səni sevmirəm, çünki gözlərim açılıb" əvəzinə, "sənə gözəlsən deyəndə kor idim mən" – deyir. Onda – nə vaxtsa – qeyri-müəyyən zamanda, yəqin ki, vurğunluq yalanlar dedirdəcək həddə idi. Bu gün bu qədər ağır etiraflar etmək üçün ya hər şeyin bitməsinə ümid edilir, ya da "bəyaz yalanlar" bu iki sevgilini o qədər birləşdirib ki, aralarına ən acı həqiqət belə girə bilməz.

Həqiqətin təhrifi də heç də həmişə yanlış deyil, bəzən həqiqətin özündən daha üstün olan yalandır (Bəlkə də, bu fikrimdə yalanı ideallaşdırmaq cəhdi sezə bilərsiniz, bu da sizdə sözlərin yaratdığı yalan təəssürat ola bilər). Adını "müqəddəs" qoyub sentimentallaşdırmaq istəmirəm. Həm də yalan özlüyündə mənfi çalar daşıyan sözdür, müqəddəsliklə uyuşmur.

İnsan bir məsələ ilə bağlı yalanı təkrar-təkrar danışarsa, qısa bir müddət sonra inandırdığı

adamlardan biri də özü olar. Belədə yalan obrazların həyatından epizod kimi keçmir, oturuşur və sonra taleyə dönür. İlqar Kamilin yalan motivli şeirlərində yalnız xoşbəxtliyin deyil, bütövlükdə həyatın qocaman bir yalan üzərində qurulduğunu görürük.

İnanmaq istəyir insan, inanmaq:
Nə olar,
yalan olmasın zülmət gecələrin
işıqlı səhər vədləri.
İndi işıqlanmasa da, eybi yox, eybi yox,
əsas, işıqlanacaq olsun haçansa,
şirin vədlər verilsin yenə
dönə-dönə...

İnsan ömrü boyu, içində şübhələr baş qaldırsa da, inandığı gerçəklərin yalan ola biləcəyi qorxusu qarşısında acizdir. Bu gerçəklər yalan olsa, ümidlərin sonu deməkdir. Kədərlidir: insan inamı, ümidləri ölməsin deyə, yalanı seçməyə hazırdır.

Sənə deməyəcəm ki, məsələn,
niyə ölür insanlar?
Sənə qovuşmaq üçün
niyə illah ki, ayrılmalıdır bədənlərdən canlar?

"Deməyəcəm ki" deyə beynində cığır açmış şübhələrin şübhə olduğu düşüncəsindən yayınmaq, hər kəsdən çox özünü aldatmaq istəyir bununla. 5 yaşlı uşağın da dilinə gələn bu suallar yüz yaşlı qocanı da narahat edirsə, bəndə sual vermək ehtiyacı duyursa, suallar özündə cavabları da saxlayırsa, bütün bunlar şübhə etmək, sual vermək iznini inkar etmir deməkdir.

Niyə var axı hər başlanğıcın bir sonu?!
Şikayət etməyəcəm,
yox!
Deməyəcəm ki, İlahi,
çox çətindi bizim üçün qurduğun
bu həyat oyunu.

Bu gecə sabahacan özünü "səcdədən asacağına" vəd verənin bu sözləri həm sualdır, həm cavab; həm inkardır, həm təsdiq; içində şübhə də var, inam da; həm qorxudur, həm də ümid bəxş edir – bütün hallarda zikrdir, duadır. Bütün bunlarla yanaşı, həm də bir yalandır. Çünki şübhə etdiyini özünə belə etiraf etməyə gücü yetmir. İlqarın şeirində misradan-misraya keçid aldıqca şübhəsi böyüyən və buna görə qorxuları artan bəndənin son arzusu bağışlanma olur: "Bağışla, İlahi, məni özümə bağışla!" misrası dua kimi, üzr, tövbə kimi səslənir. İçindəki şübhənin üsyana çevrilməsindən qorxan bir səsdir bu – təbəddülatlar sualdan başlayıb üzrlə yekunlaşır...

P.S. Bəzi psixoloqlar israr edirlər ki, yalan danışmaq nəinki lazımdır, hətta vacibdir – səbəblər buna haqq verir. Cem Yılmaz isə deyir: "Yalancı – yalanı söyleyemeyen adama deyilir. Yalanı söyleye bilen adama yalancı deyemezsin, çünkü söyleye bilmiştir..."

Rəşid BƏRGÜŞADLI

TANRININ GÖZÜ

Ağlı kəsənəcən elə bilirdi Səlimə onun doğmaca anasıdır. Amma qulağı çalanda ki ata-anası avtomobil qəzasında həlak olub, onunla arasında sirli pərdə asıldı və ildırım sürətilə soyudu qızdan. Sanki yetim qalmağında o idi günahkar. "Ömrü boyu ərə getməmiş, bakirə və yaşlanmış qızı indiyədək necə doğma anam bilmişəm..." – içində qövr edən suallara cavab almaq üçün Səlimə ilə qabaq-qənşər oturmağa üzü gəlmirdi. Bilirdi ki, qızın bir sirri var və bunu indiyədək ondan gizlətdiyi üçün gözündə bağışlanmaz günah işlədir. Turqayda azca kəköylük vardı deyə, qız ancaq o, sözü qırıq-qırıq kəkələyəndə gülümsünürdü. Özü də bilirdi ki, kəkələyəndə gülməli olur. Dostlarına zarafatla deyirdi ki, süddən tez kəsildiyim üçün kəköy olmuşam.

Yaşa dolduqca yuxularında doğma ata-anasını görürdü, qeyri-ixtiyari xəyallar onu ağuşuna alıb ruhqonmaz budaqlarda gəzdirirdi, – "Görəsən, anam məni sevibmi?", "Atasızlığın əzabını irəlidə hələ çoxmu çəkəcəyəm?", "Səlimə məni niyə öz doğma balası kimi böyütməkdən yorulub bezmir?.. " Hərdən düşünürdü ki, onsuz da Afrikada doğulan uşağın qismətinə aclıq, Əfqanıstandakı uşağın qismətinə müharibə yazıldığı kimi, onun da qismətinə yetimlik hələ o, dünyaya gəlməmişdən qabaq yazılıbmış. Onda qədəriylə barışmaq istəyirdi, amma böyüdükcə yetim halına acıyırdı, bəxtindən küsürdü. Bircə Fərəclə hər söhbəti edirdilər. Bir dəfə Fərəc ondan soruşmuşdu: "Yetimlik ağırdırmı?" O isə demişdi ki, yetimlik xoşbəxtlikdir. İstəmirdi ona kiminsə yazığı gəlsin. Buna qüruru yol vermirdi: – "Çox qəribədir, biri yetim ömrü yaşayır, o biriləri də onun həyatını yozur. Mən halımdan məmnunam, qardaş. Heç fikrimi-dərdimi çəkməyin. Sizlərdən fərqliyəmmi, yetim olmaq fərqli bir hissdirmi? Bunu bilmirəm. Çünki valideynlərim sağ olsaydı, onda birinci sualın cavabını da bilərdim. Səlimə var deyə, yetimliyi tam hiss edə bilmirəm..." Düşünürdü ki, Allah necə bir obrazdırsa, yetim üçün ata da o qədər mücərrəddir. Uşaq güllərin adını bilməsə də, qoxusuna görə pisini yaxşıdan ayırd edə bilir. Ən azından adını bilmədiyi qızılgülü tikanlarına görə xatırlayır. O da "ata" nəyə deyilir, bilirdi, ancaq bilmirdi tikanlıdırmı, qoxusu necə olur... Kimsə öz ata-anasından danışanda o susurdu. Hər kəs "ata gözəl şeydir" deyəndə o, sadəcə, çiyinlərini çəkirdi. Amma ilk dəfə "yetim" kəlməsi boğazında qalanda kəsdirdi Sona arvadın dizinin yanını. Ondan lazım olan qədər məlumat toplamışdı. Fərəcin nənəsi idi Sona. Məhəllənin xeyir-şər mərasimlərinin yeməyini bişirən idi və bozbaşına, aşına-aşqarasına söz ola bilməzdi. Həmişə onu və

nəvəsini xəlvəti yanına çağırar, xörək bişirilən talvarın arxasında oturdub hərəsinin qabağına silələmə bir qab aş, kasada bozbaş qoyardı. Uşaqlıq yaddaşında qalan ən mərhəmətli insan elə Sona arvad idi. Onun isti, simsar nəvazişini həmişə duymuşdu, toxtaqlığı ondan alırdı...

Turqayın öyrənmək istədiyi vacib məsələ o idi ki, niyə maşın yarğana yuvarlanmamışdan qabaq anası arxa oturacaqdan əl çantasını dayanmadan atasının başına çırpırmış. Yayılan söz-söhbət doğruydusa, onun valideynləri bir-biriylə yola getmirmişlər. "Bəlkə, anam ayrılmaq istəyirmiş, atam ona başqasıyla xəyanət edirmiş?" Sona arvad bu barədə heç nə demək istəmirdi, o da çox üstünə getməmişdi, – "Səbəb nəyi dəyişəcək, olan olub, keçən keçib".

Turqayın iynəli baxışlarından Səlimə də birtəhər olmuşdu. Bilirdi ki, Turqayın susmağı veriləsi sualların çoxluğundandır. "Nə vaxtsa bilməlidir..." – amma qız bu barədə ayrıca söhbətə ya lüzum görmürdü, ya da bundan çəkinirdi. Olmuşdular eyni dam altında yaşayıb bir-birini könüldən dindirməyən küsülülər. Son vaxtlar Turqayın ailəvi şəkillərə tez-tez baxdığını görəndən sonra öz yataq otağından asdığı iri rəsmi də gətirib ona vermişdi. Bu rəsm çərçivəyə salınmış möhtəşəm tablo idi. Yağlı boya ilə işlənmişdi. Turqayın bu şəkildə iki-üç yaşı ancaq olardı. Yaraşıqlı bir qadın onu taxta vannada çimizdirirdi. Ən təəccüblüsü də o idi ki, bu qadın onun anası deyildi, ənənəvi üslubda işlənmiş qulluqçu idi. Qızın açıq yaxası, çırmanmış biləyi onun bədəninin gizli gözəlliyini qabardırdı. Atası isə nimdaş stulda yayxanıb əlində şərab şüşəsi tutmuşdu. Sərxoş, ya da yorğuna oxşayırdı və şəhvətlə qulluqçunu izləyirdi. Şəkildəki xalı, taxta vanna, çömçə-ləyən, pəncərə, personajların paltarları, saç dəbləri, qadının çalması – hər şey cansız və solğun idi. Diri olan Turqayın uşaqlığı və atasının canlı üzüydü. Bu şəkli çəkən rəssamın çoxdan öldüyünü Səlimədən eşitmişdi. Tez-tez atasının canlı gözlərinin içinə baxıb onun ruhuyla qovuşmaq istəyirdi, amma bəbəklərindən o yana adlaya bilmirdi. Onlardan nə bir qoxu, nə bir səs, nə də vəsiyyət qalmışdı. Qalan quruca şəkillər, bir də atasının canlı baxışları olan bu tablo idi. Bu baxışlar onun ürəyini riqqətə gətirirdi. "Sən vaxtilə mənu qucagında gəzdirib bəhərini yedirdiyin torpağın altında, mən isə hələ də üstündəyəm. Sən torpağın altından mənə baxırsan, mənsə yaşayıram – budur mənim üstünlüyüm" – elə bil atasına yandıq verirdi. – "Yaxşı ki, məndən qabaq ölmüsən. Ölümündə günahkar olmadığıma sevinirəm. Mənə elə baxma, əziyyət çəkib tez ölməyəydin! Atalıqdan bezib o dünyaya qaçan qorxaqsan sən! Kiminləsə haqq-hesabın olubsa, mənə dəxli yoxdur! Əmi-dayımın olmaması daha gözəl. Bu, əsl azadlıqdır! Hesabat verəcəyim bir Allah qalır, kim bilir, bəlkə, gələcəkdə onun da başını yedim. İkinizsiniz müqavilə bağlayıb məni bu dünyaya yetim gətirən. İndi yetimliyimlə kef çəkirəm. Bəlkə də, xeyirxahlıq edib məni yetim buraxmısan. Bəlkə də, sağ olsaydın, məni köləyə çevirərdin, yük olardın mənə. Axı mən sənin mülkiyyətin sayılardım. Amma yoxsan və sənin qarşında borcum qalmayıb. Torpağa dönmüş ata artıq mənim üçün heç bir toxumu cücərdəcək gücdə deyil. Səndən və anamdan çox Səliməyə məxsusam mən. Onun daha çox haqqı var mənə "övladım" deməyə..." – hərdən təntiyəndə əlini atasının üzünə sürtürdü. – "Amma qaraqabaqlığımı da yetimliyimin ayağına yazın..," – ağız-burnunun mütüyünü siləndə kövrəldiyinə dərhal peşiman olurdu, – "Yetimlər ağlamaz!.." Əlini əmgəyimə qoyub üzümü yuyan o mələksima qulluqçu isə hər kimdirsə, ona vurulmuşam. Kaş Səlimənin yerinə o olaydı, məmnuniyyətlə onunla evlənərdim!.." – beləcə içi qan ağlayırdı Turqayın.

***

Günlərin birində kəşf elədi ki, atasının sol bəbəyində güclə seziləcək "T" hərfi var. Eşitmişdi ki, hələ indiyədək heç bir rəssam əsərində gizli imzasını atmaqdan özünü saxlaya bilməyib. Bu "T" da gizli imza, işarə idi. Böyüdücü lupa tapdı, tablonun hər millimetrini günlərlə ələk-vələk elədi. Başqa şifrə tapammadı. Səlimə ondan nə axtardığını soruşanda fərəhlə kəkələmişdi:

– Atamın bəbəyindəki "T" işarəsindən xəbərin varmı?

– Yox...

– Gəl bax... – Səlimə əyilib gözlərini şəkilə zilləyəndə nəfəsini yanağında duymuşdu. – Görəsən, bu nəyin işarəsi ola bilər, rəssamın adımı?

– Sənin adın olmasın? Bəlkə də, atanın adı – "Tahir". Ya da sən demiş, rəssamın imzası..." – çox ləngimədən mətbəxə keçmişdi. Turqay, adətən belə vaxtlarda cəhd edirdi ki, Səliməylə söhbətləri bir az da uzansın. Ancaq qız açıq-aşkar onunla

söhbətdən qaçırdı. Bir dəfə qızdan soruşmuşdu, – "Atam şəkildəki kimi yaraşıqlıydı?" O, qısaca, – "Çox yaraşıqlıydı..." – deyib söhbətin davamı olmasın deyə, mətbəxdən iki-üç saat çıxmamışdı. Turqay hiss edirdi ki, qız onun ailəsi ilə bağlı suallardan çəkinir və həmin vaxtlarda ondan kənar qaçır. "Səlimənin timsalında ana gözəl və qorxulu bir şey olmalıdır" – düşünürdü Turqay. Doğrudan da, bir-birini qarşılıqlı olaraq xəlvətcə həm sevir, həm də qorxub çəkinirdilər. Allah göydən baxır, Səlimə ona yetimliyin, anasızlığın nə olduğunu daddırmamışıdı. Günaha meyilli olan vaxtlarında Səlimənin məhrəm sirlərini bilməyə çalışırdı. Amma indiyədək nə alt paltarını görmüşdü, nə də onun hamamda yuyunduğunu. Qız otağına hər girəndə qapını arxadan kilidləyərdi. Turqay elə bilirdi ki, qız da onun kimi qəmlənəndə tənhalığa çəkilir. Turqayın gözündə Səlimə günah götürməyən saf bəndə idi. İstəyirdi, belə vaxtlarda ona təsəlli versin, – "Öz yetimliyini dərk edənlər niyə qəm çəkməlidir ki?". Amma Turqay onun heç vaxt görmədiyi tənəsindən çəkinirdi. "Axı qız onu öz peyğəmbəri bilir...".

Səlimə barəsində bildikləri ancaq bunlar idi: atasının uzaq qohumudur; ailəsi zəlzələ zamanı uçqun altında qaldığından təhsilini yarımçıq qoyub; valideynlərinin tənha qıza rəhmi gəlib və evlərinə qulluqçu götürüblər. Vəssalam... Birbirlərinə yük deyildilər və bir-birinin qarşısında öhdəlikləri yox idi, əksinə, tam azad idilər. Dostuna beləcə də deyirdi: "O, mənim evimdə qalır, mən isə əlim bir işə çatanacan müvəqqəti onun hesabına dolanıram. Nə olsun ki, onu doğma anam bildiyim vaxtlar olub. Amma indi ona qarşı tüküm də tərpənmir. Heç vaxt onunla yanaşı da getmirəm ki, birdən deyərlər, bu qız analığımdır. Amma insafla götürəndə, ondan asılıyam. Onun çörəyini yeyirəm, aldığı paltarları geyirəm...

– Bəs niyə gen qaçırsan ondan, axı o sənin çox əziyyətini çəkib?..

– Gülməşəkər olmaq məni tam qane edir, qardaş. Səliməylə pərdəni aralamasaq, yaxşıdır. Amma hərdən yuxulayanda xəlvətcə yorğanı üstümə çəkib dilinin altında nəsə pıçıldayır. Onda elə istəyirəm ki, kaş Səliməni heyrətə salacaq bir fərasətim olaydı və acza onu sevindirəydim...

– Danabaşlıq edirsən ona qarşı. İt bəsləyən qonşum Hacıyla səni saxlayan Səlimənin arasında heç bir fərq yoxdur. İtlər heç olmazsa xeyirxah və sədaqətli olurlar, sən isə əsl qudurğansan. Onun minnətini qəbrə aparsan, gorun çatlayacaq...

– Bəlkə, ona təklif edim, kiməsə ərə getsin?.. Axı o da qadındır, niyə mənə görə həyatını puç etsin. Arada mən minnətli qalıram. Kişi olsaydı, yenə ondan kişiliyi öyrənərdim, amma mən ona baxanda nisbətən kişiyə oxşayıram. Kim bilir, mənim kimi fərsizdən bu qıza yaxşı həyan olacaqmı?

– Atan öldüyü üçün, demək, bu evin kişisisən və ailənin tək üzvü olan bu qıza qayğı göstərməlisən. Yoxsa öz soyuq davranışınla onu itirə bilərsən...

– İş də elə orasındadır ki, Səlimənin yanında özünü atamın ölümündən doğulmuş günahkar sayıram. Nə o məndən əl çəkə bilir, nə də mən ondan... Son vaxtlar onu xoşbəxt etmək barədə çox düşünürəm. Öz-özümə deyirəm ki, o da məni atsa, əsl yetim bax onda qalardım. Bəlkə də, anamın ölümünə tab gətirməzdim. Yaxşı ki, tez ölüb, məni bu əzabdan xilas edib. Amma o ölüb və mən onu yada da salmıram...

– Mən də onu deyirəm ki, əlindəkini qorumaq daha ağıllı addımdır. Nə yolla olursa-olsun, vaxtı ötmüş bu qızla aranızdakı soyuq pərdəni götürməlisən...

***

Səlimə on ilə yaxın idi ki, 3 saylı Uşaq İncəsənət Məktəbinin xadiməsi idi. İş yeri elə üzbəüz binanın altında yerləşirdi. Qonşular Allah şahidi idilər ki, süpürgəçi maaşı ilə öhdəsində qalmış Turqayı heç nədən korluq çəkməyə qoymamış, təkbaşına od ayaqlamışdı. Taleyin onu sapand daşı kimi bu ailəyə necə atdığını yaxşı xatırlayırdı. Səlimə ömrünü hədərə getmiş saymazdı. Sadəcə, bəxti Turqayınkı kimi qara gəlmişdi və iki qarabəxtli insan eyni dam altında yaşamağa məhkum idilər. Turqayı körpəliyindən öz balası kimi sevəsevə böyütmüşü. İstəyənləri olmuşdu, amma gözükönlü tox idi. Qəbul etmişdi ki, tək qadın dul qadından yaxşıdır. Ömrünü, çörəyini yediyi ailənin əmanətinə xərcləməyi qərara almışdı. "Onu kimsə mənim əlimdən ala bilməz. Elə məni də onun əlindən alacaq adam qalmayıb. Mənə acıqlanacaq bir günah da işlətməmişəm ki, yanında üzüqara olam", – işçi arı kimi Turqaya qulluq etməkdən bezmirdi.

İki gün öncə pəncərədən eşiyə baxanda təsadüfən gördü ki, Turqay torbaları zibil qabına

yox, elə zibilliyə qolazladı. Axşam yeməyini Turqayın qabağına qoyanda dilucu mızıldandı ki, Allah insaf vermişlər zibili qabdan kənara tullayıblar, milçək dolacaq camaatın ev-eşiyinə. Zibilyığanlar yeşikdən kənara zibil atanların nəsil-kökünü hər gün kalan yağlayırlar. Yeməyi bitirən kimi Turqayın eşiyə tələsdiyini sezmişdi. Pəncərədən boylanmışdı ki, zibil torbalarını qablara yığır. Ürəyi atlanmışdı sevincdən. Hələ Turqay otağına keçəndə divardakı şəklə "Necəsən, ata? Mən səndən yaxşıyam, yaşayıram!" – deməsi ürəyini dağa döndərmişdi. Çünki xeyirxah iş görməyə sevinirdi Turqay.

***

Bir gün Turqay yuxudan qalxanda gördü ki, səhər yeməyi stolun üstünə düzülüb, amma qız ortalıqda görünmür. Qapını döyüb ehmalca onun yataq otağına boylandı. Səlimə xəstələnmişdi, boyun-boğazı tərin içində idi. Yataqdan duracaq halda deyildi. Çalmasını düzəldib dikəlməyə çalışsa da, Turqay qoymadı:

– Narahat olma, uzan... – qıza yaxınlaşdı, əlini ovcuna aldı. Qız od tutub yanırdı.

– Soyuq suyla döşəmə yumuşdum dünən. Hiss elədim ki, soyuqladım... – xəstələndiyi üçün üzrxahlıq edirdi o.

Turqay heç nə deyib-danışmadan ona dərman içirtdi, zoğal mürəbbəli çayı verib otaqdan çıxanda qızın dilinin altında dediyini aydınca eşitdi:

– Boyuna qurban olum sənin... "Səlimənin alqışı xoşuna gəlmişdi. Aradan üç dəqiqə keçməmiş ikinci çayı gətirib yatağın yanındakı stulun üstünə qoydu. Ona ilk dəfə idi ki, belə qulluq edirdi. Amma otaqda onunla tək qalmaqdan sanki sıxıldı, öz yatağına çəkilib üzüqoylu yatağına sərildi. "O xəstələnib, bu, ölüm xəbərdarlığıdı. O da məni atıb getsə, mən yaşamaram..." – içindəki kədər burulğanı böyüyürdü. "Onu bu evə, mənə və ailəmə bağlayan sevgisinin ucundan tutub onu sevməliyəm. Cılxa yetim qalmaqdan qorx, Turqay!.." Bir qədər sonra həmin alqışı yenə eşitmək istədi. Təzə çay süzüb içinə mürəbbə saldı, Səlimənin otağına keçdi. Amma o hələ bayaqkı çayı içib qurtarmamışdı. Üzünə gülümsündü:

– Yaxşılaşmışam, əziyyət çəkmə... Bircə Mayis müəllimə xəbər ver ki, xəstəyəm, bu gün işə çıxa bilməyəcəyəm. Qoy bu günlük məni yola versin... – Turqay səssiz-səmirsiz otaqdan çıxdı.

Yaxın günlərin söhbətidir, Sona arvad yemək göndərmişdi onlara. Küftə-bozbaş idi və Turqay Sonanın əlinin dadına qəribsəmişdi. Kasaya çörək doğrayanda qulağı çaldı ki, Səlimə öz otağına çəkilib hıçqırır. Qapını dinşədi. Bircə onu eşidə bildi ki, deyir, oğlun da eynən sənin kimidir... Düşündü ki, qız hələ də Sona arvadın payını sədəqə kimi qəbul etməkdə düz eləmir: "Sona xaladan başqa kimsə pay göndərsə, mən də qəbul etmərəm... Etməzdimmi?.. Səlimə olmasaydı, yəqin ki, istəməsəm belə, mən sədəqə götürərdim... – loxma boğazında qaldı. Yediyini yemişdi, qalanını Səliməyə saxladı...

***

Səlimə həmişə hava işıqlanmamışdan qalxıb işə gedirdi. Turqay səhər yeməyini yeyəndə gözü sataşdı ki, qız öz açarını götürməyi unudub, – "Son vaxtlar yaman huşsuz olub..." Uşaqlarla şəhərə çıxmalıydı. Açarı vermək üçün onun iş yerinə getdi. Səlimə döşəməsilən taxtanı çənəsinə dayayıb qapısı açıq otaqda rəssamın öz şagirdinə hikkəylə dediklərinə yazıq-yazıq qulaq asırdı. "Dəli Mayis"in yenə gözləri qızmışdı, şagirdini elə danlayırdı ki, elə bil Pikasso ilə höcətləşirdi:

– Əlin düz işləyir, başın yox! Şəkil qıraqdan gözəl görünür, ancaq yaxından diqqətlə baxanda heç bir məna yoxdur! Sən çayın şəklini yox, suyun səsini çəkməlisən! Bulud, səma, quş şəklini nənəm də çəkər, sən səmada uçan quşların səsini çəkməlisən!

Uşağın üzündəki gülüşü yox, xoşbəxtliyin şəklini çəkməlisən! Allahın şəklini çəkməlisən! Əllərinlə yox, ürəyinlə çəkməlisən! Bunu sənə neçə dəfə izah etməliyəm axı!..

Zavallı qız devikib onu anlamağa çalışırdı.

– Kül olsun uşağını Dəli Mayisin yanına göndərənin lap təpəsinə! Bu adamdır ki, nəsə də öyrədə bilsin? Bunun nəyi, harası "savadlı rəssamdır", "gözəl müəllimdir? Gərək adam adam olsun ki, sonra bir şey öyrədə bilsin" – Turqay ürəyində rəsm müəlliminə acıqlanırdı. Səlimənin də astadan pıçıldadığını eşitdi:

– Ay nainsaf, o, uşaqdı hələ, nə bilir Allahın üzü necədi!? – geri dönəndə Turqayı gördü. Sanki xadiməliyindən utandı – silgi taxtasını kürəyində gizlətmək istədi. Turqay isə salamsız-kalamsız açarı uzadıb:

– Evdə unutmusan... – deyib dəhlizə çıxdı.

***

Səhər oyananda stolun üstünü boş gördü. Səlimənin yataq otağına baxdı. Qız evdə yox idi.

“Axşam evə gəlməyib yoxsa?!” – tələm-tələsik idman şalvarını əyninə geyib Səlimənin iş yerinə götürüldü. Yol boyu dilinin altında yalvarırdı: – “Sənin qurbanın olum, Allah, bircə Səliməni mənim əlimdən alma. Onu sağ-salamat görüm...” Məktəbin qapısı açıq idi. Silgi taxtası içəridən qapıya söykəli qalmışdı. “Dəli Mayis”in iş otağına cumdu. Gördüklərinə inanmadı... Səlimə başını əllərinin üstünə qoyub Mayisin stulunda mışıl-mışıl yatırdı. Arada kəsik-kəsik inildəyirdi. Turqayın ürəyi yerinə gəldi. Onun çalması sürüşüb düşmüşdü, üst-başı, alnı, mavi xalatının biləyi, əlləri boyanın içindəydi. Otağı boya qoxusu bürümüşdü. Turqay pəncələri üstə molbertin qabağına keçdi. Stolüstü lampanın mavi işığı molbertin üzərindəki rəsmi işıqlandırırdı. Bu rəsm bir möcüzəydi! Mavi işığın altında dil açıb danışan canlı rəsm idi. Burda hər şey vardı: – səsli-küylü qıjnov çaylar, hüzur qoxuyan mavi səma, qayğısız uçuşan şən quşlar, möcüzəli xoşbəxtlik dumanına bürünmüş al-əlvan gül-çiçəklər, kəpənəklə oynayan qayğısız uşaqlar, Allah bilir, daha nələr, nələr... Çox maraqlı idi ki, bütün bunlar hamısı bir Gözün içinə yerləşirdi. Gözün bəbəyi Yer kürəsi idi, kənarında işıq saçan Günəş də vardı, qaranlığı işıqlandıran Ay da, gözdən axan yaş damlalarında sayrışan Ulduzlar da. Bu tabloda qaranlıqla gündüz birlikdəydi. Bütün rənglər Qaranın işığında alışıb-yanırdı. Səhər şehinin ətri duyulurdu rəsmdən. Yağışdan sonra ciyərlərə çəkilən ozon qoxulu təmiz nəfəs vardı bu şəkildə. Bu rəsm yuxu rahatlığı idi. Bu tablo Allahın gözüydü – Yeri, Göyü birlikdə görən mərhəmətli Allahın gözü...

Turqay barmağının ucuyla ehmalca şəklə toxundu. Rəng qurumamışdı hələ. “Rəsmin qurumağını gözləyib, yuxuya dalıb...” – fərəhlə gülümsündü. Səlimənin pırtlaşıq hörüklərini, saçına düşən dəni ilk dəfə yaxından görürdü. İçindən qızın telini sığallamaq keçdi, amma yenə əli havada qaldı. Ürəyində qururunu lənətlədi.

Mayisin “şap-şup” topal addımları dəhlizdə eşidiləndə Səlimə yerindən dik atıldı. Turqayı qarşısında mil görəndə quruyub qaldı, heç yaylığını da başına çəkmədi. Artıq hər şeyin üstü açılmışdı, Turqay onun saçlarını görmüşdü. Hər şey Turqayın bu saat verəcəyi qərardan asılı idi. Rəngə boyanmış xalatını tələsik çıxarıb şkafın gözünə dürtdü, yaylığını qaydaya saldı, üzgözünün rəngini sildi. Molbertə doğru cumanda Turqay şəkli qapdı və arxasında gizlədi. Nəzərləri toqquşdu. Turqay gülümsəyirdi. Səlimə isə suçluydu və gözlərini gizlətməyə çalışırdı. Bircə bunu dedi:

– Mayis bilməsin... Turqayın əynindəki buz qılaf bircə anda əridi. Səlimə ondan ilk dəfəydi ki, imdad diləyirdi. İçini vulkan istisi bürüdü və Səlimənin boynunu bir əliylə öz sinəsinə sıxıb saçını qoxladı və sonra öpdü:

– Düzünü de, sən mənim anamsan, elədir?..

“Dəli Mayis” artıq otağındaydı və Turqayı görcək:

– O-o-o, bradyaqa, üzünü görək! Sən bu vaxtlar duran deyildin, nə yaxşı gəlmisən? – deyib əlini ona uzatdı. Ancaq yarı yolda əli Turqaydakı tabloya çöndü. Rəsmi alıb molbertin üzərinə qoydu.

Şəkildən gözü qamaşdı. Üç dəfə dala-qabağa ləngər verdi, sonra rəsmə əyildi. Baxdıqca bu möhtəşəmlikdən vahimələnir, fərəhlə:

– Bomba!.. Kayf!.. Super!.. Əla!.. Cənnət!.. – deyib az qalırdı ki, rəsmin içinə girsin. Həqiqətən də, adamın şəkildəki ağacın kölgəsində oynayan uşaqlara qoşulub şənlənməyi gəlirdi. Mayis şəkli götürüb pəncərənin işığına tutdu. – Kim çəkib!? Turqay yenidən Səliməni bağrına basdı:

– Anam, mənim mələk anam çəkib! – qızın boyalı yanağından öpdü.

Və birdən nəyəsə gözü sataşdı, nəsə xatırlayıb tablonu Mayisin əlindən aldı və tələsik molbertin üzərinə qoydu. Rəfdən iri lupanı götürüb Yer kürəsinin ortasında Qara Dəliyi əks etdirən balaca bəbəyi incələdi. Axtardığını orda görmədi. Səliməni gülmək tutdu:

– Nə axtarırsan?

– “T”-nı...

– Tapa bilməzsən. Bu dəfə elə yerdə gizləmişəm ki, nə qədər çalışsan da, tapa bilməyəcəksən, – arxadan Turqayın boynunu qucaqladı.

– “T”-nı tapmasam, bağrım çatlar. Yerini de, harda gizləmisən? – lap uşaq vaxtı elədiyi kimi şitəndi.

– Şəklin ən dərin yerindədir, ürəyin içində.

– Bəs ürək hardadı, nə deməkdir bu “T”?

– Həyatımın mənası, gözümün nuru Turqay deməkdir... – əlindəki rəngli əski ilə gözünün yaşını sildi. Bir-birinə sarılmışdılar. Mayis isə key kimi gah onlara, gah da tabloya baxır:

– Mavi lampa işığı... Mən niyə indiyədək bunu bilməmişəm?.. – boğulan adam kimi dayanmadan boğazını övkələyirdi...

Nicat MƏMMƏDOV

"ARAMSIZLIQ"
kitabından

***

Özünü mənim
baxış bucağımda tapdın.
Ayaqların eynən Qautamanınkı,
dodaqlarım onların ətrafında dövrə vurdu.
Sənə iki dəfə dalmaq mümkünsüz:
mümkünsüzdür eyni çaya iki kərə girmək,
"Əlif-lam-mim"i dərk etmək.
Öpüşün şəfa, bütövlük gətirəcək,
biliklə dolu qəlbimi boşaldacaq.
Naxış getdikcə mürəkkəbləşir, incələşir, lakin onu
əlin bircə həmləsi ilə silmək kifayətdir.
An(lam)ların axını...
Yaddaş daşının şırımlarını danışdırır şüur iynəsi,
təsadüfün oyunu.
Bu şırımların dərinliyi sənin tərli bətnin qədər.
Budur, eşidilir bitişmiş səslərimiz:
Sən Təksənsə, nəyə lazım rəqəmlər?
İsmin dilə gəlməz – nəyə lazım hərflər?

Babamın əziz xatirəsinə

Qapayırsan gözlərini və dünyanı
nəzər adlı zəhərdən azad edirsən,
əbədi yuxunun yozumuna çevrilərək.
11:30-da itiririk səni və səmada quş süzür – lələkli
xaç;
tuta bilməzsən nə qədər qaçırsan-qaç.
Başının üstündə oxunur aramla Yasin,
ruhun cismi tərk edir sanki alov kibriti.
İtib hər tərəfdən baxırsan,
çıxışlıq halına keçərək.
Ölüm – əqrəbsiz, rəqəmsiz saat,
zəngi çalınır həmişə qəfil,
ölüm – açarsız qıfıl.
Ölüm – tozu göyə sovuran küləkdir,
bilmədiyini bilməkdir.
Bağdakı ağaclar hələ də şaxələnir hasar boyunca
eynən əvvəlkitək –
sən onları doyunca
suladığın vaxtlardakı kimi.
Yox, demirəm "ölmüsən"...
Saman yoluna dönmüsən.

L.M. üçün

Dəlicəsinə gözəl dəli qızcığaz.
Səni tən ortandan sevdim, nə çox, nə də az.

Bir-birimizi tapdıq asandan asan,
heç soruşmadıq "kimsən?", "nəçisən?",
"haradansan?".

Kainat da var olur holoqram prinsipi ilə,
mənə halaldır səndəki hər bir gilə,

Mənə halaldır döşlərin, ayaqların, dodaqların.
Məndən doğulacaq uşaqların.

Güllələyəcək gəlincikləri dirəyib küncə –
bax bu cürdür yoğurduğumuz kündə.

Biz işardıq, qiyafəni soyunub düz uzandıq.
Səbəb-nəticə qanunlarını yanlış sandıq.

Nə verə bilərəm axı sənə? Utanma, soruş.
Yalnız sevgi, yataq və biş-düş.

Saf qəlbli, məsum itkinim!
Qısılırsan mənə bomja qısılan it kimi.

Uyu, qızım, uyu, düşünmə heç nəyi.
Çıxarıram qarşında gözümdəki eynəyi.

***

Çox şey it-bat olur, çox şeyi tutmaq olmur.
Və bu, gözəldi.
Ümumiyyətlə, yazarkən gərək öz qaydalarına
belə riayət etməyəsən.
Yazı-pozu vaxtı öz şeirinə girib çıxa bilərsən.
Deyirlər, belə şeirin qızılını, adətən, çayxanada
xırdalayırlar –
şəhərdəki üç-dörd xiridar üçün.
Bu mətni oxuyanda nəyi qurban verirsən?
Mən – heç nəyi, uzaqbaşı – oxunu.
Birləşdirəndə xətlərə çevrilən
nöqtələr toplusu sənə verə bilirəm?
İstəyirəm, indi oxumağı saxlayıb gəzintiyə
çıxasan.
"Xətt – gəzintiyə çıxmış nöqtədir" deyərdi Kleye,
xəyalları və gerçəkləri çəkərək.
Forma yox, formanı doğan dumanlıq əsasdır
və poeziya barədə düşünmək poeziya vasitəsilə
düşünmək qədər vacib.
Hamını və həmişə poeziya yaşadır: yuxuya dalıb
Kantın ulduzlu səması altında
kvantlı yuxular görürük, guya oyanırıq, evdən
çıxmadan öncə əksimizə baxırıq,
leysan altında qaçırıq, yaxud kirpiklərimizlə qar
dənəciklərini tuturuq
(qar – tək əlin alqışı, çünki səssiz nazil olur),
günəşsiz axşamlar yumurta bişirib (deməli, günəş
bizimlədi həmişə)
kəkotulu çay dəmləyirik, yaxud süd içirik, sonra
isə yenidən yatırıq,
bəziləri kimləsə qol-boyun, digərləri öz kölgəsinə
qısılaraq.
Lakin özünü tək sayana da çatır ki, bu belə deyil,
çünki onu doğan dumanlıq var,
rəqəmləri doğan batin.
Odur ki, şair də bizim riyazi gözləntilərimizə
sığmayan
əks-səda yaratmağa çalışır;
o, şeiri sanki dərk etməmişdən öncə yazır.
O hər şeyi xırdalıqlara qədər anlayır, lakin bəzən
izah edə bilmir.
Bunu zəifliyin etirafı, məğlubiyyətin nümunəsi
hesab edək?
Hərçənd "məğlubiyyətin nümunəsi olmadan
gerçək heç nə yoxdur", –
Peterburqdan dostum yazır,
srağagün kölgəmə qısılıb yatmazdan qabaq ona
göndərdiyim,
öncə yazdığım mətni oxuyaraq.

***

Heç vaxt ağ vərəq, yaxud Word səhifəsi
qarşısında
qorxu yaşamıram.
Həmişə üzərində işləmək üçün bir şey tapılar.
Həmişə başqasının kitabını aça, oradan bir sətir
oğurlayıb
həmən sətirdən olduğu kimi başlaya, yəni başlaya
yox, davam edə
(buna görə də tez-tez "Aramsızlıq, davamlılıq"
kəlmələrinə əl atıram)
və ya öz seçimlərinin süzgəcindən, şəxsi
travmalarının qapısından keçirə bilərsən.
Beləliklə, bu mətnin ilk üç sətrini
intihar etmiş bir Skandinaviya yazıçısının
müsahibəsindən çırpışdırmışam.
Birə-bir yox, qismən təkrarlamışam.
Deməli, ölüm son deyil? "Ölüm ehtimalı 100%"-

dir deyən bu norveçli
əli ilə dəlib divarı mənə dost oldu.
Burada intihar etmiş başqa bir şairin sözlərini də xatırlamamaq mümkün deyil: "Mənim üçün şeir əl sıxmaqdan fərqlənmir".
Ölülər hələ ki sağ olanlara
son dərəcə əhəmiyyətli nələrsə deyir, məktub göndərir.
Dirilər isə yox olan nəyləsə, kimləsə münasibətdə olmadıqda özlərinə və ətrafa yalan-palan sırıyırlar.
Çaylar axır ümmana, sığmaz gözə bu ənginlik.
Virciniya və Paul çaya atıldılar.
Birincisi Ouse, ikincisi Sena çayına.
Amma şəxsən mən həmişə belə bir fikirlə təsəlli tapmışam: şübhəsiz ki,
haradasa koan* qədər geniş, Quran qədər dərin bir ümman var,
ora axıb düşəcəyik hamımız,
birimiz bir kəlmə kəsmədən doğrayaraq damarı,
birimiz Sena boyu adlayaraq aşağı və yuxarı.

"Çay" sözünü eşidəndə ağlına nə gəlir?

"Çayların dənizə axması haqqında bir şey yaz".
(Ləman)

Sözlər dünyadan aralı, sözdə dünya daralır. Dodaq toxunur dodağa, pıçıltın dolur qulağa, sonra yatırsan dönərək sağa. Siqaretlə zəhərlənmək və "Şər çiçəkləri"nə dalmaq üçün mətbəxə keçirəm. Səhərin açılması mənə "Lotus sutrası" kimi anlaşılmaz görünür. Buna baxmayaraq, siqaretdən qalxan tüstü, pəncərə ardında Şərqin gərgin çiçəklənməsi, Bodlerin sətirləri "ilahilik" barədə bütün təsəvvürü darmadağın edən dharmaların aramsız dramına işarə edir. Bir neçə qurtum tekiladan sonra öpüşlərlə damğalanmış parlaq çılpaq əndamın əndazədən çıxmış yaddaşımda Latın dilində bir atmaca oyadır: "Qui nescit tacere, nescit et loqui". Sadə ifadələr, frazaların ifrazı. "O"nun nə altı var, nə üstü. Nə də bü(s)tü. Mənim dinim səni dinləməkdir, dediklərini dənləməkdir. Dəniz hesab edilən gölün (O-ZERO) sahili ilə axşam gəzintisi zamanı sözlər Özgəliyin güzgü qırıntıları kimi səpələnirdi. Sənin nitqinin axarı mənə axırımı göstərir. Ürəyimə dammısan, indi isə mən boş-boş danışır, danışdığımı danır, mırıldanıram, yenə səni istəyirəm, şairin kitabını bir kənara qoyub, siqaretdən doyub səni oyatmağa yollanıram ki, duzlu tər içində ("duz" sözü beynimdə sənin düzgünlüyünü, saflığını canlandırır) yenidən qərq olum daim dəyişərək var olan axına.

Emin Əzizbəyliyə

Hava batinləşir. Axşam sükutunun bətnində "ölümlə və ondan sonra nə etməli?" fikirləri qurdlar kimi qaynaşır. Ölümü metaforaya çevirmək (məsələn, "справедливость", "ədalət", "delete", "удаление") nə səni, nə də məni keçidi keçməkdən xilas edəcək. Öləziyən şəxs əvəzlikləri. Ömrü kömürə dönmüşün, küncə sıxılmışın bir yolu var – tüstü kimi üst qatlara yüksəlmək. Biz kağız üzərində mürəkkəb, kitabələrdəki oymalarıq. "Yox!" və "Hə!" nidalarının vəhdəti dilə onun həddini bildirir. X elə X olaraq qalır – ərənlik. Yaşamaq öz qəbrinin keşiyini çəkib yaşlanmaqdır. Tövbəli mürəkkəb cümlə. Seks haqqında, ölüm haqqında, söz haqqında sözə qadağa. Mötərizəyə sığan nida kimi örtüləcəksən hər tərəfdən – budur morte. Zaman sifətləri toza qaytarır. Sonuncu səs-küyü əql burulğanı yaradır. Dəli olmaqla dəlik qorxusunu dəf etmək? Ancaq başqa yol da var: hər səhər dişləri yəni çılpaq sümükləri güzgüdə görmək ölmək qorxusunu səngidir, bu da öz növbəsində istənilən ideologemləri laxladır. Bu ideologemlərdən birincisi ikimənalılıqdır. Parlaq maskaların altında nə sima var, nə də sirr. Gümüşü ay səmadan qopub düşməyə hazırdır. Qəpik kimi. Giriş haqqı ödənilib. Gözlərini aç. Ayıl.

***

Sistem qəlizləşdikcə qırılma ehtimalı da artır,
lakin məsumluğa əsaslanan nizam artıq mümkün deyil.
Axınla getməyib axına girirsən
(bu iki məqam qar və yağış arasındakı fərqi xatırladır,
hərçənd qarın özü də hər dəfə fərqli) – uzaqda itib yaxında bitirsən,

---

***koan** – nəqletmə

oxuduqlarını ox kimi dəlib əlifba həbsxanasından çıxırsan həyata,
çıxırsan həyətə və çəkirsən içinə güllərin ətrini –
bax bu zaman yaşamaq/yazmaq qarşıdurması
mənasını itirir. Nəyi izah, kimi islah edəsən?
Büstləşməyi, büsbütün bütləşməyi rədd etmiş kəsə
qorxulu gəlmir bir-iki kərə görüküb yox olmaq
suyun səthində kəsə sıçrayıb bətnində batan daş kimi.
Ariflər deyir, sonsuzdur mərifətin təsviri.
Təfsiri də bir o qədər sonsuz. Ömür yetməz
nə yazmağa, nə yozmağa bu sirri.
Hər şey aydın: söz tük qədər nazik. Amma bu da məlum ki,
nazik qadın saçlarından körpülər hörülür.
Bəzən söz də o taya köçməyə yardım edir.
Keçəndən sonrasa gərək yandırasan körpünü ki, sən
vədinə sadiq qalaraq yanımda peyda olasan.

Beckett variation

Necə deyəsən, necə?
Adın yalançı çıxar.
Sən ya sus, ya da bağır –
Sükutu sözünlə qır.

Yorğundu köhnə sözlər,
Beyində açmır cığır.
Yeni dil tapıb çığır –
Bərələ qalar gözlər.

Bağırmayıb göstərsən,
Deyəcəklər, təlxəkdi.
Bunları yazan adam,
Burada azan adam
Yalqız, tənha və təkdi.

Bacarırsan – təkrarla,
Amma bircə ulama.
İncə xətlər qırılıb,
Kağızları bulama.

***

Quşların avtopark üzərində dövranı. Devrimlə bitəcək taleni toxuyub parklar. Ritmin Mitrası idarə edir onların iradəsin, yəni dairəvi uçuşu ilə. Yadında, beş yaşında ikən quşlarla dopdolu kitabdan hərfləri köçürürdün dəftərə? “I am doll, but I have no idol”. Allahı təsəvvür etmək mümkünsüzdür və bu səbəbdən təsviri qadağandır; çoxları nicat yolunu təsəvvüfdə tapır. Samitlərə nəfəs verən saitlərin əcdadı olan ruh bəsləyir quşları yer ilə göy arasında. Simurq, Qonrul, Öksökö, Səməndər. Avqurlar da yozardılar onların uçuşunu: “o” hərfi, sıfır, yaxud çevrə? Ağzını ayırıb quşlara baxmaq eşqi səni axmaq vəziyyətə salır. Qarğa qanadları taxmış İkarın qarğışı: kar olmaq.

Quşlar. Onların adları. Seçilməzdir korların yuxusu kimi: sanki öz əksinə doğru gedirsən – bilmirsən hara, amma artıq oradasan.

ruscadan tərcümə:
müəllif



“Ulduz” jurnalı ilə “525-ci qəzet”in birgə layihəsi

VIII DƏRS

DRAMATURQ - REJİSSOR TANDEMİ VƏ YA DRAMATURQ ÖZ REJİSSORUNU TAPMALIDIRMI?

Dramaturqsuz teatr olmadığı kimi, rejissorsuz teatr da mövcud deyil. Bu iki peşə sahibi bir-birinə qırılmaz tellərlə bağlı olsa da, hər biri özünü teatrda birinci hesab edir. Amma kim nə deyir-desin, kim nə hesab edir-etsin, rejissor lap dahi olsun, fərqi yoxdur, teatrda ilkin olan sözdür, dramaturgiyadır. Dramaturq olmayanı yazır-yaradır, rejissor isə dramaturqun yaratdığının üzərində işləyir, nə oyun çıxarırsa-çıxarsın, həmin dramaturji materialdan, pyesdən çıxış edəcək, hətta onu dəfə-dəfə təhrif edib tanınmaz hala salsa da. Bununla belə, dramaturq da rejissordan asılıdır, bəlkə də, daha çox. Müasir teatrda rejissorsuz keçinmək mümkün deyil. Niyə?

Tutaq ki, siz pyesi yazdınız, bəyəndiniz, haqlı olaraq gözəl bir əsər yaratdığınıza inandınız. Çox gözəl, amma pyes tamaşa deyil, sözdür, kağıza yazılmış səslənməyən sözlər. Onun tamaşa olması üçün ən azı rejissor, aktyor və səhnə lazımdır. Söhbətlərimizin birində dediyim kimi, elə ki əsər teatra verildi, dramaturqla pyes arasına çoxlu adamlar girir. Bu da təbiidir, teatr sintetik sənət olmaqla yanaşı, həm də kollektiv sənətdir. Dramaturq rejissorsuz keçinə bilməz, hətta deyərdim ki, dramaturq öz rejissorunu tapmalıdır.

Yaradıcılığımdan danışanda, müsahibələr verəndə mən məmnuniyyətlə rejissor dostum Bəhram Osmanovun adını çəkirəm. Bu, əlbəttə, səbəbsiz deyil, 1992-ci ildən başlayaraq Bəhram Osmanovla yaradıcılıq ünsiyyətindəyik. Elə tək Azdramada mənim beş əsərimə quruluş verib. Ölkəmizin müxtəlif teatrlarında əsərlərimi səhnələşdirib, Rusiya Federasiyasına daxil olan üç teatrda rus, osetin və kalmık dillərində əsərlərimi tamaşaya qoyub. Onun hazırladığı “Köhnə ev”, “Mesenat” və “Varlı qadın” uzun illər Azdramanın ən çox baxılan tamaşalarından olub. Bizim birgə işimiz bir-birimizi yaxşı başa düşməyimizin, teatra baxışlarımızın uyğunluğunun nəticəsidir. Mən həmişə demişəm, yenə də deyirəm, əsərlərimin Azdramaya yol almasında əsas təşəbbüs həmişə Bəhram Osmanovdan gəlib. Hər əsərimin tamaşaya qoyulması üçün o mübarizə

aparır, az qala vuruşur, bütün imkanlarından istifadə edirdi. Bizim dramaturq-rejissor tandemimiz bu gün də davam edir.

Səkkiz əsərimin səhnə taleyi unudulmaz Hüseynağa Atakişiyevin adı ilə bağlıdır. Ümumiyyətlə, ölkənin ən istedadlı, ən tanınmış rejissorları əsərlərimə müraciət ediblər. Görkəmli rejissorumuz Azər Paşa Nemətov az zaman içində "Şah Qacar" kimi möhtəşəm bir tamaşa hazırladı. Baş rol üçün Azər Paşa Nemətov Fuad Poladovu seçdi. Kimin nə deməyindən asılı olmayaraq, hesab edirəm ki, Qacar mərhum aktyorun səhnədə ən parlaq aktyor işi oldu. Özü isə müsahibələrinin birində pyes haqqında demişdi ki, müasir Azərbaycan dramaturgiyasında ilk dəfədir belə mükəmməl əsərlə rastlaşıram.

Mehriban Ələkbərzadənin quruluşunda "Nuri-didə Ceyhun" tamaşasını isə Azərbaycan teatrının son illərin ən gözəl rejissor işlərindən biri kimi qiymətləndirirəm.

Gələcəkdə dramaturq olmaq istəyənlərə bir həqiqəti də deyim. Dramaturq rejissorun əsər üzərində yaradıcılıq işinə qarışmasa, yaxşıdır. Əgər rejissor səni seçirsə, sən də bu seçimə etibar edirsənsə, bir kənara çəkilib işin nəticəsini gözləməlisən. Nəticə ürəyincə olmursa, hesabını götür, yəni gələcəkdə o rejissorla işləməkdən çəkin.

Təcrübəsindən, nüfuzundan, istedadının və populyarlığının dərəcəsindən asılı olaraq rejissorlar, onların iş üslubu və dramaturqa münasibəti fərqlidir. Əgər bir dramaturq kimi məşqlərdə iştirakıma Bəhram Osmanov heç vaxt etiraz etmirdisə, mərhum Hüseynağa Atakişiyev müəllifin məşqdə iştirakının qəti əleyhinə idi. İlk vaxtlar onun bu xasiyyətini bilmirdim, həvəsli vaxtlarımdı, çalışırdım məşqlərdə iştirak edim, prosesdən ləzzət alım. Vaxtı bilib teatra gəlirdim, məşq ya baş tutmurdu, ya təxirə salınırdı. Sonralar bir-birimizi yaxşı tanıyandan, müəyyən dostluq münasibətləri yaranandan sonra özü məni məşqlərə dəvət edirdi, bu dəfə mən imtina edirdim. Onsuz da onun rejissor işinə müdaxilə edə bilməzdim. Səhnə artıq onun – rejissorun ərazisi idi, mən bu əraziyə daxil olmaq istəmirdim.

Bəhram Osmanovun rejissor ərazisi və onun sərhədləri dramaturq üçün daha şəffaf, bir az da liberaldır. O, mənim məşqlərdə iştirakıma heç bir halda mane olmur, hətta müəyyən qeydlərimə diqqətlə yanaşır, ağlına batanları qəbul edirdi. Onu da deyim ki, xeyli yaş fərqinin olmasına baxmayaraq, uzun illərin birgə əməkdaşlığı dostluğa çevrilib. Bu dostluq və əməkdaşlıq yaradıcılığıma güclü təsir göstərib. Bir çox pyeslərimin ideyası, təklifi, yazıya təhriki məhz Bəhramla iş birliyinin nəticəsidir. Bir çox xarici ölkə teatrlarında əsərlərimin tamaşaya qoyulmasının təşəbbüskarı da, dediyim kimi, Bəhram Osmanovdur.

Azər Paşa Nemətov diktator rejissor olsa da, mənim məşqlərdə iştirakıma nəinki mane olur, hətta bir-iki məşqi buraxmağa məcbur olurdumsa, narazılığını bildirirdi. Amma bu o demək deyildi ki, mən onun rejissor işinə qarışa bilərdim. Sadəcə, mən prosesi müşahidə edirdim.

"Şah Qacar"ın bütün məşqlərində olmuşam. İlk dəfə idi ki, mən hansısa pyesimin bütün məşq proseslərinin iştirakçısı olurdum. Bu proses mənə çox şey verdi. Mən yazdığım sözlərin kağız üzərindən necə aralanıb səslənməsinin, onlara uyğun olaraq obrazların tədricən yaranmasının, canlı insanlara çevrilməsinin, mizanların qurulmasının, rejissorun işıq və musiqi ilə necə böyük ləzzətlə, filiqran* işləməsinin, nəhayət, Fuad Poladovun gün-gün, saat-saat Qacara çevrilməsinin şahidi olurdum.

Rejissorun öz işini necə sevməsinin, yaratdığından vəcdə gəlməsinin, səhnədə özünün yaratdığı sehrli bir səhnəni görüb kövrəlməsinin də şahidi olurdum. Əlbəttə, mən bəzən istəsəm də, bu prosesə müdaxilə edə bilməzdim, çünki əsərin tamaşaya qoyulmasında rejissor konsepsiyası dominant rol oynayırdı.

Bir məqamı da deyim: heç bir rejissor mənə əsəri yenidən işləmək, nələri isə dəyişmək təklifində olmayıb. Azər Paşanın yanaşması isə fərqlidir. "Şah Qacar"ın məşqlərindən qabaq dramaturji material, yəni mənim təqdim etdiyim pyes üzərində rejissorun istəyi ilə xeyli yaradıcılıq işi aparmalı oldum. Tamaşaya qoyulan pyes əvvəlki variantdan kəskin surətdə seçilir. Rejis-

---

***filirqan** – ustalıqla, incəliklə

sorun istəyi ilə əsərə 3-4 səhnə və ona uyğun olaraq 5-6 personaj əlavə etdim. Nəticədə, əsərin ilkin aksenti xeyli dəyişmiş oldu. Mikayıl Müşfiqin faciəli taleyindən bəhs edən "Ah, bu uzun sevda yolu" adlı pyesim də həmin proseslərdən keçdi. Hər iki tamaşanın çox uğurlu səhnə həyatı oldu. "Şah Qacar" artıq 80 dəfə oynanıb, özü də hər dəfə anşlaqla. İkinci tamaşa isə çox qısa zamanda artıq 30 dəfə, yenə də ancaq anşlaqla oynanıb.

Daha bir rejissorun da adını çəkməliyəm. Tale bizi səhnədə bir dəfə görüşdürüb. O da Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində. İdeyası teatrın direktoru Əliqismət Lalayevə məxsus, artıq bir az əvvəl adını çəkdiyim "Nuri-didə Ceyhun" adlı pyesimin Mehriban xanım Ələkbərzadəyə tapşırılmasını razılıq hissi ilə qarşıladım. Pyesin ideyasının mənə verilməsi prosesində Mehriban xanım da iştirak edirdi. Direktorla rejissorun gələcək pyeslə bağlı istəkləri və Ceyhun Hacıbəylinin çox spesifik məzmunlu yuxuvari xatirələri, üstəgəl, Üzeyir bəyin məktubları. Pyes beləcə bu üç mənbədən və yazıçı təxəyyülündən yarandı. Tamaşa isə, sözün həqiqi mənasında, əsl rejissor tamaşası oldu. Tamaşanın mürəkkəb strukturu, yumşaq, bəzən kəskin zaman keçidləri, aktyorlardan yüksək plastika tələb edən mürəkkəb mizanlar, metaforik səhnələr, səhnədə dəzgahların fantastik oyunu heyrətamiz idi. Mehriban xanım da diktator rejissordur, onun işinə qarışmaq ancaq zərər gətirə bilər. Bir halda ki buna ehtiyac da yox idi. Əgər tamaşada zəif bir məqam vardısa, o da teatrın aktyor truppasındakı çatışmazlıqlarla bağlı idi. "Nuri-didə Ceyhun" Musiqili teatr üçün tam yeni bir tamaşa, yeni bir istiqamət idi. Heyif ki, yüksək bədii dəyəri olan tamaşanın səhnə taleyi o qədər də ürəkaçan olmadı. Ortaya heç gözləmədiyim halda insan amili girdi. Səlahiyyətli yazıçı həmkarlarımdan biri tamaşanı görmədən onun səhnədən uzaqlaşdırılmasına nail oldu. Mən uğurlarımı da, uğursuzluqlarımı da sakit qarşılayıram. Mənim çoxlu əsərlərim oynanıb, biri oynanmasa, dünya dağılmayacaq. Təki dost hesab elədiyim həmkarım dərindən, sinə dolusu nəfəs alsın. Teatrdan da dedilər ki, tamaşa texniki səbəblərdən oynanmır, amma yaşasın "yutub", istəyən orda tamaşaya baxa bilər. Mədəniyyət TV də bu tamaşadan diqqətini yayındırmadı. Onu ekran vasitəsilə daha geniş tamaşaçı auditoriyasına təqdim etdi. Əlbəttə, nə YouTube, nə də teleekran canlı ifanı əvəz eləyə bilər, amma... lənət yoxa!

Bunu deməkdə məqsədim nədir: hamıdan məhəbbət gözləməyin. Minlərlə sevənləriniz içərisində sevməyənləriniz də olacaq, xüsusilə həmkarlarınız arasında. Qayıdaq mövzumuza.

Əlbəttə, yüzdən çox premyerası olmuş dramaturqun bütün rejissorları ilə ünsiyyətdə olması çətin məsələdir, həm vaxt sarıdan, həm fiziki cəhətdən, özü də ola mənim kimi tənbəl dramaturq. Mən heç bölgə teatrlarımızdakı tamaşalarımın çoxunu görməmişəm, qaldı xarici ölkələrdəki tamaşalarım. Əslində, bu da təbiidir. Məgər M.F.Axundov, C.Məmmədquluzadə, H.Cavid, C.Cabbarlı, S.Rəhman, İ.Əfəndiyev indi əsərlərinin necə hazırlandığını görür?

Bir dəfə Tacikistanda "Varlı qadın"ın tamaşasında olmuşam. Onda məndən müsahibə alan müxbir xanım soruşdu ki, sizin əsəriniz uzaq Tacikistanda tamaşaya qoyulur, siz məşqlərdə olmamısız, rejissorun kimliyindən xəbəriniz yox, bu sizi narahat etmir? Mən də bir az yumorla dedim, Şekspir də teatr işlərinə çoxdandır qarışmır. Cavabım yazının manşetinə çıxarılmışdı. Yeri gəlmişkən, mən bu əhvalatı bir neçə dəfə müsahibələrimdə demişəm, heç kəsin eyninə olmayıb, amma mənim dramaturgiyamı çox sevən və daim diqqətdə saxlayan bir xanımın möhkəm xətrinə dəyib.

Niyə bütün bunları sizə danışıram? Səbəb çox sadədir: gələcəkdə çox rejissorlarla işləməli olacaqsız, çalışın onların işinə müdaxilə etməyin. Çünki pyesin müəllifi dramaturqdursa, tamaşanın müəllifi rejissor, bəstəkar, rəssam və aktyorlardır. Həlledici məqam isə, əlbəttə, rejissordur. Çünki yaradıcı kollektivi seçən, bir yerə yığan və tamaşanın hər komponentinə cavabdeh olan məhz rejissordur. Bu həqiqəti anlamaq, bu reallığı qəbul etmək lazımdır. Bununla belə, dramaturqun istəmədiyi rejissorla işləməkdən imtina etmək ixtiyarı həmişə var. Sənə seçim imkanı verilmirsə, deməli, o teatrdan üz çevirməlisən. Bununla belə, Azərbaycan şəraitində əsas teatrların sayı çox məhdud olduğundan qəti hərəkət etməyə tələsməyin. Yüz ölçün, bir biçin. Mənim personajlarımdan birinin sözüdür: "Reallıqla barışmaya bilərsən, amma hesablaşmağa məcbursan".

Təranə DƏMİR

SONUNCU YARPAQ

Bu çılpaq ağacın budaqlarından
Sonuncu yarpaq da küsür bu gecə.
Sonuncu xatirə qopur yerindən,
Küləyə qarışıb gəzir bu gecə.

Gəzir qapı-qapı, gəzir evbəev,
Gəzir çılpaq qalan xatirələri.
Keçir küçə-küçə üstündən yenə
Maşın təkərləri, qış çəkmələri.

Qalıb ayaq altda xatirələrin
Qolu, qabırğası sınır bu gecə.
Qapqara zülmətin baxışlarında
Sonuncu ümid də sönür bu gecə.

Torpağa qarışır sonuncu yarpaq,
Qarışıb təzədən ömür doğacaq.
Bulud ağlayacaq bu torpaq üstə,
Sonra da hardansa Günəş baxacaq.

Sonra bu üşüyən ağac təzədən
Geri çağıracaq yarpaqlarını.
Yenə də hardansa külək əsəcək,
Əl atıb yığacaq yarpaqlarını.

Beləcə bitəcək bu ağac ömrü,
Torpağa qarışıb yuxulayacaq.
Torpağın altında kök atıb bir də
Torpağın üstündə ağac olacaq...

DAR QƏBİR

Bu qəbir mənimki deyil,
Bu qəbir dardı əynimə.
Bu qəbir günahla dolu,
Neynirəm, dəyir çiynimə.

Bir qəbir günah olmuşam,
Bir qəbir günah yiyəsi.
Torpağın üstü aldadıb,
Torpağın altı neyləsin?

Bu nə bir cənnətdi, vallah,
Nə cəhənnəm bucağıdı.
Qıl körpü də görünmür heç,
Bura yerin qucağıdı.

Nə mələk var, nə şeytan var –
Keçirə məni qəbirdən.
Ala, qata qabağına,
Uçura məni qəbirdən.

Yerə, göyə aldanmışam,
Qəbir də gülür üzümə.
Məni ağladan nağıllar
Qəbirdə gülür üzümə...

BİR ARZUN VAR, BİR DƏ ÖZÜN

Yumasan gözünü, bir arzu tutasan,
Sıxıb saxlayasan arasında;
Qorxasan açsan, uça, gedə –
Minəsən belinə,
Qaldıra səni göylərə...
Az gedəsən, üz gedəsən,
Dərə, təpə düz gedəsən;
Düşəsən bir ipək yola:
Ayaqlayasan göyləri qarış-qarış,
Buludlardan keçəsən...
Üz-gözünü yağış yuya,
Küləklər yelpikləyə;
Uzaqdan bir göz baxa,
İşıldaya qaranlıqda –
Qaçasan ona sarı arzunun tərkində,
Sən qaçdıqca o da qaça;
Nəfəsin təngiyə, boğulasan,
Baxasan ki, tək-tənhasan...
Bir arzun var, bir də özün:
Gözlərin arzuda yorula,
Arzun gözündən bezə;
Yavaş-yavaş, yorğun-yorğun
Qayıdasan öz yerinə,...
Gecə bitə... Və arzun diyirlənib
Atıla səhərin ovcuna:
Düşə,
İtə...

BACARIRSAN, GET...

Əllərimin tumarı
Əlinin yaddaşında;
Eşq, məhəbbət nağılı
Dilinin yaddaşında;
Saçlarımın bu xəzan,
Bu gümüşü yaşında:
Bacarırsan, get görüm...

Bizdən keçib bu cığır,
Üstündə izimiz var;
Tinində, döngəsində
Hələ çox gözümüz var;
Yanıb qurtarmamışıq,
Hələ ki közümüz var:
Bacarırsan, get görüm...

Əlin qapıda qalıb,
Ayaqların kandarda;
Qəlbin mənim əlimdə,
Çırpınırsan kəndirdə –
Kim açacaq zənciri?
Nə görmüsən ölümdə?
Bacarırsan, get görüm...

NEYLƏSƏLƏR, DÖZMÜŞƏM

Ruhum uçub, canım yerdə ərəsan,
Gəlib bir də bu halımı görəsən –
Bu qisməti kim tullayıb, görəsən?
Zülmətində, qarasında azmışam.

Bir addımlıq yolum qalıb sabaha,
Verdiklərim aldığımdan çox baha –
Xirtdəyəcən bulaşmışam günaha,
Qul olmuşam günahıma, susmuşam.

Özgəsinə yediriblər haqqımı,
Yeyib, yeyib bitiriblər haqqımı –
Məndən qabaq götürüblər haqqımı,
Əlim yanıb, dodağıma basmışam.

Bahar ötüb, payız gedib, qış düşüb,
Qismətimə özüm boyda daş düşüb –
Mənim bəxtim yaranışdan boş düşüb,
Üzüm bərkdi, neyləsələr, dözmüşəm!

SAAT ƏQRƏBLƏRİ

Saat əqrəblərindən asılan zaman kimiyəm:
Arxamca itələyib atırlar dönüşü olmayan gedər-gəlməzə,
Yorğun-yorğun fırlanıram ömrün başına...
Harda pas atacaq əqrəblər?
Harda bitəcək bu saatın sonuncu gücü?
Nə vaxt düşəcəm yola çıxdığım zamanın düz üstünə?
Ya, bəlkə, tərsinə fırlanacaq zaman?..
Bəlkə, yenə vaxtın qanadlarında uçacam
Hələ mən olmayan boşluğa –
Azıb girəcəm birinci qəbrimə,
Əlimi, ayağımı uzadıb
Torpağın qanın içəcəm yavaş-yavaş...
Sonra bir bənövşə bitəcək
Mən olan torpağın düz üstündə,
Əl atıb dərəcək kimsə;
Nə bilim,
Nə isə...
Hələ ki dartırlar məni üzüyuxarı,
Tökülə-tökülə,
Sökülə-sökülə dırmaşıram Tanrıya sarı...

KÜÇƏ

Bu küçənin baxışları yorulub,
Heydən düşüb ayaqları küçənin –
Hər tərəfi cırıq-cırıq, nahamar,
Gözə girir yamaqları küçənin...

Nələr görür, nə eşidir bu yazıq,
Öz-özünü ağlamağa dili yox –
Üstü-başı dərd qoxuyur, neyləsin,
Yığışdırıb toplamağa əli yox...

Sinəsində çeşid-çeşid iz qalıb,
Qocası var, cavanı var bu izin –
Hərəsi bir duz yüküdür, duz yükü,
Çatanı var, azanı var bu izin...

Ayağını möhkəm-möhkəm basanı,
Üsul-üsul keçəni var hardasa –
Milyonların arasında üşüyən,
Dərd-sərindən bezəni var hardasa...

Nə sirlər var cadar-cadar üzündə,
Ləpirində, izlərində küçənin –
Bu küçənin baxışları yuxulu,
Ölüm yatıb gözlərində küçənin...

HƏR ŞEYDƏN BİR YARPAQ

Hər şeydən bir yarpaq qoparıb verin,
Bir az sevincindən, bir az qəmindən,
Amma nə olsa da, mən sevən olsun,
Seçin yarpaqların ən gözəlindən...

Sözun də yaxşısın deyin, sən Allah,
Yoxsa ki qəlbimə toxuna bilər;
Hələ yazılmamış neçə tərana
Çevrilib tərsinə oxuna bilər...

Hər şeydən bir yarpaq qoparıb verin,
Bir az küləyindən, bir az qarından;
Bir az Günəşinin hərarətindən,
Bir az bağlarının yaz nübarından...

Amma nə verirsiz, ürəklə verin,
Alıb əlinizdən daşıya bilim;
Sevincdə kədəri, qəmdə sevinci
Sığdırıb ömrümə yaşaya bilim...

DƏNİZ

Tənhalıqdan üşüyən qucaq kimidir dəniz –
Gözləyər yoldan ötən,
Fikrində azan,
dünyasından bezən qonaqları;
Özü kimi tənha qalıb hər kəsdən küsən
qonaqları...
Açar qucağını vaxtsız-vədəsiz –
Tənha dəniz,
Kimsəsiz...
Düşər qoynuna baxışlardan tökülən damlalar –
Hər damladan ümman yaranar,
Nə yaxşı, damlalarda boğulan dəniz var...
Qalanların pənahı dəniz,
Gedənlərin son ahı dəniz –
Dəniz,
Kimsəsiz dəniz...
Açar qollarını səssiz-səmirsiz,
Udar dünyanı;
dərdlərini içinə atar,
İlahi, nə yaxşı dəniz var...



Mustafa MAHMUD

— Misirli yazıçı, həkim və filosof

Mustafa Kamal Mahmud Hüseyn Əl-Məhfuz 27 dekabr 1927-ci ildə Misirin Minufiyə qəzasının Şibin Əl-Kom şəhərində anadan olub. O, yaradıcılığı dövründə 89 elmi, dini, fəlsəfi, sosial – siyasi kitab, bundan əlavə, bir çox hekayə, pyes və səyahət hekayələri yazıb. Dr. Mustafa Mahmud "Elm və İman" adlı məşhur televiziya proqramının 400-dən çox bölümünün aparıcısı olub. 1979-cu ildə məşhur "Mustafa Mahmud məscidi"ni inşa etdirib. Həmçinin məhdud gəlirli insanların müalicəsi üçün nəzərdə tutulmuş 3 tibbi mərkəz inşa etdirib. Bu mərkəzləri tibbi nüfuzuna görə hər il minlərlə misirli ziyarət edir. Mustafa Mahmud 16 həkimdən ibarət "Mərhəmət qafiləsi", astronomik rəsədxana və geoloji sahə üzrə ixtisaslaşmış personalın olduğu geoloji muzeydə yaradıb.

Ədib "Quran: Müasir anlayış cəhdi" (1969), "İslam nədir?" (1984), "Təəccüblü sual" (1989), "Gələcək üçün oxu" (1990) və s. kimi fəlsəfi əsərlərin, "Anbar 7", "Zaman ucuzdur", "Qatar" (1957) kimi qısa hekayələrin, "Qan qoxusu" (1966), "Tufan" (1976), "Qaynama nöqtəsi" (1977) və s. hekayə toplularının, "Afyon" (1964), "Hörümçək" (1965), "Tabutdan çıxış" (1965) kimi romanların, "Böyük İskəndər" (1963), "Zəlzələ" (1963), "İnsan və Kölgə" (1964), "Evimizdə şeytan yaşayır" (1973), "Kiçik cəhənnəm" (1982) və "Cəhənnəmə və cənnətə bir ziyarət" (1996) kimi pyeslərin müəllifidir.

Mustafa Mahmud 31 oktyabr 2009-cu ildə bir neçə ay davam edən müalicədən sonra 87 yaşında dünyasını dəyişib. Dəfn mərasimi Mohandessin bölgəsində yerləşən "Mustafa Mahmud məscidi"ndə baş tutub. Dəfndə heç bir məşhur və ya rəsmi şəxs iştirak etməyib, mediada isə onun haqqında çox az danışıblar.

SABAH

(esse)

Dünən gecə bu gün yazacağım haqda düşüncələrə qərq olduğumu bilirdim. Bilirdim ki, bu saatlarda qələmi əlimə alacağam və əllərimin arasındakı bəyaz vərəq qələmi hər dəfə üzərində hərəkət etdirdikcə yavaş-yavaş qaralacaq. Ancaq bilmirəm ki, qələm öz məqsədinə çatarmı, yoxsa sona qədər dözməyib, üzüqoylu düşərmi? Bu məktubumu bitirə bilərəmmi, ya bu yolda dövrün amansız xəstəliklərindən biri mənə manemi olar? Bilmirəm. Çünki mən sabahın özüylə birlikdə nələr gətirəcəyindən xəbərsizəm. Çünki gələcək Allahın əlindədir.

Səhər paltarlarımı geyindiyimi, onların hələ də üzərimdə olduğunu bilirəm. Ancaq bilmirəm ki, onları mənim əlimmi soyundurar, ya mürdəşirinmi?

Sabah – uzaqdan baxana məchul bir xəyal kimi görünür. Bəlkə də, o, mərhəmətli bir mələk, ya da lənətlənmiş bir şeytandır. Ya da əksinə, qara bir buluddur. Əgər üzərinə soyuq bir külək əssə, onu hissələrinə ayırar və zərrələrinə qədər parçalayar. Həmin qara bulud sanki heç vaxt olmamış kimi məhv olub gedər.

Sabah – suları bir nəfəs kimi içinə çəkən, dalğaları fəryad edən coşqun bir dənizdir. Nə bilmək olar ki, o içində ləl-cəvahirat daşıyır, ya qanlı ölüm?

Sabah idrak edilməyəcək qədər uzaqda gizlənir, o özünü bütün nəzərlərdən kənara çəkir. Belə ki, insan evinin qapısından çıxmaq üçün ayağını qaldıranda belə bilmir ki, ayağını evin pilləkəninəmi qoyacaq, ya soyuq məzarın astanasınamı?

Sabah – böyük sirlərlə dolu bir ürəkdir. Onun haqqında təxminlər irəli sürülür, insanlar onun barəsində məlumat əldə etməyə çalışır, hər kəsin diqqəti onun üzərindədir. Ancaq qayadan şirin su axmadıqca heç kim onun hər hansı bir sirrindən agah ola bilməz.

Sanki sabah sığınacağında gizlənir, yuvasına çökür. O, ümidlərimizə və arzularımıza laqeyd və istehzalı baxışlarla baxır, təhqiredici və ironiyalı təbəssümlə gülümsəyərək öz-özünə deyir: "Əgər bu sərvət yığan bilsəydi ki yığdığını özü üçün yox, varisi üçün yığır, bu bənna tikdiyini bir gün viran olması üçün tikir, bu valideyn övladını ölməsi üçün dünyaya gətirir, onda özünə sərvət toplayan yığmaz, bənna tikməz, valideyn də dünyaya gətirməzdi".

İnsan bu dünyadakı hər bir maneənin öhdəsindən gəlir. Yerin altından tunel açır, pilləkənlə səmaya qalxır, günəşin doğuşundan batışına qədər bütün əraziləri dəmir və mis tellər vasitəsilə birbirinə bağlayır. Ağlının sayəsində fəzaya səyahət edir, ulduzlarda yaşayır. Onların dərinliklərini, oradakı düzənlikləri, insanların məskunlaşdığı məkanları, boş əraziləri, rütubətli və quraq yerləri öyrənir. Ulduzlar arasındakı uzaqlıqları, günəş şüalarının qət etdiyi məsafələri, yerin kütləsini ümumi və ətraflı şəkildə hesablamaq üçün ölçülər yaradır. Dənizlərə baş vurur və onların qaranlıq yerlərini öyrənir, torpağını incələyir, sakinlərini narahat edir. Dənizin qaranlıq sularında gizlənən xəzinələri tapır, almazları, ləl-cəvahiratı yağmalayır. Daşların və təpələrin arasından tənha zirvələrə qalxır və oranın sahiblərini görür. Necə yaşadıqlarını, harada yaşadıqlarını, nə yeyib, nə içdiklərini öyrənir. Gözlə görünən hisslərin limanlarından qəlbin dərinliklərində gizlənən hisslərə doğru yol alır. Şəxsiyyətini və xarakterlərini, ağlını və dünyagörüşünü öyrənir, hətta az qala özünü ifadə və duyğulara sirayət etmə imkanı əldə edir. Zəkasıyla hər bir divarı aşır, hər bir qapını açır. Ancaq sabahın qapısı önündə aciz qalır, yerə düşür. Nəinki onu açmağa tələsmir, hətta qapını döyməyə belə cəsarət etmir. Çünki o, Allahın qapısıdır və Allah gizli dünyasını heç kimə göstərmir.

Ey üzü görünməyən niqabla örtülü xəyal, niqaba bürünmüş üzünü görməyimiz üçün bu örtüyü üzündən azacıq da olsa, qaldırarsanmı, yoxsa yox? Yaxınlaş bir az bizə. Bəlkə də, bizdən əvvəl endirdiyin niqabın arxasından üzünü görə bilərik. Qəlblərimiz şövqlə sənə doğru tələsir, ciyərlərimiz səni axtarmaqdan tələf olur.

Ey sabah! Bizim irili-xırdalı arzularımız, faydalı və faydasız istəklərimiz var. Bizə ümidlərimiz haqqında danış. Onların səndəki yeri haradır? Bizi istəklərimizdən xəbərdar et. Sən onlarla nə etmisən? Onlara lağ edib, gözümçıxdıyamı salmısan, yoxsa hörmət edib yüksəklərəmi qaldırmısan?

Yox! Yox! Sirrini sinəndə gizlə. Niqabını üzündə saxla. Bizə arzularımız və istəklərimiz haqqında heç nə danışma. Danışma ki, peşman olmayaq. Çünki onlar ruhumuza və canımıza əzab verə bilər. Biz mənasız belə olsa, ümidlərimizlə yaşayırıq. Yalan da olsa, istəklərimizlə xoşbəxt oluruq:

İnsanın həyatı sadəcə arzulardan ibarətdir. Əgər o, arzularını itirsə, çox keçməz, həyatını da itirər.

Tərcümə edən:
Bayramlı Məhəmməd

MƏCHUL ŞEY

(hekayə)

Hər an, hər gün, ilin hər fəsli, ömrün hər ili eynidir... Hamısı bir əslin oxşar nüsxələridir... Təkrardan – darıxdırıcı təkrardan başqa bir şey deyil onlar... Onun həyatı heç bir yenilik olmadan ötüb keçir... Sabahı dünənə bənzəyir, bugünü keçmişə... nə dərin hüznlər, nə güclü sevinclər, nə gülüşlər, nə də göz yaşları... yalnız tutqun təbəssümlər və ürəyi sarsıtmayan ötəri kədərlər...

Müşahidə boruları ulduzların hərəkətindən xəbər verdiyi kimi, o da nə baş verəcəyini artıq əvvəlcədən deyə bilir... Çünki həyatının gedişatı donuq, sərt və ruhsuz bir qanunun hökm elədiyi alətə çevrilib...

Köhnə maşınının qapısını açıb düşməyə hazırlaşır... İt hürür, qoca qapıçı əsnəyə-əsnəyə qalxıb

təzim edir... O, ayağını xırda daşlarla sıx-sıx döşənmiş dəhlizə qoyur, beş pilləkən qalxıb, zəngi basır... Qapını açmağa gələn dazbaş xidmətçi gözə görünür; düz iyirmi ildir ki, o, eyni işi görür... Sonra xidmətçi axsaya-axsaya onun arxasına keçir... Yataq otağının işığını yandırır... Mebelin ayrı-ayrı hissələrinə toxunur... Bir-birinin ardınca, həmişəki ardıcıllıqla, asılqandan başlayıb, sonra stula və dolaba keçir... Daha sonra heykəl kimi durub paltonu, gödəkcəni və digər paltarlarını bir-bir ondan alaraq asılqandan asır və ağzını açıb, həmişəki sözləri deyir:

– Şam yeməyi hazırdır, ağa! Bir şey istəyirsiniz?

O da həmişəki cavabı verir:

– Xeyr, çox sağ ol!

Düz on dəqiqədən sonra arvadı oyanıb, gərnəşir, əsnəyə-əsnəyə oturur, sonra gecə paltarında qalxaraq heç vaxt dəyişməyən cümləni deyir:

– Bu gecə də çox gecikmisən... Bu yuxusuzluq səhhətinə təsir edir...

Adəti üzrə, qurucasına cavab verir:

– Can mənimdir. Mən də azad adamam, nə istəsəm, onu da edərəm. Min dəfə demişəm ki, bu mövzuya qayıdılmasın!

Ciddi və gərgin surətdə əsəbiləşmək istəsə də, bu gərginlik sönüb, adi sıxıntıya çevrilir, sözlər ona itaət göstərmir və susur... Açıq pəncərəyə tərəf baxır; səma, işıqlı minarə, qurbağa qurultusunda gah batıb, gah üzə çıxan dəyirman taqqıltısına tərəf. Sonra divardan asılmış şəklə və arvadının cazibəli çöhrəsinə nəzər salır... Cazibə da qocalır, gözəllik də. Kömür rəngli sıx saçlar, qara gözlər, məğrur bəniz, şam kimi qamət də qocalır... Bütün bunlar onun içindəkiləri oyatmaqda acizdi... Sanki duyğular ölmüş, vərdiş qəbiristanlığında yox olub getmişdi.

Ürəyin məhəbbətindən doğan və vücudu başdan-ayağa həyəcana salıb, gümüş zınqırov kimi cingildəyən uşaq gülüşləri hardadır indi?.. Bəs mirvaritək göz yaşları axıdan o gənclik arzuları hardadır?.. Hardadır ümidin titrəyişi, qorxu həyəcanı? Hardadır o vaxtlar ki, hər anı yeni həyat hissləri ilə dolu olardı... Hardadır sevgi və səadət?.. Hardadır o dərin hüzn, o böyük sevinc?..

O, insanın arzuladığı hər şeyə malikdir; gözəl qadına, imarətə, maşına, mədəniyyətə, pul və asudə vaxta... Hər şeyi var... Lakin heç nəyi hiss etmir...

Bu xatirələr kabus kimi onun üzərinə çökür... Onların arasından arvadının səsini eşidir. O gedib-gəlib hey deyir:

– Şorbanı artıq isitmişəm, əzizim! Süfrəni də hazırlamışam.

Şorbanı görmədən, onun balıqdanmı, ətdənmi və ya tərəvəzdənmi olduğunu öyrənmədən ürəyi bulanır. Boğazı daralır... Hər şeyi, hətta təmiz suyu belə rədd etməyə hazırdır.

Həyatında yeni bir şeyin olması lazımdır. Bu tənhalığın qapılarını bir neçə dostun üzünə açmaq, onu hər həftə yemək, şərab, dedi-qodu, söhbət və sərsəmliklə dolu səs-küylü gecələrdə yox etmək lazımdır. Bir adamın yediyi şorba ilə onlarla adamın yediyi şorba eyni deyil axı.

***

Görəsən, bu doğru fikir idi?..

Hər həftə cümə axşamının gecəsi qapılarını dostlarının üzünə açmağa başladı. Onlarla birlikdə yeyib-içib, laqqırtı vurdu. Lakin bu, onda öz uğursuzluğuna əminliyi daha da artırdı... Başqa gözlərin arxasında da həmin üzüntünü, həmin sıxıntını görürdü. O gözlər gah gülür, gah gülümsəyir, gah dinlənir, gah həyəcanlanırdı, lakin bunun arxasında tamamilə bir saxtalıq gözə çarpır və bu gülüş çox keçmədən gizlənir, sahibinin boğazında ilişib qalır, yerini qəm-kədər dolu heyrət hissi tuturdu... Həyəcan da sönürdü; hiss edirdi ki, daha eşitdiyi şeylər ona maraqlı gəlmir. Hər şeyi əvvəlkitək təkrar etmək azğınlığı bütün yeniliklərə ənənəvi damğasını vurur, hər kəsi öz qanunları ilə hökm edən alətə çevirirdi... Tez gələn həmişə tez gəlib çıxır, gecikən də həmişə gecikirdi... O, adicə zəngin çalınmasından həmin adamın adını müəyyən edə bilirdi... Qapını açdıqda da hər kəsin həmişəki kimi dəyişilməyən yerişi, heç vaxt əvəz olunmayan salamlaşması baş tutur, qucaqlaşır və öpüşürdülər. Növbəti dəfə eyni öpüş, eyni qucaqlaşma təkrarlandıqca bütün orijinallığını itirirdi. Oturanda ayağını ayağının üstünə qoyması, yaxud barmaq ucları ilə stolu döyməsi və ya saçını düzəltməsi, ya da güzgüyə baxması onun üçün yeni bir hal deyildi. Bütün bunlar yenilik və ixtiralardan uzaq bir mexanizmin hərəkətləri idi... Söhbətlər həmin söhbətlər, dedi-qodular həmin dedi-qodular... Bayağı filmlər... Hava... Zökəm... Uşaqlar... Müharibə... Rüsvayçılıq... Ölüm-itim və... Böhranlar... Sonra gözlər yorulur, dillər əldən düşürdü... Hekayə sona yetirdi... Başqa bir şəkildə... Başqa bir dillə və... başqa adlarla yenidən başlananadək. Gözlərin yorğunluğu, dillərin sarsaqlığı, ağızların əsnəməsi daha da artırdı... Sonra hamı bir-birinin ardınca tələm-tələsik sağollaşırdı... Evdə isə qatı tüstüdən.... Qədəh, gül və yemək qoxusundan... Bir də qorxulu sıxıntının kabusundan savayı heç nə qalmırdı...

Gəlib-gedən adamların bəzisinin davranışları üzərində alçaqlıq, nifrət və cansıxıcı təkrar əks olunan güzgülərdən başqa heç nəyə bənzəmirdi...

Onun həyatında nə isə bir şey çatışmırdı... Özünün də bilmədiyi... Bədəndə ruha bənzər bir şey. Bəs nədir o?

O, kitablar oxuyur, musiqi dinləyir, gəzintiyə çıxır, teatrlara gedir, səhərlər iki saat nəfəsi yetincə qaçır, aradabir namaz də qılırdı, lakin həmin ruha nail ola bilmirdi ki bilmirdi... O ruh ki, dodaqlara təbəssüm qondurub, həyat eşqi bəxş edir; o eşq ki, bədənin bütün üzvlərinə, hətta barmaq uclarınadək sirayət edir...

Günəş şüaları onun bağlı qəlbinin qapılarını döyür, soyuqdan donmuş ruhuna yol tapa bilmirdi. Tənhalığa çəkilmişdi... Bir bürcün içərisində, həyatın səs-sorağı gəlib çatmayan hasarlanmış bir qalada yaşayırdı.

Qönçələrini sübhün şüası ilə açıb, günəşin doğduğu istiqamətə çevirən bir qızılgülün sahib olduğu şeyə də sahib deyildi... Bu gül öz balaca vücudu ilə onu cavablandırırdı; onun təbəssümünə təbəssümlə, parıltısına parıltı ilə, davranışlarına da zərif və gözəl bir eyhamla cavab verirdi... O isə gülə heç bir cavab vermirdi... Hər şeyə inamını itirmişdi artıq. Bütün dəyərlərə, var olan hər şeyə şübhə etməyə başlamışdı... Həyat da onun gözündə bir məna kəsb etmirdi daha... Çünki həyat azadlıqdan bir əsər belə olmayan qaçılmaz müqəddərat və hadisələr toplusundan ibarət idi. O hadisələr ki, qaçılmaz olduğu üçün baş verir... Buna görə də nə onun mövcudluğunun bir hikməti, nə də sevincinin, kədərinin, gülüşünün, ağlamağının, tənha bir həyatı, tək bir sonluğu təkrarlamaq üçün doğulmağının, doğmağının, artmağının mənası vardır.

Bununla belə, öz şübhələrinə də şübhə ilə yanaşırdı. Çırpınmaqdan savayı bir şey edə bilmir, öz qəm-qüssəsindən yaxa qurtara bilmirdi. Bunlar sıxıntıdan ibarət kabusla onun üzərinə çöküb, onu və düşüncələrini darmadağın edirdi...

Təkcə bir şeyin olması qaçılmaz idi... Sıxıntı onun axırına çıxacaqdı...

***

Bu, əsl təcrübədir... İnsan qumar oynadıqda... Bitməyən suallar, gözləntilər, təqibetmələr, ümid, ümidsizlik və sürprizlər içərisində yaşadıqda... Onda heç nə heç vaxt təkrarlanmır...

Bu, doğrudan da, nəfəs kəsən bir təcrübədir...

***

Beləliklə, o, sıxıntı ilə birgə özünü də öldürməyə başladı.

Siqaret tüstüsü ilə dolu, qapalı bir otaqda uzun və çopur sifətli bir kişinin yanında əyləşmişdi. Onların qarşısında arıq və çəlimsiz bir kişi vardı... Kartlar fırlanır... Siqaret tüstüsü barmaqlar arasından yuxarı qalxırdı. Pul gah yığılır, gah da yoxa çıxırdı... Şansları ağızlardan çıxan sözlərdən asılı idi... Heç kim öz taleyi haqda qabaqcadan danışa bilmirdi... Sözlər təkcə bir dairə ətrafında dövr edirdi... Nə qazanc, nə də itki barədə bir qanun qoya bilirdilər... Bu yalnız bəxtdən və məchul bir gücdən asılı idi... O güc ki, keçmişi, indini və gələcəyi kartların içərisində kiçildir... Həd-siz-hesabsız maraq hissinin şölələndirdiyi bu insan tör-töküntüsü isə pusquda dayanmışdı...

Tək-tük eşidilən sözlər sükutu pozurdu... Çopursifət kişi stolun üstünü döyürdü... Sükut yenidən geri qayıdırdı; hamı susurdu, yalnız fırlanan kartların xışıltısı eşidilirdi... Pul isə gedib-gəlirdi...

***

Bu, doğrudan da, bir təcrübədir...

O, sıxıntını, həqiqətən də, öldürdü. Lakin gücsüzlük və uğursuzluqdan ibarət olan çox bahalı bir silahla. Hər an öz sərvətindən, ağlından və sağlamlığından bir qədər ayırırdı ki, sonda onları maraqlı gələcək bir ana çevirsin... Sanki paltarlarını, portmanatını və ailəsini dənizə atan bir şəxs kimi idi; bütün bunlardan sonra dənizə baxanda sıxıntı doğurmayan bir həyəcan yaşasın deyə...

Nəticədə iflasa uğradığını hiss etdi... Hiss etdi ki, sevinci də, kədəri də dilənir, sürprizləri uydurub, duyğuları saxtalaşdırır. Bu yeni etiraf onun müvəffəqiyyət qazandığı təcrübəsinin üzərinə narahatlıqdan, şübhədən ibarət şəffaf bir pərdə endirdi və günlər keçdikcə bu pərdəni ümidsizlikdən ibarət qalın bir divara çevirməyə başladı...

Bununla belə, o, qumar oynamaqda davam edir, ürəyinə yol tapıb, onu daşlaşdırmış ümidsizliyin caynağından qaçaraq israr və inadla özünü müdafiə edirdi... Nə qazananda sevinir, nə də itirəndə pis olurdu. Sürprizlər qarşısında tükü belə tərpənmir, şansların dəyişkəniyinə heç bir əhəmiyyət vermirdi... Qanı donmuş... Ölü və səfeh bir ürəyə çevrilmişdi...

Sonunda təcrübə puç oldu, maraqlar öldü, yenilər köhnəldi, yeniliklər isə adətə çevrildi...

Kart oyunu insan həyatını əvəz etmir... Əldə etdiklərin və itirdiklərin qarşısında ürəyin həyəcanlanmır. Onun arzuladığı varlıq səadəti isə bu idi... Necə ki yerdə diyirlənən qarqaraya – balaca içi boş bir qarqaraya rast gəlincə sevincdən həyəcanlanan, vücudu başdan-ayağa titrəyən uşaq kimi...

Tapmaca hələ də cavabsız qalır. Problem hələ də öz yerindədir... Hələ də onun həyatı bilmədiyi bir şeydən məhrum qalıb... Bu, kart oyunundan da fərqli bir şeydir...

***

Köhnə maşınını saxlayıb, düşməyə hazırlaşdı, it hürdü, qoca qapıçı əsnəyə-əsnəyə qalxıb təzim etdi, xırda daşlarla sıx-sıx döşənmiş dəhlizlə getdi, beş pilləkən qalxıb, zəngi basdı. Dazbaş xidmətçi göründü... Həmin dazbaş xidmətçi... Qapını açıb, yataq otağının işığını yandırdı... Eyni ardıcıllıqla mebelin ayrı-ayrı hissələrinə toxundu... "Şam yeməyi hazırdır", – dedi... Sonra arvadı oyanıb, adəti üzrə dedi ki, o, yatmağa gecikib və yuxusuzluq onun səhhətinə təsir göstərəcək...

Bu dəfə az qala əsəblərini cilovlaya bilmirdi. Arvadı onun qışqırığını heç cür başa düşə bilmədi... Çünki heç bir günah işlətməmişdi... O isə istərdi ki, arvadı bir günah işlətmiş olsun, təki hər gün alnına yazılmış bu lənət dəyişilsin. Güzgünün qarşısına keçib, uzun-uzadı dayanıb özünə baxdı...

Gördü ki, dırnaqları uzanıb... Saçları da yaxşı qırxılmayıb... Hiss etdi ki, ayaqqabısı da dardır... Ürəyi sıxıldı... O boyda otaq ona iynə deşiyindən də dar gəlirdi... Bu genişlikdə dünya isə nəfəs kəsən qaranlıq və rütubətli bir qəbir kimidir...

Aşpazın evin hər tərəfinə yayılan gülüş səslərini eşitdi, onun arvadına deyirdi:

– Kibrit qutusunu axtarırdım, bir də nə görsəm, yaxşıdı, əlimdə imiş... Qəribədir, hə?

Sonra arvadının da bu qəhqəhəli gülüşə qoşulduğunu eşitdi. O da aşpaza deyirdi ki, sən "sərxoş"san, gün gələr, uşaqlarını da unudarsan...

Bu sadəlövhlərin belə boş şeylərə necə gülə bilmələrinə təəccüb edib, qaranlıqda pəncərədən uzaqda görünən minarəyə, ətrafa, qurbağalar tərəfə və dəyirmana baxırdı... Çox keçmədi ki, paltosunu geyib çıxdı... Bu dəfə maşınsız, piyada, heç bir şey düşünmədən qaranlıq gecədə dolaşmağa çıxdı.

Bəlkə də, özündən xəbərsiz neçə mil, neçə kvartal qət etmişdi. Öz ruhunun dərinliklərinə dalıb getmişdi... Dağınıq fikirlər, xatirələr onu əhatə edir, ayaqlarının hara getdiyini, ətrafında nəyin dolaşdığını da bilmirdi... Nə fikirləşdiyini soruşsa idilər... Mütləq cavab verərdi ki... Heç bir şey... Zehnində müəyyən bir şey yox idi... Bu, arxasınca boşluqla dolu hisslər qoyub gedən və bir-birilə əlaqəsiz surətlərin, duyğuların uçurumu idi...

Bir qədər dolaşmışdı ki, qırmızı lampaları, torpaq topaları, xəndəklər, qazıntı alətləri, borular və kəndirlər olan bir küçəyə gəlib çıxdı... Bir neçə fəhlə ocağın ətrafına toplaşmışdı. Boş-boş danışır, bir qədər çörək dişləyib, bir qurtum qara çay içirdilər...

Onların söhbətlərinə bir qədər qulaq kəsilmək istədi... Ağacın gövdəsinə söykənib papirosunu yandırdı. Bu insanları çərçivə kimi əhatə edən siqaret tüstüsünün arasından onlara tamaşa edərək fikrə qərq oldu.

Söhbət edən kişinin ağzında bircə dişi olan, qalın bığlı, qırışlarla dolu və almacığı üzə çıxmış bir çöhrəsi vardı. Qarşısındakı arıq gəncə üz tutub, danışırdı... Qalanları da çörək yeyib, çay içə-içə onu dinləyirdilər...

Əlini havada yelləyib dedi:

– And olsun o böyük Allaha, oğurluğu bacarsaydım, mütləq oğurluq edərdim. Heç olmasa birimiz ağ günə çıxardı.

Bir salavat de, a kişi... Bir salavat de... Allahın lütfü sayəsində yaşayıb, yeyib-içirsən... Oğurluğa da ehtiyacın yoxdur... Bu nə sözdür?!

– Hə, yeyirəm, düzdü... İt də yeyir... Yer üzündə hər məxluqun öz ruzisi var... Lakin mən insanam... Mənim bütün həyatım yeyib-içməkdən ibarət deyil axı... Mənim oğlum var... İstərmirəm ki, oğlum da yer qazsın, mənim kimi arx qazıb, asfalt çəksin. Yetmiş ildir ki, heç bir qarşılıq görmədən əzab-əziyyət çəkirəm... Heç bir həzzi, ümidi olmayan bir həyat yaşayıram... Yerə vurduğum külüngün daha yaxşı bir həyat üçün olduğunu, alın tərimin əbəs olmadığını bilmək istəyirəm... Oğlumun bilikli olmasını, oxuyub-yaza bilməsini və mənim kimi torpaq üstündə oturmamasını istəyirəm... Mənim kimilərə belə şeylər arzulamaq haramdır məgər?

Yenidən əlini yelləməyə başladı... Gözləri şövqlə alışıb-yanırdı; bu gözlərdə onlarla istək, arzu sezilirdi...

– Kim deyir ki, haramdır?! Allahın mərhəmətinə ümid bəsləmək vacibdir. Biz hamımız ümidlə yaşayırıq... Ümidlərimiz həyata keçəcək, övladlarımız da istədiyimiz kimi yaşayacaqlar.

– Bu necə olacaq?! Bu dövrdə möcüzələr baş vermir. Ömür qısadır, əmican... Qocalıb əldən düşmüşəm, kürəyim əyilib, dünyada sayılı günlərim qalıb... Bu faciə yenə təkrarlanacaq, övladlarım da, nəvələrim də mənim kimi yaşayacaqlar.

Bir anlıq susdu. Başını əlləri arasına aldı. Sonra birdən gözlərini qaldırıb, həmsöhbətinin çiynindən

yapışaraq sərt şəkildə onu silkələməyə başladı. Kobudcasına mırıldanır, gözlərindən yaş axırdı:

Mən yaşamaq istəyirəm, bir on il də yaşamaq istəyirəm... Övladlarımı böyütmək üçün on il də... Başa düşürsən?

Yaşayacaqsan, əmi... Hamımızı basdırana kimi yaşayacaqsan.

Sizi basdıracam... Doğrudan da, xoş xəbərdir.

Bu xəbər, doğrudan da, onu sevindirmişdi... Onların hamısını öz əlləri ilə basdıracaq... Gözlərini boşluğa zillədi... onlar sonsuz ümidlə parıldayırdı. Bu vaxt bir neçə səs eyni anda səsləndi:

– İraq olsun!

Dodaqlar çay stəkanına tərəf uzandı. Bəzisi gülümsəyir, bəzisi gülürdü, bəzisi də xəyala dalmışdı... Ayrıca bir küncdə iki nəfər oturub sakitcə söhbət edərək pıçıldaşırdılar. Çox keçmədən bu pıçıltı səs-küylü qışqırığa, sonra da davaya çevrildi... Bir-birinin yaxasından yapışıb qışqırışdılar:

– On qəpik e, ay insan... Onca qəpik...

Eyni anda bir neçə adam ayağa qalxıb, bu qışqırığı və qarışıq sözləri eşitdilər.

– Səbirli ol, ay Xəlil. Siz Allah, tövbələr olsun, ay camaat... Abrınız-həyanız olsun özünü yığışdır... Kəs səsini, ə... Lənət sənə, kor şeytan... Günah məndədir ki, borc pul vermişəm... Köpək oğluyam, onu dindirsəm... Allah keçsin günahından... Yaxşı deyiblər, qurunun oduna yaş da yanar... Ayıbdır, a kişi, biz qardaşıq axı. Belə olmaz e. Ay Xəlil, gəl geri qayıt, heç kimi bəyənmirsən, ay qardaş... əlini çək...

Lakin amansız əli qarşısındakı rəqibinin üzünə şillə vurmaq üçün ona hücum çəkdi, dırnaqları ilə onu cırmaqlamağa başladı. Cırmaqların buraxdığı uzun yaralardan qan axırdı.

O qışqırır, əlləri ilə özünü müdafiə etməyə çalışırdı... Şillələr bir-birinin ardınca gəldi, sonra sakitlik çökdü və bir neçə nəfərdən ibarət bu insan kütləsi dağılışıb, getdi. Hər biri üst-başını düzəldə-düzəldə söyüş söyür, lənət yağdırır və yerə tüpürürdü...

Ağzında bircə dişi qalmış qoca deyinərək dedi:

– Biz ki duz-çörək kəsmişdik, ay camaat... bu da dostluğumuzun axırı. Xəlil, sən də qardaşına əl qaldırırsan?

Xəlilin deməyə sözü yox idi. Torpaq təpəciyinin üzərində yalqız oturub, gözlərini ocağa zilləmişdi. Ocaq da yanıb, qırmızı qığılcımları parlayan közə dönmüşdü... Qoca ilə birgə hamı danışırdı. Xəlil isə hələ də susurdu. Ona elə gəlirdi ki, alovun çırtıltısından savayı heç nə eşitmir... Xeyli vaxt keçdi... Üzünün ifadəsi dəyişmiş, cizgiləri zəifləmişdi... Sonda bir də gördü ki, çirkli dəsmalını boğazından açıb, rəqibinə tərəf gedərək onun yarasını sarıyır.

İkisi də ağlamağa başladı...

***

Ağac kötüyünə söykənmiş kişi artıq onuncu siqaretini yandırmışdı. O da gözlərini ocağa zilləyib, onu dinləməyə çalışırdı. Ocaq çırthaçırtla sönürdü. Ətrafına isə məzlum çöhrələr toplanmışdı... Elə bil başqa dünyanın məxluqları idilər; onları ilk dəfə idi ki, görürdü.

Bayaqdan bəri dalaşan o iki nəfər altdan-altdan baxırdı. Bir-birilə qol-boyun olmuşdular... İnsan zəifliyi və onun acizliyinin susqun ifadəsi olaraq belləri əyilmişdi. Mis rəngli ocaq çöhrələri üzərində parlayır, yanaqlarından göz yaşları axırdı.

Ona elə gəldi ki, insan kədərinin həqiqi təsvirini ilk dəfədir görür...

Geri qayıtmaq üçün çevriləndə də qəlbinin bağlı qapılarını açan bu təsviri silə bilmədi... Həbs olunmuş duyğular indi tuyğan edirdi.

Nə kədərlənən qəlbinə, nə də öz zindanında həbs olunmuş ruhuna mane ola bilirdi. Onun yolunu kəsir, qaranlığın qatlarından çıxıb, ona tərəf gəlirdilər. Onların hər birinin əlində isə mis rəngli işıq selində üzən fənər vardı.

Evə qayıdanda nə ayağa qalxıb əsnəyə-əsnəyə ona təzim edən qapıçıya fikir verdi, nə itin hürməsini, nə də ayaqları altındakı xırda daşların taqqıltısını eşitdi... Zəngin səsinə cavab verən dazbaş xidmətçini belə görmədi... Qulaqları bir dişli qoca kişinin ağzından çıxan inilti ilə cingildəyirdi:

– Mənim oğlum var... İstəmirəm ki, oğlum da yer qazsın, mənim kimi arx qazıb, asfalt çəksin, qır daşısın. Yetmiş ildir ki, heç bir qarşılıq görmədən əzab-əziyyət çəkirəm... Heç bir həzzi, ümidi olmayan bir həyat yaşayıram... Yerə vurduğum külüngün daha yaxşı bir həyat üçün olduğunu, alın tərimin əbəs olmadığını bilmək istəyirəm. Oğlumun bilikli olmasını, oxuyub-yaza bilməsini və mənim kimi torpaq üstündə oturmamasını istəyirəm. Bir on il də yaşamaq istəyirəm, övladlarımı böyütmək üçün on il də...

Mən yaşamaq istəyirəm... Lakin bu kişi yaşamaq istəməklə yanaşı, daha bir on il kasıblıq, aclıq, bədbəxtlik və uğursuzluq istəyirdi... Çünki həyat nə ipəkdir, nə şərabdır, nə də qadın... Həyatın sirri ondadır ki, bir məqsəd uğrunda sərf olunsun.

Bu da onun həyatında çatışmayan həmin məchul şeydir.

Tərcümə edən:
Lalə Əliquliyeva

Kəmaləddin QƏDİM

KİMSƏ UNUDUB GEDİB...

Kimi itirmişəm mən,
Könlüm kimin yasında?
Vaxtın bir küncündəyəm,
Ömrün astanasında...
Nə təhər Kərəməm ki,
Nə Əslim, nə Lələm var?
Nə "ithürən" görünür,
Nə də "işıqgələn" var...
Ovu əlindən çıxan
Ovçuya bənzəyirəm.
Çən-dumanda yol azan
Yolçuya bənzəyirəm.
Nə məscid haya yetir,
Nə dada kilsə gəlir.
Unutmuşam nə varsa,
Yadıma kimsə gəlmir...
Əlac, çarə at üstdə,
Dərdim piyada qalıb.
Əl açmışam Allaha,
Əlim havada qalıb...
Yapışmağa ətək yox,
Əl yoxdu, tutub gedim.
Məni yolayrıcında
Kimsə unudub gedib...

ÖZÜMƏ

Təzə dərd gətirəcək,
təzə şeir gözləmə.
Zərər verirəm ancaq,
məndən xeyir gözləmə.
Tutub əlindən, canım,
qaçırım hara səni?
Qorxuram göz yaşlarım
yuyub apara səni.
Üzə də bilməyirsən,
get, Allah yarın olsun.
Kağızdan gəmi düzəlt,
qələm avarın olsun...

YAMAN TANIŞ GƏLİR BU KÜLƏK MƏNƏ

Qəlbimdə yeri var, izi var kimi,
Yaman tanış gəlir bu külək mənə.
Əsir, elə əsir sözü var kimi,
Deyəsən, nə isə deyəcək mənə...
Bəyaz saçlarımı oxşayan nəyi,
Nəyi doğma gəlir, çaşıb qalmışam...
Elə bil nə vaxtsa mən bu küləyi
göylərə əlimlə yola salmışam.

Yəqin, yeri gəlib, yeri qayıdıb,
Hazır kətilimdi, hazır darımdı.
Olmaya göylərdən geri qayıdıb
üzümə çırpılan dualarımdı?..

ÖZÜMÜ ÖLMÜŞ BİLİRDİM

İçimə sığmıram daha,
Daha dışıma çıxıram.
Huşumdan çıxıram, gedib
yenə huşuma çıxıram.
Nə var çəkirəm naz deyə,
Ömür az, zaman az deyə,
Dil-dil ötürəm yaz deyə,
Gəlib qışıma çıxıram.
Çox bəxtiyeyin olmuşam,
Səmanın, göyün olmuşam.
Yaman ərköyün olmuşam,
Tez-tez başıma çıxıram.
Bu necə külmüş, bilirdim,
Başa tökülmüş, bilirdim.
Özümü ölmüş bilirdim,
Hərdən qarşıma çıxıram...

MƏNİ BU DÜNYANIN GÖZÜ GÖTÜRMÜR

Canım hər alova, hər oda yanmır,
Canım hər atəşi, közü götürmür.
Hər sözün başına dönüb, dolanır,
Ölür sözdən yana, sözü götürmür.
Sehr nazı çəkir, sirr nazı çəkir,
Ocaq nazı çəkir, pir nazı çəkir.
Sevir bir gözəli, bir nazı çəkir,
Götürmür, hər işvə-nazı götürmür.
Yoxdu Tanrının da işi bəriylə,
Məşğuldu elə öz dərd-səriylə.
Hər gün danışıram mələkləriylə,
Hələ ki dəstəyi özü götürmür...
Elə yol üstəyəm, qalmıram deyə,
Nəfsinə qərq olub, dalmıram deyə,
Almıram, vecimə almıram deyə,
Məni bu dünyanın gözü götürmür...

ƏFƏNDİM

Neynəyirsən, çoxunun isti keçmir canına,
Çoxunun da canından isti çıxmır, əfəndim.
Qulaqlar nələr çalır, nələr gəzir dillərdə...
Od olmayan yerlərdən tüstü çıxmır, əfəndim.
Bilinmir nəyi nədi, kimi kimdi, bilinmir,
Suçlu kim, cəzalı kim, kim hakimdi, bilinmir.
İçlərdəki bu necə qəzəb, kindi, bilinmir,
Bu necə hay-haraydı, səsdi, çıxmır, əfəndim?..
Ulaq qaldı ulağı, dəyişsə də palanın,
Uzandı, ömrü yaman uzun oldu yalanın.
Yaddaşlara həkk olub, ürəklərdə qalanın
ha yonursan, heykəli, büstü çıxmır, əfəndim.
Təkcə ha gül, ha şadlan, kef-damağın saz olmur,
Bilirsən, bir çiçəklə, bir gülünən yaz olmur.

Qırx var, uzağı il var, bir ömürlük yas olmur,
Bəs bu necə hüzndü, yasdı, çıxmır, əfəndim?
Hələ ocaq ocağın, pir pirinin təkrarı,
Elə ölən ölənin, sağ dirinin təkrarı,
Bir-birinin eynidi, bir-birinin təkrarı;
Adamın zayı çıxır, dostu çıxmır, əfəndim...

BURDAN AYRILIQ KEÇİB...

Bu yerin tənhasıtək,
təki kimi tək yoxdu,
Çiçəyinin üstündə
arı var, pətək yoxdu.
Yapışmağa bir yaxa,
tutmağa ətək yoxdu –
Burdan ayrılıq keçib...
Nə gündədi ev-eşik,
nə gündədi çöl-bayır,
keçib sən saydığından,
fələk saydığın sayır.
Ürək xaraba qalıb,
üstdə bayquş ulayır –
Burdan ayrılıq keçib...
Həyətdəki quyunun
yaman bulanıb suyu,
Bağlı qapının üstdə
hörümçək tor toxuyur.
Dörd yan sarılıq tutub,
dörd yan payız qoxuyur –
Burdan ayrılıq keçib...
Çox da ki ocaq sönüb,
kül altda közü qalıb,
İtibdi al-əlvanı,
rənglərin bozu qalıb.
Başda dumanı, bir də
udmağa tozu qalıb –
Burdan ayrılıq keçib...
Yoçusunu itirib
arzuların yolları,
Elə uzalı qalıb
istəklərin qolları.
Bardaş qurub dərd- qoca,
yanında həsrət-qarı –
Burdan ayrılıq keçib...

KİMƏSƏ KÖLGƏM DÜŞƏCƏK

Ha çək bu görkəmdə məni,
Ha çək, bu görkəm düşəcək;
Sən təbəssüm çəkəcəksən,
Yerinə dərd-qəm düşəcək.
Başa duman, çən qonacaq,
Saça ağ-ağ dən qonacaq.
Kirpiyimdə yaş donacaq,
Gözlərimdə nəm düşəcək.
Mən dərbədər, para-para,
Mən hara, bu şəkil hara...
Çəkmə, yenə günüm qara,
Bəxtim yenə kəm düşəcək.
Ya dəymə gerçək yerimə,
Ya bir ağac ək yerimə.
Bir başdaşı çək yerimə,
Kiməsə kölgəm düşəcək...

GƏZƏSƏN ÖZÜNÜ BİR ÖMÜR BOYU...

Qala əllərində canın bu bəxtin,
Nə ötə yan ala, nə bəri çıxa.
Ölə bilməyəsən, ölmək istəsən,
Yaşamaq istəyin dəbərib çıxa...
Gözlərin umduğun yerdən yığıla,
Ümidin ən hündür yerdən yıxıla.

Bir yuxun yol ala uşaqlığına,
Önünə qonşunun çəpəri çıxa...
Sevəsən, təzədən düşəsən tora,
Gəzə ayaqların, yolları yora.
Qarşına bir daha o qızdan sonra
nə huri rast gələ, nə pəri çıxa...
Ağrının-acının üstə gedəsən,
Bir az asta gedib, usta gedəsən.
Üz tutub bir sadiq dosta gedəsən,
Onun da bir qəfil səfəri çıxa...
Elə Vətən adlı yer ömür boyu,
qala səndən yana sirr ömür boyu.
Gəzəsən özünü bir ömür boyu,
Nə öldü, nə qaldı xəbəri çıxa...

UZAĞI SEÇMƏK OLMUR...

Asanca gəlsək belə,
Dünyadı, köçmək olmur.
...Bir ayıb minməkdisə,
Bir ayıb düşmək, olmur...
Var açarı, kilidi,
Dirisənsə, diridi.
Dərdi övlad kimidi,
Çəkilir, keçmək olmur...
Öyüb vaxtı deyirlər,
Tacı, taxtı deyirlər.
Bax bu, haqdı, deyirlər,
Yanımda çeşmək olmur...
Yaman bahadı kirəm,
Sözlərdən ev tikirəm.
Mən elə gecikirəm,
Mənə görüşmək olmur...
Hələ həmin baxtdayam,
Fanidə, nahaqdayam.
Gözlərdən uzaqdayam,
Uzağı seçmək olmur...

KƏTİLİN DANIŞIR, DARIN DANIŞIR...

Həzin yağışının həzin dili var,
Narın qarın elə narın danışır.
Nəfəsin dili var, səsin dili var,
Danışır, İlahi, lalın danışır...
Yaxşılı-yamanlı ömür-gün busa,
Bu qədər fanisə, bu qədər qısa...
Təntiyir, yerisə, darıxır, dursa,
Qocan gileylənir, qarın danışır...
Bax da nə gündədi, nə gündə, şirə,
Qənimdi çaqqalın, tülkün də şirə.
Nə dəndə dənlik var, nə güldə şirə,
Qarışqan dil açır, arın danışır...
Kim tacın bəzəyi, ya da tac kimin,
Kimi hara çəkir ehtiyac, kimi?..
Çıxarmır səsini acın ac kimi,
Harının hələ də harın danışır...
Var nəyin istəsən, yolu hardasa,
Dil tapsan, danışar külü hardasa.
Susursa ürəyin dili hardasa,
Orda boğaz dinir, qarın danışır...
...Mən də ki birtəhər baş saxlayıram,
Könlümü bir azca xoş saxlayıram,
Aylardı, illərdi boş saxlayıram,
Kətilin danışır, darın danışır...

GÖYDƏ TUTASAN...

Sözünü bu qədir-qiymətdə, canım,
Adını bu kökdə, soyda tutasan.
Özünü bir ömür bu ucalıqda,
Elə bu qamətdə, boyda tutasan...

Keçsən də, keçəsən başa başınnan,
Paşa ürəyinnən, paşa başınnan,
Sevincin o qədər aşa başınnan,
Qonuma-qonşuya pay da tutasan...

Sevəsən, gələsən xoşuna hərdən,
Dönüb dolanasan başına hərdən,
Baxmayıb gözünün yaşına hərdən
Özünə divan da, toy da tutasan...

Beləmi fərqliymiş həyat şəhərdə,
Üzü bər-bəzəkli boyat şəhərdə...
İtirib özünü bu yad şəhərdə
Gedəsən dosdoğma köydə tutasan...

İçinin bəhrəsin, barın dərəsən,
Beş-on kitab ola vərin-vərəsən.
Kimləri qoruyur kimdən, görəsən,
Kiminçün bu qanun, qayda, tutasan...

Bir şey ki gözünə təpilir yalan,
Bir şey ki boşuna tapdanır palan,
Hələ nə çalır ki bu zurnaçalan,
Durub bu zurnaya züy də tutasan?..

Nə deyim fələyi... Deyə bilmədim,
Boş durmur ələyi, deyə bilmədim.
Nəyi dedim, nəyi deyə bilmədim-
Gərək arif olub göydə tutasan...

Şəhriyar TƏYYAROĞLU

ÇAĞIRILMAMIŞ QONAQ

Kəlbiyev təzə aldığı avtomobilindən düşüb oğrun-oğrun sağa-sola boylandı. Ətrafda heç kimin olmadığını dəqiqləşdirib arxa qapını açdı, iri əl çantasını götürdü. Timsah dərisindən olan bahalı çantası ilə pillələri ürəyi əsə-əsə qalxdı. Tez özünü kabinet kimi hazırlatdığı otağına salıb dərindən nəfəs aldı. Sanki üstündən ağır yük götürmüşdülər. Çantanı fıstıq ağacından hazırlanan stolun üstünə qoyub, tülkü xəzindən yaxalığı olan paltosunu soyundu. Şapkasını çıxarıb çallaşan başını əlləri ilə ovuşdurdu. Rahatlaşan Kəlbiyev dərhal böyük həvəslə çantasını açdı. Çantadakı pulları ikiəlli çıxarıb stolun üstünə tökdü. Rezinlə bükülmüş, kənarları ülgüc kimi iti, şaxı açılmamış pullar şappıltı ilə masanın üstünə düşürdü. Kəlbiyev çantanın boşaldığını görüb ovqatı təlx oldusa da, üzünü gözlərini qamaşdıran pullara zillədi. Kefi kökəldi zümzümə etməyə başladı: "Başına dönüm pulların, qadasın alım bunların". Dəstələnmiş pulları qucaqlayıb öpən Kəlbiyev arvadının içəri girdiyini, baxdığını heç hiss etmədi də. Ərini sevincək uşaq kimi görən arvadı Sənubər dedi: "Başıma xeyir, ay kişi, dəli olmusan, nədi? İçkilisən günün gündüz vaxtı?"

Yalnız indi otaqda kiminsə olduğunu bilən Kəlbiyev ovçu görmüş maral kimi ürkdü. Kreslosuna tərəf yönəldi. Ürəkbulandıran əlləri ilə (dəri xəstəliyindən əziyyət çəkirdi) milçəyi xatırladan hərəkətini etdi (ala-bula əllərini bir-birinə möhkəm sürtdü). Əyləşib öz sevimli məşğuliyyətinə başladı. Şəhadət və baş barmağını ağzının suyu ilə isladıb təsbeh çevirirmiş kimi pulları saymağa başladı. Həyatda ən sevdiyi dəqiqələr idi. Sanki gözlərinə işıq, qollarına güc, ürəyinə fərəh gəlirdi. Arvadın hələ getməməyi, ona sarı baxmağı narahatlığa səbəb olurdu. Sənubər isə hələ ki susurdu. Kəlbiyev Sənubərin sözlü olduğunu hiss etdi. Ona elə gəldi ki, arvad yenə də qohum-əqrəbaları üçün nəsə istəyəcək. Otaqda sakitlik hökm sürürdü. Təkcə qiymətli kağızlar asta səslə "xor" oxuyurdu. Kəlbiyev əlindəki dəstəni sayıb qurtarıb onları susdurdu:

– Rus Allahı kimi çox ayaq üstdə qalacaxsan? De görək nə olub?

Sənubər səsinin ağıllı yerinə salıb qorxa-qorxa cavab verdi:

– Ay kişi, sözüm var e sənə. Bir qulaq ver, gör nə deyirəm.

Kəlbiyev qadına ötəri baxdı, səsinin ahəngi mövzunun cansıxıcı olacağını deyirdi.

– Ay kişi, deyirəm, bəlkə, bu zəhrimarı tərgidəsən, – qadın yüngülvari xahiş etdi.

Kəlbiyev qadını düz başa düşmədi. Ona elə gəldi ki, içkiyə eyham vurur. Çünki son vaxtlar əri içkiyə yaman qurşanmışdı, evə qutu-qutu, növbənöv içkilər (konyak, likör, viski və s.) alırdı. İstədi desin ki, heç hənanın yeridi? Görürsən ki, pul sayıram. Arvad kişinin dinmədiyini görüb bir az da ürəkləndi:

– Vallah, ciddi deyirəm. Mən daha qorxuram. Qorxuram ki, bu bəla bir gün başımıza oyun açar, olan-qalan mal-dövlətimiz, şan-şöhrətimiz – hamısı əlimizdən çıxar.

Bu dəfə Kəlbiyev arvada göz ağardıb aşağıdan yuxarı süzdü.

– Sənləyəm, a başına dönüm. Bu işin sonu pisdi, deyim, biləsən.

Kəlbiyev arvadın əl çəkmədiyini görüb sözü dəyişdi. Zarafat edirmiş kimi dedi:

– Arvad, de görüm ən sevdiyin rəng hansıdı?

Bu dəfə Sənubər dinmədi.

– Bax, mənimki bu rəng, – (Əlindəki amerikan dollarını göstərib gülümsədi). – Baxanda sakitləşirəm, ürəyim açılır, kefim durulur, yüngülləşirəm. Özümü indicə doğulmuş körpə kimi hiss edirəm.

– Ay kişi, bəsdi, sən Allah, zarafata salma. Zarafat vaxtı deyil.

– Kim dedi zarafat edirəm, tam ciddiyəm.

Kələntər ikinci cəhdini elədi. Bu dəfə pulların üstündəki Franklini göstərib:

– Bu kişini tanıyırsanmı? Mənim ulu babamdı- Bünyamin kişi. Allah sənə rəhmət eləsin, ay baba. Kişinin şəklini böyüdüb divardan asam gərək, – dedi.

– Bəsdi, qurtar, ay kişi. Az məni ələ sal. Elə o gorbagora görə nə gözün görür, nə qulağın eşidir. Yaxşı, mənə inanmırsan, televizoradamı baxmırsan? Qəzetdəmi oxumursan? Radioya necə? Ona ki maşında qulaq asırsan.

– Niyə oxumuram? Kaneşna, oxuyuram. O gün qəzetdə oxuyuram ki, pul saymaq sağlamlığa xeyirdi. Sakitləşdirir, əsəbləri qoruyur, stressi azaldır, dözümü artırır, əhvalı qaldırır, qan dövranını yaxşılaşdırır e. Karoçi, min bir dərdin dərmanıdı da bu qadasın aldığlarım. Kim bunu kəşf edibsə, əhsən ona!

– Mən sənə deyirəm ki, bu zəhrimarı daha alma. Tərgit bu rüşvəti. Pis-yaxşı bu qədər işləmisən, ad qazanmısan, pul qazanmısan. Nəyimiz çatmır, a kişi? Canımız-başımız sağ, damağımız çağ. Yığdığlarımız nəvəmizin nəvəsinə də bəsdir. Başına dönüm, a kişi, nə qədər tezdi, gəl qayıt bu yoldan. Bizi bədnam, üzüqara eləmə. Bu yol bizi uçuruma aparır. Bir az iradəli ol, qurban olum, heç kimdən istəmə, verəndə götürmə.

Arvaddan bu sözləri gözləməyən Kəlbiyevin başına sanki qaynar su tökdülər. Beynindən od çıxdı. Gözləri qaraldı. Arvad onun bayaqkı şən əhvali-ruhiyyəsini bir dəqiqənin içində yerlə yeksan eləmişdi. Otuz il olardı ki, bir yastığa baş qoyurdular, amma arvad kişini hələ belə əsəbiləşdirməmişdi. Cavab verməyə macal tapmamış Sənubər növbəti həmləsini etdi:

– Görmürsən, maskalı yekəpərlər çağırılmamış qonaq kimi kalistoklu oğruları necə aparır?

Kəlbiyev qalstukunun düyününü boşaldıb, arvadın sözlərini yavaş-yavaş həzm edib udqundu. Özündə güc tapan kimi əsən əlini stola möhkəm çırpdı:

– Bəsdi!!! Baş-qulağımı aparma! Olmayan ağlınla mənə yol göstərmə! Arvadsan, otur yerində. Mənim işlərimə burnunu soxma! Mən bilirəm neyliyirəm.

– Əsəbiləşmə, sən Allah. Mən nə dedim ki, belə acığın tutur? Axı nə qədər adamın haqqı, fikri var o pullarda. Bir belə günahla necə yaşamaq olar? Vay o gündən, bu fağırların qarğışı, nifrini axırımıza çıxa. Vallah, bir gün ayağa qalxsalar, qabağında dura bilməyəcəyiy. Eşitməmisən ki, el bir olsa, zərbi kərən sındırar. Gəl nə qədər gec deyil, üzüsulu ərizəvi yaz, işdən çıx. Qoy ömrümüzün sonunu sakit yaşayaq.

– Yaxşı, yaxşı, leksiya danışma! Öz işinnən məşğul ol! Bəlkə, səni vəkil seçiblər, xəbərimiz yox. Əvvəla, indi hamı şirin yuxudadı, çətin oyansınlar. İkincisi, bunlar dözümlüdü, heç kim səsini çıxaran deyil. Üçüncüsü də ki, ay axmaq, camaat fağır-zad deyil! Korsan? Görmürsən? Bir ətrafa bax da! Hamıda pasledni madel telefon, maşın. Gəl bax pəncərədən, yaxşı bax! (Ayağa durub pərdəni çəkir) Bir dənə kasıb-kusub evi

gözünə dəyirmi? Yox! Görmədin keçən aylarda, bir dənə telefondan ötrü ərinmirlər, saatlarla uzun növbələrdə gözləyirlər. Bir-birinin bəhsinə bahalı maşınlar, geyimlər alırlar. Yəni sən bunları görmürsən? Bir də ki mən razıyam hər gün bir kisə günah qazanım. Amma hər gün bir kisə pul da qazanım.

– Ay Kələntər, heç olmasa bu pulla bir kasıb-kusuba, yetim-yesirə bir köməklik edək, bir acı doyduraq, bir yetimi geyindirək, bir borclunun borcunu bağlayaq. Nə olar ki? Dərya üçün bir damla nədi ki? Vallah, savabdı.

– Allahu-əkbər. Sən ağlını itirmisən, nədi? Bircə o qalmışdı. Mən nə Tağıyevəm, nə Mənsimov. Mən min bir əziyyətlə, zülümlə pul qazanım, onun minnətini, bunun sözünü götürüm, sonra da qazandığımı ona-buna paylıyım? Nədi-nədi savabdı? Savab nə vaxtdan qarın doydurur, ay avam? Yadda saxla, el üçün ağlayan kor olar.

– Yaxşı, bildik, camaatdan, Allahdan qorxmursan. Bəs hökmətdən də qorxmursan? Özün deyirdin ki, göydə Allah, yerdə hökmət. Onu istəyirsən ki, səni də çəkib yayalar? Bütün ölkəyə rüsvay olaq?

– Lənət sənə, kor şeytan! Ay axmaq, onlar iri balıqlardı. Mən kim, onlar kim? Məni onlarla bir tutma. Mən ki adi bələdiyyə sədriyəm.

– Ay başına dönüm, elə xırdabuynuzluları boğazlayırlar da!

– Allah, sən mənə səbir ver. Ay avam, Kələntər hələ ağlını itirməyib ki, öz kabinetində kimdənsə pul alsın.

Söhbətin bu yerində Sənubər yumşaldı. Ərinin sonuncu cümləsi ürəyinə su səpdi. Deməyinə peşman oldu. Kişinin könlünü almaq üçün keçmişi yada salıb:

– Ay kişi, deyirəm, kaş yenə köhnə günlərə qayıda biləydik. Mən semiçka qovurardım, sən də satardın. İstəkanı bir nizamiyə. Yenə soğan-çörək yeyəydik, amma indiki kimi iynə üstündə oturmazdıq. Ac qulağım, dinc qulağım məsəli.

Sənubərin bu sözləri yanan alovu söndürmək üçün su yox, benzin oldu sanki. Hirsdən Kəlbiyevin çopur sifəti qıpqırmızı qızardı, dodağı əsdi, gözləri hədəqəsindən çıxmaq istədi. Bu halda onu kim görsə, qorxardı. Ağzını açıb uca səslə bağırdı:

– Az, kəs, az!!! Dilin-ağzın qurusun! Keçdi o günlər daha! Getsin, bir də qayıtmasın. İndi dövran mənimdi. Bax gör nələr eləmişəm, – (Əliylə evi göstərib) Gör ərin nələr qurub yaradıb. Bu muzey kimi topdağıtmaz ev, karvan-karvan maşınlar, ucsuz-bucaxsız torpaqlar, şəhərin əlli yerində toçkalar, par-par parlayan qızıl-brilyantlar. Nə bilmişdin bəs, bu qədər mal-mülkü semiçka satmaxla, ya quru maaşla hansı zirək oğlu zirək ala bilərdi? Biz qarğa deyilik üç yüz il ömür sürək, bala. İnsan dünyaya bir dəfə gəlir. Ona görə gərəkdir ki, insan kimi yaşasın. Vallah, sənin yerində kim olsaydı, indi başıma and içərdi, gecə-gündüz başıma pərvanə kimi dolanardı. Amma sən... düşmən kimi qəsdimə durubsan.

– Əşşşii, neyliyirəm onları? Goruma apar-mayacam ki. Özün bilirsən ki, kəfənin cibi yoxdu. Dünya malı dünyada qalacağ da.

– Amma vəsiyyət edirəm, məni bunlarla basdırarsız.

– Ağzını xeyirliyə aç, ay kişi. Allah eləməsin. Axşam-axşam nə ölmək salıbsan.

– Yaxşı, yaxşı, di get. Haqq-hesabı yarıda qoydum sənin boş-boş danışıqlarına görə.

Sənubər narazı və incik halda gözlərini süzüb otaqdan çıxdı. Oranı tərk etsə də, qapının dalından ərini pusmağa başladı. Kələntər çətin imtahandan çıxmış kimi bir də dərindən nəfəs aldı. Həqiqətən, bu söhbət onun kefinə soğan doğramışdı. Yanıqlı-yanıqlı üzünü qapıya tutub arvadın arxasıyca bir xeyli söydü:

– Gorun çatlasın, ay Bacxanım, gorun. Bunu mənə caladığın yerdə, ay bibi. Bunu aldığım günə qara daş düşəydi. Haram olsun mənim zəhmətim sənə, arvad, burnundan gəlsin fitil-fitil. Ömrümü-günümü çürütdün. Bir dəli şeytan deyir, burax bunun başını, bu yaşda boşa getsin. Ağlı gəlsin başına. Pensiyanın ümidinə qalıb bilsin qədrimi. Dolansın, görüm necə dolanır. Heç eybi yoxdu, Sənubər. Mənə də Kələntər Kəlbiyev deyərlər. Sən sən ol, mən də mən. Elə papuqay kimi eyni sözü təkrar edir, – onu təqlid eləyir, – rüşvət alma, istəmə, götürmə. Elə bil rüşvəti mən kəşf eləmişəm, mən gətirmişəm ölkəyə. Balam, zəmanənin tələbidi də, mən nə edim? Bəyəm tək mənəm? Atalar deyib ki, palaza bürün, elnən sürün. İndi mənim burda günahım var, ya yox? Mən də zəmanə adamıyam da.

Bu vaxt telefon zəng çalır. Kəlbiyev zəng edənin adını oxuyanda ayağa durur, qalstukunu

düzəldir, pencəyin düymələrini də bağlayıb, səsinə mütilik qatıb cavab verir:

– Bəli, Kəlbiyev sizi eşidir.

O, danışanı diqqətlə dinləyir, amiranə tonla dediklərinə ancaq bu sözlərlə qarşılıq verirdi: "Baş üstdə, gözüm üstdə, qulluqdayam, necə istəyirsiz, gələrəm, edərəm". Söhbətin sonu belə oldu ki, zəng edən onu harasa dəvət etdi.

Qapıdan pusan Sənubər ərinin onun haqqında dediklərini eşidirdi. Budəfəki yumşaq danışığı isə onu şübhələndirdi. Ona elə gəldi ki, əri eşqbazlığa qurşanıb. İndisə o kişinin arxasıyca qarğıdı: "Bıitity, başıma xeyir. Nələr eşidirəm, İlahi. Boynun qırılsın, ay Kələntər. Gözün tökülsün, ay Kələntər. Utanmır, ölüb yerə girmir. Qocalıqda yorğalıq edir. Görüm o kəlpeysərlər bir gün səni də qolundan tutub aparsın.

Səhəri Kəlbiyev güclə açdı. Həm Sənubərin sözləri, həm də zəng edənin dəvəti onu yatmağa qoymurdu. Bu vaxta qədər o Sənubəri avam, kütbeyin hesab edirdi. Bugünkü sözləri ilə Sənubər Kələntərə zənnində yanıldığını göstərdi. Deməli, bir ömür də insanı tanımağa bəs etmirmiş. İkinci tərəfdən də dəvət. Kələntər inanırdı ki, sabahkı görüş yaxşı "qazanc" gətirəcək, əhvalını düzəldəcək, işləri qaydasına qoyacaq.

Səhər tezdən təzə kostyumlarından birini geyinib, çantasını da qoltuğuna vurub dəvət olunan yerə yollandı. Gecikmək olmazdı. Ədəblə salam verib, "otur!" deyilənə qədər bir neçə dəqiqə ayaq üstdə gözlədi. Kələntər çantasında "vacib sənədlər" adıyla gətirdiklərini çantaqarışıq dəvət edən şəxsə ötürdü. Dəvət edən Kələntərin "üstün xidmətləri"ni sadalayır, onu tərifləndikcə Kələntər yerə-göyə sığmır, sevincindən qol-qanad açıb uçmaq istəyirdi. Elədikləri işlərə görə fəxr edir, tərifləndən "həya təri" sifətini basırdı. Söhbətin bu yerində dəvət edən şəxs əhvalat danışmağa başladı:



Bir gün bir tülkünün quyruğu qayanın altında qalır. Çox çabalasa da, quyruğunu ordan çıxara bilmir. Xilas olmaq üçün məcbur qalıb quyruğunu kəsir.

Yolda gedəndə başqa bir tülkü bunu görüb gülür və soruşur:

– Quyruğunu niyə kəsmisən?

Quyruğu kəsik tülkü deyir:

– Belə çox rahatdı. Özümü çox xoşbəxt hiss edirəm. Sevincimin həddi-hüdudu yoxdu.

Bunu eşidən o biri tülkü də gedib quyruğunu kəsir. Şiddətli ağrılar içində məsləhət verən tülkünün yanına gəlib deyir:

– Niyə yalan dedin? Axı bu çox pisdi. Ağrıdan ölürəm.

Əvvəlki tülkü deyir:

– Əgər quyruğun kəsilməyinin ağrılı və pis olduğunu başqa tülkülərə desəm, heç bir tülkü quyruğunu kəsməz və məni ələ salar.

Beləliklə, bu iki tülkü quyruğun kəsilməsinin "yaxşı və xoşbəxtlikverici" olduğunu bütün tülkülərə danışmağa başlayır.

Bir müddət sonra əksər tülkülər quyruğunu kəsir və quyruğu kəsik olmayan tülkülər azlıq təşkil etdiyinə görə qüsurlu hesab olunmağa başlayırlar. Quyruğu kəsiklər quyruğu kəsik olmayanları ələ salırlar. Həyatda da belədir. Ona görə də arxayın ol, ürəyini buz kimi saxla.

Kəlbiyev bu müdrik insanın əhvalatından sonra bir daha əmin oldu ki, düz yoldadır. O bu fikirdə ikən birdən qapı açıldı. Sənubərin çağırılmamış qonaqlar dediyi şəxslər qəfil bu iki "düz adam"ı yaxaladı. Kağız kimi rəngi ağaran Kələntər Kəlbiyev kəkələyə-kəkələyə qaldı: Ssssiiiizzzz kkkkkimsizzzz?

...Axşam xəbərlərində Sənubər ərini ekranda görəndə təəccüblənmədi.

Gülşən ƏLİYEVA-KƏNGƏRLİ
Professor

"KİTABİ-DƏDƏ QORQUD" EPOSUNDA TARİXİN RUHU

Epos hər bir etnosun tarixi durumunu bədii yolla ötürərək əbədi yaşam hüququ qazanır. Etnopsixologiya tarixi şəraitdə, qəhrəmanlıq və sevgi məqamında, şəxsiyyətin sınağı zamanı özünü göstərir. Buraya illər və əsrlərcə daşlaşmış adət-ənənələri, məişət tərzini də əlavə etmək olar. Etnopsixologiya ailə bağları, qohumluq və tayfa təəssübkeşliyi mühitində formalaşır, daha sonra cəmiyyət qanunlarında təzahür edir.

Tarixdə bir xalqın, bir millətin böyüklüyü həm də onun bəşər xəzinəsinə bəxş etdiyi eposlarla ölçülür. Çünki epos xalq, onun dünyadakı yeri barəsində ən səhih məlumat verən tarixi-bədii sənətdir. O millət xoşbəxtdir ki, onun əcdadları epos yaradıb. Bu mənada dünyada öz fatehlikləri və mənəvi zənginlikləri ilə iftixara layiq yer tutan türk milləti öz eposlarının möhtəşəmliyi ilə seçilir. "Kitabi-Dədə Qorqud", "Manas", "Koroğlu", "Alpamış", "Oğuz xaqan", "Alp Ər Tonqa" türklərin tarixini, bədii-fəlsəfi düşüncəsini əzəmi şəkildə əks etdirən eposlardır. Mövzusundan asılı olmayaraq, bu eposlar türklərin dünyagörüşünü, bədii düşüncə tərzini, öz varlıqlarını təsdiq etmək uğrunda azadlıq mübarizəsini, fatehliyi və qəhrəmanlığını, həyat və yaşam qaydalarını, əxlaqını unikal şəkildə əks etdirir. Bu eposlar (və ümumən eposlar!) sinkretik əsərlərdir.

"Kitabi-Dədə Qorqud" zəngin arxitektonikaya malikdir. Lakin dastanın mahiyyətini tarixiliklə bədiiliyin vəhdəti təşkil edir. Burada tarixilik təkcə dastanlarda yer alan hadisələrdə, fakt və rəqəmlərdə, məişət və etnoqrafiyada deyil, daha çox eposun ehtiva etdiyi ruhda - etnopsixologiyadadır.

Artıq sübut edilib ki, mif mənşəyini nəzərə almasaq, eposdakı hadisələr oğuz türklərinin III əsrdən başlanan ikinci sivilzasiyasının IV-VIII əsrlərini əhatə edir. Dastanın şifahi şəkildə yaranması islam dininin meydana gəlməsindən əvvəlki dövrə təsadüf edir. Eposun ilk dəfə yazıya alınmasında həm Türkiyə, həm Avropa, həm Rusiya və həm də Azərbaycan alimləri yekdil fikirdədirlər. Bu barədə hələ XX əsrin 60-cı illərində akademik Həmid Araslı belə yazıb: "Oğuz

qəbilələrinin Azərbaycana gəldiyi əsrlərin tarixi hadisələri ilə səsləşən müxtəlif dastanlar XI əsrdə bizə məlum olmayan bir şəxs tərəfindən yazıya köçürülmüşdür ki, indi "Kitabi-Dədə Qorqud" adı ilə məşhurdur". Akademik Tofiq Hacıyev bu dövrü "Türk renessansının başlanğıcı" hesab edir. "Kitabi-Dədə Qorqud"un yazıya alınması, Yusif Xas Hacibin "Kutadqu-bilik" poeması, Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" kimi əsərləri də renessansı əks etdirir.

"Kitabi-Dədə Qorqud" oğuz türklərinin qəhrəmanlıq tarixini əks etdirməklə bərabər, kamil bədiilik nümunəsidir. Biz XX əsr poeziyasına həsr olunmuş "Xəyal və idrakın vəhdəti" adlı nəzəri kitabda sərbəst şeirin ilk məxəzi kimi "Kitabi-Dədə Qorqud"un səcli nəşrini göstərmişik. İndi də belə qənaətə gəlirik ki, ümumiyyətlə, türklər şeir dilində – ritmik tərzdə danışıblar. Eposda bədiilik məhz elə tarixilik və fəlsəfilikdir.

Dastanın müqəddiməsində Qorqud dədənin dedikləri şeiriyyətdir:

"Allah-Allah!" deməyincə işlər düzəlməz.
Qadir Allah verməyincə kişi varlanmaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vaxtı çatmayınca kimsə ölməz.
Kül təpəcik olmaz.
Qız anadan görməyincə öyüd almaz.
Oğul atadan görməyincə süfrə çəkməz".
(Misallar "Kitabi-Dədə Qorqud", Bakı, Yazıçı, 1988-ci il nəşrindən verilmişdir).

Bu fikirlər bu gün də öz mənasına və bədiiliyinə görə aforizm kimi işlədilir:

"Qonşu haqqı – Tanrı haqqıdır".
"Təpə kimi ət yığ, göl kimi qımız sağdır!"
"Qara qıyma gözləri qan-yaş doldu"
"Qara başım qurban olsun, ağam, sənə!"
"Səsimi anla, sözümü dinlə!"

"Uruz dedi: "Ağzın qurusun, ana! Dilin çürüsün, ana!" "Ana haqqı – Tanrı haqqı" deyilməsəydi, qalxıb yerimdən durardım, yaxandan-boğazından tutardım. Qaba dizimin altına salardım. Ağ üzünü qara yerə çırpardım".

Burada ritm, ahəng öz yerində, həm də bədii kontrast var: "Ağ üz-qara yer", "Ağ ət-qara qovurma" və s. Belə kontrast mənanı şiddətləndirir, fikrə şeiriyyət bəxş edir.

Eposda sözün çoxmənalılığından səcli nəşr yaradılır, bu da, müasir anlamla ifadə etmiş olsaq, mənsur şeir təsiri yaradır:

"Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eyləyən, bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər igidi Qazan bəyin qardaşı Qaragünə çaparaq yetişdi: "Çal qılıncını, qardaşım Qazan, yetdim!" – dedi".

Burada: Qaradərə, qara buğa, qara daş, Qaragünə ifadələri həm alliterasiya – səsli ritm, həm də mübaliğə yaradır: "Bığını boynu dalında yeddi dəfə düyünləyən" – bu mübaliğə təxminən on əsr sonra "Koroğlu" eposunun qəhrəmanına lazım olacaq.

Hər dəfə dastan bitəndə Qorqud dədə xeyir-dua verir. Onun xeyir-duası şeir kimi səslənir:

Ağ saqqallı atanın yeri cənnət olsun!
Ağ birçəkli ananın yeri behişt olsun!

"Kitabi-Dədə Qorqud"da qədim türk tarixi, ruhu yaşayır. Bu, haqq-ədalət, azadlıq, vətəni qorumaq uğrunda mübarizə tarixi, şəhidlik və qəhrəmanlq tarixidir. "Kitabi-Dədə Qorqud" mətnində ritm yaradan cəhət türk dilləri üçün xarakterik olan təkrarlardır:

"O gün cəsur ər igidlər bəlli oldu. O gün namərdlər gizlənməyə yer axtardı. O gün bir qiyamət savaş oldu, meydan başla doldu; başlar top kimi kəsildi... O gün elə bil qiyamətin bir günü idi". Belə təkrarlar türk savaşının qəhrəmanlıq coşqusunu ifadə edir:

"Duxa Qoca oğlu Dəli Domrulun boyu"ndan bədiiliyə nümunə olaraq bir parça verək:

Par-par yanan, parıldayan incə donlum!
Yeriyəndə yerə qədəm basmayan,
Qar üstünə qan dammıştək al yanaqlım!
Qoşa badam sığmayan dar ağızlım!
Qələm ilə rəssam çəkən qara qaşlım!
Hörükləri qırx tutamlıq qara saçlım!
Aslan nəsli, sultan qızı.

Gözəllik vəsfində, dərin sevgi etirafında işlədilən bu parlaq təşbih, istixarə və mübaliğələrə biz bir də XVI əsrdə dahi Füzuli yaradıcılığında rast gələcəyik. Burada oğuz türkünün bədii təfəkkür imkanları ifadə olunub.

Bu təfəkkür dərin və tutumlu, obrazlıdır. Burada zəriflik ruhun ifadə tərzi kimi meydana çıxır. Yeriyəndə yer basmayan, qar üstünə qan dammış kimi al yanaqlım – "Kitabi-Dədə Qorqud"da təsvir və tərənnüm olunan gözəl səmavi gözəldir.

Eposun dili (və üslubu!) alternativ dildir. Buradakı leksik, semantik dil konstruksiyaları təkcə nitq və təfəkkür vəziyyətini yox, həm də yaşam tərzini- coşqun, nikbin, azad ruha əsaslanan mənəvi-məişət tərzini əks etdirir. Dastandakı boylardan görünür ki, türklər zəhmətkeş, qurucu, istedadlı, gözəllik qanunları ilə yaşayan kefcil millət olub. Onlar həm də "Təpə kimi ət yığıb, göl kimi qımız sağdırıb!" məclis qurmağı bacarırdılar. "Ürəyin pasını al şərab yuyur" – deyirdilər. Onlar həm də Tanrıya –Tenqriyə, onun qüdrətinə inanırdılar. Dəli Domrul çətin anda Tenqriyə üz tutur:

"Ucalardan ucasan,
Kimsə bilməz necəsən.
Gözəl Tanrı!
Neçə cahillər səni
Göydə arar, yerdə istər.
Sən möminlər könlündəsən.
Sən böyüksən, qüdrətlisən,
Əbədi sirr sahibisən.
Canımı alsan, özün al,
Qoyma, Əzrayıl alsın!"

"Kitabi-Dədə Qorqud" eposunda etnopsixologiyanın bədii vasitələrlə transformasiyası, əsasən, dil, həm şifahi, həm də yazılı dil vasitəsilə baş verir. Akademik Tofiq Hacıyev bu prosesi, eposun mətninə əsaslanaraq, belə izah edir: "Bu, nəsr sintaksisi deyil. Sintaksisin leksik-prosodik xüsusiyyətlərinin konkret halında təhlil göstərir ki:

1) "Dədə Qorqud" başlanğıcından şeirlə yazılmışdır;

2) "Dədə Qorqud" sintaksisinin əcnəbi təsirə düşməməsinin bir səbəbi də odur ki, bu sintaksis şeir texnikası üzrə qurulmuşdur – əcnəbi təsir həmişə milli şeirimizin yalnız leksikasına aid olmuşdur;

3) Alliterasiya və heca vəzni türkcə şeirdə eyni dərəcədə başlanğıcdır;

4) "Dədə Qorqud" kitabı XV əsrdə yazıya hökmən daha qədim bir nüsxədən köçürülüb".

Məhz bütün bu əlamətlər sayəsində "Kitabi-Dədə Qorqud" mətninin etnopsixoloji və kulturoloji ötürücülük transformasiyası gücü artmışdır. 12 boy və bir müqəddimədən ibarət olan Drezden nüsxəsinin mətninin sistemli-struktural təhlili belə bir fikir söyləməyə imkan verir:

1) Boylar müxtəlif dövrlərdə müxtəlif adamlar tərəfindən söylənilib. Məsələn, "Basatın Təpəgözü öldürdüyü boy" eramızdan əvvələ – mifik düşüncə dövrünə gedib çıxır. Bu qayda mif poetikasından daha güclüdür;

2) Boyların hamısında şeir təfəkkürü hakimdir. Ona görə də mətnlər transformasiya baxımından daha bədii tutumlu – daha fəlsəfi məzmunludur;

3) Əksər boylarda məhz leksik-semantik zənginlik sayəsində transformasiya olunan tarixi bilgilər, mənəvi-əxlaqi, qəhrəmanlıq məlumatları konkret, sözlükdən uzaq, dəqiq və yuvarlaqdır.

Dastanlarda xırda məişət dastanından tutmuş, mürəkkəb tarixi hadisələrə (məsələn, "Salur Qazanın evinin yağmalanması" boyu) qədər hər şey mətndə elə qaynayıb-qarışır ki, gərginliyə və mürəkkəbliyə heyran olursan. Bu dastanlarda dövlət əxlaqı (konsepsiyası) və ailə kultu "vətən əxlaqı"nın (Ziya Göyalp) əsas atributları kimi çıxış edir. Daha bir vacib cəhət bundan ibarətdir ki, eposun mətnində qadın mənəvi düşüncəsinin milli etnopsixologiyası əsas meyar kimi gələcəyə transformasiya olunur. Məsələn, "Salur Qazanın evinin yağmalanması" boyunda əsir düşmüş Burla Xatun təkcə öz namusunu, əri Qazanın, ailə namusunu qorumur, daha əzəl el – ümumtürk namusunu – milli qeyrətini qoruyur. Mətndə belə bir ali duyğunun transformasiyası eposun həm tarixiliyini, həm yüksək bədiilik, həm də müasirliyini təmin edir. Bu hər şeydən əvvəl tarixin ruhu və etnopsixologiyasının gizli transformasiyası nəticəsində baş verir.

"Kitabi-Dədə Qorqud" mətni qədim türklərin dövlətçilik mədəniyyəti, şəxsiyyət (qəhrəmanlıq!) kultu, bununla bağlı türk xalqlarının transformasiyası baxımından unikaldır.

"Kitabi-Dədə Qorqud" dünyanın ən qədim etnoslarından olan qəhrəman türk millətinin elmi və bədii təfəkkürünü, etnopsixologiyasını, dünyagörüşünü, mədəni-mənəvi mühitini, demokratizmi və azadlıq uğrunda mübarizəsini əks etdirən unikal abidəmizdir. O həm də tarixdə bir çox nəşrlərin milli qürur və həyat kitabı olacaq.

Vahid QAZİ

GƏLMƏ

Mən dənizi eşitdim

Bəzən elə bilirsən, göy üzünü quşlara sən bağışlamısan. Çiçəklər də gün işığını sənə görə tanıyıb. Adamların üzündəki təbəssüm də səndən qopandır. Körpələr qığıltısını, uşaqlar gülüşünü səndən alıblar. Aşiqlərə də görüş yerini sən nişan vermisən.

Amma yenə azlıq edir, doymursan, uzaqda, lap dünyanın o başında qalanlara da xoşbəxtliyindən pay göndərmək istəyirsən.

Bilirsənmi adam bu hala haçan düşür? Əvvəllər heç vaxt duymadığı sevinc hissin yaşayanda! Köksündə xoş duyğular qaynaşanda məsudluğun üzünə çıxır – aləmə xoşbəxtlik saçırsan.

Günəş də belədir – içində püskürən alov vulkanlarından aldığı işığıyla yayılır dünyaya.

Xoşbəxtlik yoluxucudur! Onu özündə saxlaya bilmirsən, mütləq başqalarıyla da bölüşürsən.

Xoşbəxtliyi paylaşmaq insanın vəzifəsidir! Günəş insanı bu missiya üçün yaradıb. Dini nağılları boş ver, başqa dünyaları, planetləri bilmirəm, dəqiq bildiyim odur ki, Yer üzünü, Yer üzündəki Diriliyi Günəş yaradıb. Buna inanmayanlar Günəş sistemindən köçüb getsinlər.

…Tanrını Günəşdən kənarda axtaran gündən başlayıb bəşərin faciəsi!

Günəşi burda – bu soyuq Şimal ölkəsində sevmişəm. Əvvəl sevmişəm, sonra anlamışam. Anlamanın ilk şərtidir sevgi. Sevməsən, anlaya bilməzsən.

Başqa bir günəş dəlisi də tanıyıram. Əlillər üçün ixtisaslaşdırılmış məktəbdə bizimlə oxuyan kor ərəbi deyirəm. Özü haqqında danışanda dodaqlarının hərəkətindən oxumuşdum dediklərini. Deyirdi ki, günəşi görməsə də, duyur. Özü də isti Ərəbistanda yox, soyuq İsveçdə duymağa başlayıb onu. Qəribədir, elə deyilmi? “Qoy həmişə günəş olsun!” – tez-tez təklarladığı sözdür bu.

Adamları dodaqlarının hərəkətiylə “eşidirəm”. Axı mən karam!

Hərdən beynimi deşən uğultudan başqa heç nə eşitmirəm. O kor ərəb günəş sevdalısı olduğu kimi, mən də dəniz dəlisiyəm. Hər gün Baltik dənizinə dəyməsəm, olmur. Qışda barmaqlarımla toxunuram ona, yayda lap soyunub özümü atıram ağuşuna – beləcə onunla onu duyaraq dərdləşirəm. Heç kimə deyə bilmədiyim sözü ona danışmışam. Adamlardan fərqli olaraq, dəniz həmişə məni dinləyib. Bütün dediklərimə sonacan qulaq asıb. Təsəllim olub.

Dəniz məni anlayır. Anam anlayan kimi anlayır. Mən də anamla danışdığım kimi danışıram onunla. Dinləyir, sonra da sözünü ləpəsi, dalğasıyla deyir.

Yaxşı yadımdadır, ilk dəfə ona ürəyimi açanda, taleyimi danışanda şahə qalxmışdı dalğalarıyla. İnan, dalğası boyuma çatırdı. Həkim

eşidəcəyimə qarantiya vermədiyini deyən gün də eynən küləkli, çovğunluydu hava. Mən də havalanmışdım. Sahilə qaçıb dənizə sığınmışdım. Hönkürüb ağlamışdım. "Neçə ölkə dolaşıb sonuncu ümidin arxasınca gəlmişəm. Mən eşitmək istəyirəm!" – demişdim.

O da eynən anam kimi söyləmişdi: "Qorxma, burdayam!". Dənizin dalğa dodaqlarından oxumuşdum bu sözləri.

***

On üç yaşımda uğursuz bir əməliyyatdan sonra qulaqlarım kar oldu. Atam az qalırdı həkimi öldürə. Şikayətin əhəmiyyəti yox idi. Arxası güclüydü həkimin.

O vaxtdan dünyanın bütün səsləri kəsildi. Yadımda qalan sonuncu səs anamınkıdır. Məni cərrah otağına ötürəndə "Qorxma, burdayam" demişdi.

Bir daha eşitməyəcəyimi bildiyim o faciəli günün səhəri atamgillə dənizə getdik. Dənizi ilk gördüyüm gün idi. Xəzərin nəhəngliyi məni elə həyəcanlandırmışdı ki. Dəhşət idi e, ayrı heç nə yox idi, bir su idi, bir də suyun qurtaracağında göy üzü vardı.

İlk baxışdan aşiq olanlar kimi vuruldum Xəzərə. Sonralar atam hər dəfə məni Bakıya gətirəndə Xəzərə mütləq dəyərdim. Yayda suya girib dalğalarla güləşir, ləpələrlə pıçıldaşardım. Xəzər mənim ilk sevgilimdir. Nə məktəbimizin qızları sevgilim oldular mənim, nə qonşumuzun ayüzlü qızları yaxın durdular mənə. Xəzərsə baxmırdı karlığıma. Onu eşitmədiyimi bir dəfə də üzümə vurmadı. O anlarımda tək istəyim dənizin səsini eşitmək idi.

Kar olduğum günədək eşitdiyim hər səsi xatırlayıram. Küləyin də, yağışın da, quşların, heyvanların da. Bircə dənizdən savayı. Görən, dalğanın səsi nə cürdür, ləpələr necə pıçıldaşırlar!

Sonra səslərini heç vaxt eşitmədiyim başqa sevdiklərim də oldu.

Vaxtını almıram ki? Maraqlıdırsa, davam edim!

Bir gün qonşu kəndə toya getmişdim. Orda bir qız gördüm. Deyirlər ey ilk baxışdan aşıq olmaq, bax elə o cür oldu. Toyda gün boyu neçə dəfə üz-üzə gəldim onunla. Baxışları hər dəfə nəzərlərimə ilişəndə bir anlıq donub qalırdı, sonra gülümsəyib keçirdi. Axıracan – bəy tərifi qurtaranacan qaldım toyda.

Gecəyarı qayıdanda elə bilirdim ki, bütün dünya mənə baxır, ulduzlar da heç kimə yox, tək mənə göz atır, Ay da bircə mənə gülümsəyir, ta ayrı heç kimə.

Anladım ki, aşiq olmuşam!

Sonra min bir bəhanəylə o kəndə çox getdim; qapılarının ağzından keçdim, dayanacaqda yolunu gözlədim, məktub yazdım, cavab aldım. Bir gün sevgi etirafı da gəldi.

Sevgimizin məktublaşmadan söhbətə keçirməyinin vədəsi çatmışdı. Qorxurdum: kar olduğumu bilsə, o da üz döndərərmi, görən?

Günəşli bir gündə rayon mərkəzindən kəndə gedən avtobusda onu yanladım. Allanmış çöhrəsindən bir cüt göz, əslində, hər şeyi deyirdi. Mənimsə nəzərim onun gözlərində yox, dodaqlarında idi. Dodaqlarından oxuyurdum dediklərini. O an dünyanın nəbzi bu bir cüt dodaqda vururdu. Dodaq qırışlarının hər biri bir roman səhifəsiydi sanki, barmağımı toxundurub qırış səhifələri çevirmək – oxumaq, oxumaq, yenə oxumaq istəyirdim. Elə sehrləmişdilər ki məni… O qırışları tək-tək sevər, hərəsiylə bir ömür yaşayardım. Avqust ənciri kimiydi o gün o dodaqlar. "Dər məni, dadıma bax" – deyirdi.

Qadınlar boyasız, çəhrayı dodaqların kişiləri dəli edən sehrindən xəbərsizdirlər, bilsələr, boyamazlar!

Avtobus kəndə yaxınlaşanda kar olduğumu, onun sözlərini eşitmədiyimi, yalnız dodaqlarının tərpənişindən anladığımı dedim.

Susdu. Daha dodaqları tərpənmədi. Gözlərindəki günəş də söndü. Düşüb gedəndə o gözlərdən bir cüt yaş süzüldüyünü gördüm.

İçim çilik-çilik oldu.

Amma hər son bir yeninin başlanğıcıdır!

Səhəri gün məni avtobusa minməyə qoymadı, ovcuma kağız basıb, "gəlmə, oxu" dedi, sonra qalxıb dünənki yerdə yox, arxa oturacaqda əyləşdi. Avtobus tərpənəndə çinarın altına çəkilib onun məktubunu oxudum. Həyatın bitdiyini zənn eləmişdim dünən, bu gün diriliyim təzə pöhrə verdi. Məktubunda kar olmağımın onun sevgisinə bir damcı belə təsir etməyəcəyini yazmışdı.

Sözünü tutdu. Evliliyimizin iyirmi ili arxada qalıb, bir dəfə də karlığımı üzümə vurmayıb. Əlacımın Avropada olduğunu öyrənəndə, köçüb vətəndən uzaq bir məmləkətə gələndə də məni tək qoymadı. Doğmalarını buraxıb mənimlə qürbətin bilinməyən yollarına çıxdı.

Qəriblik yağış qoxuyur, kədər rəngindədir. Amma bura gəldiyimiz gündən o qoymadı o yağışda islanam, o rəngə bürünəm. Məni ərindən çox, balası kimi sevdi.

Bilirsən, səs yaddaşımda otuz il qabaqkı kimi qalıb. On üç yaşımın səsiylə danışıram. Neçə nəfər deyib bunu. Deyirlər, lap şeiri də məktəbli kimi deyirəm. Görünür, özüm böyüyüb yaşlansam da, səsim uşaq qalıb.

Burda, bu qərib ölkədə anladım ki, Vətənin də səsini unutmuşam. Daha on üç yaşımdakı Vətən yoxdur. İndi vətəndə yad səslərlə danışırlar. Qorxulu gəlir o səslər mənə. Elə dünyanın da səsi dəyişib. Altyazılı filmlərdən, qəzetlərdə, kitablarda oxuduqlarımdan bilirəm bunu. İnsanlar indi sevgiyə, mərhəmətə köklənməyən səslərlə danışırlar.

Bəzən karlığıma sevinirəm. O qorxunc səsləri eşitmədiyimə görə sevinirəm. Elə bilirəm, o səsləri eşitsəm, dəli olaram.

***

Salam, dəniz! Klinikadan gəlirəm. Bu gün, nəhayət ki, qulağıma aparat qoydular. Dünyanın 30 illik donu açıldı bu gün. İnanmazsan! Daha eşidirəm! Gəldim ki, sənə xəbər edim. Xoşbəxt üzümü də görəsən deyə, ilk sənə qaçdım. Bu illər ərzində məni həmişə kədərli görmüsən. Bax mən də xoşbəxt ola bilirəm! Gəl qucaqlayıb, bağrıma basım səni. Nəhəngliyinə baxma, bu anımda qollarım belinə dolanacaq qədər uzundur, ürəyim sənin sonsuzluğundan da böyükdür. Tək səni yox, bütün Yer üzünü qucaqlayaram. Yer üzü nədir, ulduzları, Ayı, Günəşi belə!

Bilirsən, necə oldu? Əvvəl qırıq-qırıq səslər gəldi. Radioda dalğa axtaranda qatma-qarış səslər olur e, bax bir növ elə. Uzaqdan xışıltılı səslər gəlirdi. Deyərdin, bəs əzik-üzük, süzülmüş, yırtılmış, cırılmış səslərdən bir orkestr düzəldiblər. Elə bilirdim səsi görürəm. Sonra yavaş-yavaş o səslər uzaqlaşdı. Uzaqlaşan səslərin arasından həkimin səsi yaxınlaşmağa başladı. Onun ilk sözlərini kəsdirə bilmədim. Başa düşürsən, mən səsi yadırğamışdım, yenidən görəndə tanımadım. Otuz ildir səs eşitmirdim axı.

İndi səni də eşidirəm. Sənin nə gözəl səsin varmış. İnan, beləcə də bilirdim. Bu illər ərzində məni səbirlə dinləməyindən, dalğa dodaqlarından oxuduğum o təsəlli sözləri yalnız gözəl səslə ifadə etmək olar.

Bilirsən, gözəl sözlər mərhəmət dolu səslərlə söylənər. Qəzəbli səslə də xoş sözlər deyərsən. Sənin coşan çağlarında qəzəbli olur səsin, yəqin ki. Amma heç bir halında sənin dalğa dodaqlarında nifrət sözləri oxumadım, ləpə nəfəsində kin duymadım.

Nə edəcəyimi bilmirəm indi. Həyəcanlıyam. Gəldim, mənə ürək-dirək verəsən. Evə dönməliyəm. Ürəyim özümdən qabaq qaçır evə. Xanımı, uşaqları bu gün klinikaya gəlməyə özüm qoymadım. Birdən alınmaz deyə. İndi onlara qaçıram.

Görən, xanımın səsi necədir? Bəs qızımın gülüşü? Oğlumun səsi qalınlaşıb yəqin, yekə kişidir, on beş yaşı var. Sevdiklərinin səsini eşitmək, bilirsən, necə xoşbəxtlikdir? Necə anladım sənə! Bax elə zənn elə, qulağın tutulub, eşitmirsən. Dalğaların qayalara dəyir, səsi dünyanı başına götürür, amma sən səssiz kinoya baxırsanmış kimi durub baxırsan. Heç öz balıqlarını da eşitmirsən. Axıb sənə tökülən çayların şırıltısına da lalsan. Və bir gün dəniz qulağın açılır. Və bir gün hər səsi eşidirsən!

Bax o eşqlə qaçıram evə. Sabah yenə gələcəm. Sənə sevgilimin, balalarımın səsindən danışacam.

Salamat qal, Baltik dənizi!

Gəldim səninlə vidalaşam. Dünən səndən sonra evə getdim. Qasırğa sonrası günəşli sabahın açılır e sənin, bax bu sabahım elə açıldı. İçimdə təlatümlə yatdım gecəni. Səni, məni xoşbəxt edən bu qürbət ölkəni tərk etməyin qərarını vermək çətin oldu. Dolaşıq fikirlərin, qarışıq duyğuların düyünü sabahın günəş şəfəqləriylə açıldı.

Vətən güc gəldi. Qayıtmağa qərar verdim.

Gəldim vidalaşım. Sən çox doğmasan, ana qoynu kimi açıldın mənə. Ən ağır günlərimin sirdaşısan. Amma Xəzərə dönməliyəm. Vətən hissi Günəşin yaratdığı bütün duyğuların ən ülvisidir. Xəzəri eşitmək üçün vətənə dönməliyəm.

Heç təsəvvür edirsən, xanımım necə incə səslə danışırmış! Sənin qumlu sahillə pıçıldaşan ləpələrin var e, eynən o səslə. İlahi, iyirmi ildir bu səslə sevilməyin bəxtiyarlığını yaşayıbmışam, xəbərim olmayıb. Hələ balalarımın səsini demirəm…

…Dənizi eşitdim, Günəş! Bir sən qaldın. Bir gün sənə də gələcəm, səsini eşitmək üçün. Hələ Yerdə işlərim var.

Oktyabr 2019
Helsinqborq, İsveç

EMİNQUEY

İZİ BİLİNMƏYƏN ODƏR!

Məndən soruşsalar ki şeir demədən şeir göstər, cəmi üç kəlmə deyərəm – Vaqif Bayatlı Odər!

Həmişə Azərbaycan insanına təqdim olunan ağaca söykənib xəyallara dalan, xəyalı göylərdə dolaşan, saçları qarma-qarışıq, geyimi dağınıq şair obrazına gülmüşəm. Öz-özümə demişəm, şairləri elə təqdim edirlər, sanki ömrümüzü bax beləcə ağaclara söykənə-söykənə sürürük. Xalq səhər-səhər səliqəli geyimdə özü kimi işə gedib-gələn şair görəndə bir az birtəhər baxır ki, belə də şair olar? Sonralar Vaqif Bayatlı Odəri tanıdım. Sən demə, olarmış. Yadıma o düşən kimi bu obraz gözümdə canlanır.

Kitabına "Yupyumru eşq" adını verən, Allahın dünyanı – Günəşi, planetləri, yağış damlalarını yumru yaratdığına inanan Vaqif Bayatlı eşqin formasının yupyumru olduğunu kəşf edir.

Onun dağınıq saçlarına, qalın qaşlarına, şeirlərini öz iç səsiylə oxumasına dəlilik kimi yanaşan da ola bilər, amma sözün iliyinə bələd olanlar bilir ki, Vaqif Bayatlı bunları qəsdən etmir, o, təpədən-dırnağa şair, içi-çölü təbiilikdir. Qardaşı ağaclar, bacısı çiçəklər olan şairin bir şeiri üstdə isə daima dayanmışam. Hər dəfə dostlarla görüşəndə bu şeiri onlara oxumuşam, lap Vaqif Bayatlının özü oxuduğu kimi:

Səni niyə belə sevdim,
belə istədim niyə,
canımdakı min tikana,
bir gülə istədim niyə?!

Eşqdə gizlətdim bu canı,
görəmməyən varmı, hanı?!
Həm gizlətdim, həm də hamı
bilə, istədim, niyə?

Min illərçün də Allahdan
gecə-gündüz, hər an, hər an,
Səni özümə həm sultan,
həm də, həm də
kölə istədim, niyə?!

Məndən soruşsalar ki, sevginin tərifini ver, gözümü yumub bu şeiri deməyə başlayaram. Azərbaycan poeziyasında sevməyin təhərini bu qədər dəqiq tərif edən ikinci bir şeir yoxdur.

Şeirin ən gözəli demək istədiyin fikri onu ifadə edən sözlər olmadan yazılan şeirdir. Ayrılıq haqqında yazırsansa, ayrılıq sözündən istifadə etmə. Sevgidən yazırsansa, sevgi sözündən istifadə etmə. Etdiyin halda sən sevgi haqqında danışmış olacaqsan. Etmədiyin halda isə ayrılığın, sevginin nə olduğunu göstərəcəksən. Danışmamaq, göstərmək...

"Gülü sevəcəksənsə, tikanlarına dözməlisən" deyimini ustalıqla şeirə çevirib "canımdakı min tikana, bir gülə istədim, niyə?" deyən Vaqif Bayatlı Şərq insanının, daha doğrusu, kişisinin sevmək tərzini cəmi üç bənddə göstərir.

Biz sevdiklərimizi qısqandığımızdan, bölüşə bilmədiyimizdən həm hamıdan gizlətmək istəyən, yaşadığımız xoşbəxtliyi isə həm də hamı ilə bölüşmək, aləmə car çəkmək istəyən adamlarıq. Biz sevdiklərimizi başımızın tacı etməklə yanaşı, həm də öz qayda-qanunlarımızı, patriarxallığımızı, hakimiyyətimizi onların üstündə bərqərar etmək istəyən adamlarıq. Biz başqa cür ola bilmirik. Təbiətimiz, cəmiyyətimiz bizi belə yetişdirib. Şair bunu bir "niyə?" sualının altında təkcə öz ağrısı kimi yox, elə hamımızı ağrıdan bir hiss kimi çatdırır. Niyə belə sevirik? Niyə?

Vaqif Bayatlı bu şeirdə nə ağlayır, nə də sızlayır. Ümumiyyətlə, onun şeirlərində mağmınlıq yoxdur. "Mən zalım adamam, kamança!". Kamançayla döyüşən, vuruşan bir şairin şeirlərində göz yaşı, ağrılar sual dolu üsyanla yoğrulub insanın ruhuna şirin bir bayatı kimi hopur:

Ən kimsəsiz küçə sənin,
Küçə sənin, gecə mənim,
Sən bağlayan pəncərənin
"Bir dön bəri bax" yeri var.

Bircə bənddə ayrılığı ağlamadan, sızlamadan, pafossuz ən mükəmməl formada necə ifadə etmək olarsa, bu bənddə onu görmək olar. Vaqif Bayatlı yenə ayrılıqdan danışmır, ayrılığı unikal formada, bir epizod kimi göstərir. Və onun bu ayrılıq tablosunda həm də "bir dön bəri bax" yeri var.

Ədəbiyyatşünas, yaxud tənqidçi olmadığım üçün onun sevdiyim şeirləri haqqında uzun-uzadı yaza bilmərəm. Vaqif Bayatlı poeziyası mənə görə, bir başqa dünyadır. Bəlkə də, insanlarımız göylərdə uçan, yerdə bir izi də olsun görünməyən bu şairi tapmaqda çətinlik çəkirlər.

...Dilərəm Tanrıdan, qəlbə dəyməyən, uduzub yorulan, udub doymayan, ağlaya-ağlaya top-top oynayan qardaşımın üzü köməyimiz olsun...

Abid TAHİRLİ

"Hophopnamə"nin döymədiyi qapı, girmədiyi ev qalmadı, onu oxuyanlar da sevdi, oxudanlar da. Zamanında heç bir şair özünü böyük Sabir qədər xalqa sevdirməmişdir.

Abdulla Şaiq

AZƏRBAYCAN MÜHACİRƏT MƏTBUATI MİRZƏ ƏLƏKBƏR SABİR HAQQINDA

Bolşeviklərin 28 aprel 1920-ci ildə ölkəmizə hərbi təcavüzündən, Cümhuriyyətin süqutundan bir müddət sonra Türkiyədə məskunlaşan Azərbaycan Xalq Cümhuriyyəti liderləri nəşr etdikləri mətbu orqanlarında totalitar sovet rejimi və kommunist diktaturasına qarşı müxtəlif istiqamətlərdə barışmaz ideoloji mücadiləyə başladı. Direktiv göstərişlə yaradılmış qondarma sovet ədəbiyyatının, saxta sosialist realizmi (sosrealizm) ədəbi metodu və konsepsiyasının kəskin tənqidi ideoloji mücadilənin aparıcı mövzularından idi. 1923-cü ildə İstanbulda nəşrə başlayan "Yeni Qafqasya" dərgisində, sonralar onun- mühacirət mətbuatının bayraqdarının proqramını, məramını eyni əzm və cəsarətlə davam etdirən "Azəri Türk", "Odlu türk", "Bildiriş", "Azərbaycan yurd bilgisi", "Qurtuluş", "İstiqlal", "Azərbaycan", "Mücahid" və s. kimi qəzet və jurnallarda dərc olunan məqalələr yeni dövr milli ədəbiyyatşünaslığının yaranması və inkişafında mühüm rol oynamışdır. İllər ötdükcə sovet ədəbiyyatşünaslığı ilə daban-dabana zidd milli ədəbiyyatşünaslığımızın problemlərinə konseptual baxış formalaşmış, onun prinsip və elmi-nəzəri müddəaları müəyyənləşdirilmişdir. Yüksək peşəkarlıqla, sistemli həyata keçirilən bu işin nəticəsində Məhəmməd Əmin Rəsulzadənin, Mirzə Bala Məhəmmədzadənin, Əhməd bəy Cəfəroğlunun, Əbdülvahab Yurdseverin, Mustafa Haqqı Türkəqulun, Səlim Rəfiqin, Məhəmməd Əli Rəsulzadənin məqalə və kitablarından ibarət zəngin və çoxşaxəli ədəbiyyatşünaslıq irsi ərsəyə gəlmişdir. "Kitabi-Dədə Qorqud" başda olmaqla bir çox dastanlarımızın, Qətran Təbrizi, Məhsəti, Xaqani, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Qasimi, Şah İsmayıl Xətai, Mirzə Fətəli Axundzadə, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Cəfər Cabbarlı, Hüseyn Cavid, Əhməd Cavad, Almas İldırım, Əmin Abid (Gültəkin), Şəhriyar və bu kimi digər görkəmli

sənətkarların həyat və yaradıcılığına dair dolğun, sanballı araşdırmalar bu gün də aktualdır və Azərbaycan ədəbiyyatı tarixinin yeni, milli konsepsiyasının özəyini təşkil edir, istiqamətini müəyyənləşdirir.

Mühacirət mətbuatının, mühacirət ədəbiyyatşünaslığının ən çox müraciət etdiyi ədəbi simalardan biri də poeziyada yeni mərhələ açan və məktəb yaradan Mirzə Ələkbər Sabirdir. Mühacirət mətbuatında M.Ə.Sabir haqqındakı materialları məzmununa, məqsədinə görə dörd qrupa bölmək olar:

– Müxtəlif problemlərə – sovet ədəbiyyatşünaslarının tənqidinə, onların milli dəyərlərə qarşı qərəzli və saxta münasibətinə, cəmiyyət həyatındakı nöqsanların ədəbi əsərlərdə inikasına, klassik ədəbi irsin, məktəb və mətbuatın milli şüurun inkişafındakı roluna həsr edilmiş yazılarda M.Ə. Sabirlə bağlı fikirlərin əks olunduğu materiallar;

– M.Ə.Sabirin həyat və yaradıcılığından ayrıca bəhs edən yazılar;

– M.Ə.Sabirin yaradıcılığından nümunələr, foto və karikaturalar.

"Azəri mətbuatının müxtəsər tarixçəsi", Mirzə Bala Məhəmmədzadənin məşhur "Azərbaycan Misaqi Millisi", "Ədəbi hakimiyyət qovğası", "Məktəblər və dərs kitabları", Səlim Rəfiqin "Son dövr Azərbaycan ədəbiyyatı", Əhməd Cəfəroğlunun "Azəri ədəbiyyatında istiqlal mücadiləsi izləri" və s. kimi məqalələrdə müxtəlif mövzulara toxunulur və bu zaman müəlliflər fikirlərini əsaslandırmaq üçün M.Ə.Sabir yaradıcılığına da müraciət edir. Mətbuat tarixinin inkişaf yolundan bəhs edən "Azərbaycan mətbuatının müxtəsər tarixçəsi" adlı məqalənin "İlk Rusiya ixtilalı ilə başlayan dövr" hissəsində müəllif 1905-ci ildə senzuranın ləğvindən sonra mətbuat həyatındakı canlanmadan, "Həyat", "Füyuzat", "İrşad", "Tərəqqi", "Dəbistan" kimi dövri nəşrlərdən bəhs etdikdən sonra yazır: "Tiflisdə intişar edən mizah məcmuəsi "Molla Nəsrəddin" bilhassa (xüsusi ilə – T.A) şayanı kayttır (diqqətəlayiqdir – T.A). Bu, Azərbaycan intibah tarixində ən çox təsir eyləmiş bir məcmuədir... Məşhur Azərbaycan şairi Sabir "Hop-hop" şeirləri ilə bu məcmuənin ən nəfis mizahı tənqidlərini yazmışdır". Mirzə Bala Məhəmmədzadə irsinin ən parlaq nümunələrindən olan "Azərbaycan Misaqi Millisi" məqaləsində publisist bir neçə dəfə M.Ə.Sabir yaradıcılığından söz açmaqla, sitatlar gətirməklə mülahizələrini bəyan edir. Milli şüurun oyanmasında ədəbiyyat və mətbuatın rolunu yüksək qiymətləndirən M.B.Məhəmmədzadə şairin

Fəhlə, özünü sən də bir insanmı sanırsan?!
Pulsuz kişi, insanlığı asanmı sanırsan?!
və
Aldı dolu eldən səru samanını, neylim?
Yainki çəyirtkə yedi bostanını, neylim?

misraları ilə başlayan şeirlərindən sitatlar gətirərək kəndli-mülkədar, fəhlə-sahibkar münasibətlərini həcv edir, fəhlə və kəndlinin qəflət yuxusundan oyanmasına çalışır. Maraqlı və diqqətçəkəndir ki, M.B.Məhəmmədzadə Hadi yaradıcılığının ideyasını, məğzini, mahiyyətini açmaq, özünəməxsus cəhətlərini göstərmək üçün onu dövrün sənətkarları Hüseyn Cavid, Abdulla Şaiq, eləcə də Mirzə Ələkbər Sabirlə müqayisə edir, konkret nümunələrlə fikir və mülahizələrini əsaslandırır. Mirzə Ələkbər Sabiri "realist və münekkit" sayan M.B. Məhəmmədzadə Hadini "son dərəcədə idealist, bəzən də utopist" adlandırır: Hadi məktəbə gedən bir uşaqdan ilham alaraq sevinir, onun şəninə ümidlərlə dolu şeir yazır, "Sabir bu qəbildən olan şeirin əleyhinə çıxır və bir dilənçi cocuq bularaq:

Ey dərbədər gəzib ürəyi qan olan çocuq!
Bir löqmə nan üçün gözü giryan olan çocuq!
Əşkilə abrusu da rizan olan çocuq!
Mətlubi nan, qazandığı hirman olan çocuq!

İnsan kimi bilinsə idi qədrü-qiymətin,
Açmış olurdu məktəbi-milli cəmaətin,
Dərk etmək istəmir hələ bu feyzi millətin,
Qalsın nihan vədieyi-fitri-məharətin;
Ey ehtişami-milləti talan olan çocuq!
Ey dərbədar gəzib ürəyi qan olan çocuq!" –
deyə yazır.

Bolşevik Əliheydər Qarayev "Kommunist" qəzetində dərc olunan məqaləsində məktəblərdə və dərs kitablarındakı "milliyyət" və "türkçülük" təhlükəsindən bəhs etmişdir. "Məktəblər və dərs kitabları" adlı məqalədə müəllif yazır ki, hər halda

M.Ə.Sabirin milli parçalardan ibarət şeirləri Ə.Qarayevin xoşuna getməmişdir. Yazıda bolşevik mühərririn məsələyə antimilli münasibəti kəskin tənqid edilir.

Azərbaycan mühacirət ədəbiyyatşünaslığının görkəmli nümayəndəsi Səlim Rəfiq "Son dövr Azərbaycan ədəbiyyatı" adlı məqaləsinin "Xalqçı ədəbiyyat" hissəsində M.Ə.Sabir yaradıcılığını peşəkarlıqla təhlil edərək yazır: "Sabirin ictimai həyatda təmas etmədiyi sahə qalmadı. Fikirlərini özünəməxsus bir əda ilə nəzmin qəlibləri arasına sıxışdırdı. Azəri ədəbiyyatına bir "Hophopnamə" bəxş edən sənətkar Əli Nəzmi kimi şairlərin yetişməsində müəssir oldu".

Dünya şöhrətli türkoloq prof.Əhməd Cəfəroğlu "Azəri ədəbiyyatında istiqlal mücadiləsi" adlı məqalələr silsiləsinin dördüncü hissəsində M.Ə.Sabir yaradıcılığından da söz açmışdır.

Mühacirət mətbuatında M.Ə.Sabirin həyat və yaradıcılığından ayrıca bəhs edən yazılar böyük satirik şairin keşməkeşli ömür yolu, fəaliyyəti, silahdaşları ilə daha yaxından tanış olmaq imkanı yaradır. Şamaxıda Sabirin qonşusu və yaxın dostu olmuş Məhəmməd Şərif Əfəndizadənin "Sabirə aid bir xatirə" adlı yazısı sabirşünaslığın zənginləşdirilməsi baxımından da maraq doğurur. Müəllif Sabirin ikiotaqlı mənzilinin əlli addımlığındakı küçənin tinində kiçik dükanda sabun düzəldərək dolandığını, ətrafda mərsiyə oxuyan kimi tanındığını, dükanının qarşısında yüksək səslə dua oxuduğunu diqqətə çatdırdıqdan sonra şairlə ilk tanışlığını nəql edir: "Onunla 1905-ci ildə tanış oldum. Həmin il Tiflis və Bakıda türkcə qəzetlər çıxmağa və qəzetlərdə türkcə intibahamiz mənzum yazılar (şeirlər) yazılmağa başlamışdı. Hər halda onları görüb, onlar kimi davranmaq həvəsinə düşdüyünə görə Sabir bir gün məni dükanının önündə dayandıraraq türkcə sərf və nəhv kitabı istəmişdi. İstanbuldan cəlb edilən müəllimlərin (Şeyxzadə Hafiz Məhməd və daha sonra Nemanzadə Ömər Faiq əfəndilər) iştirakı ilə bir neçə il idi ki, Şamaxıda "üsuli-cədid" üzrə bir məktəb açılmışdı. Mən də o məktəbdə oxuduqdan sonra yenə eyni məktəbdə müəllim olmuş və İstanbuldan qəzet-kitab gətirməyə başlamışdım. Bunu bildiyinə görə Sabir məndən o günü "İstanbul kitabları" istəyirdi". Sabir tanınmış şair, maarifçi, publisist Şirvanlı Seyid Əzimin ibtidai məktəbində oxuyur, mərsiyələr yazırdı. "İdeal və yüksək məfkurəli yazılarda uğur qazanan Mirzə Abasqulu Səhhətin" vasitəsi ilə Sabir 1906-cı ildə nəşrə başlayan "Molla Nəsrəddin" mənzuməsini oxuyur, jurnalla əməkdaşlıq etməyə başlayır. "Sabiri mərsiyə yazmaqdan və oxumaqdan qurtarıb şair yapan, mizahi şeirlər yazmaq üçün istedad olduğunu kəşf etdikdən sonra ondan əl çəkməyib ona mövzular verən, onu sabunçuluqdan qurtaran Səhhət olmuşdur" – yazan xatirə müəllifi Abbas Səhhətin "molla olmaq üzrə Xorasana göndərildiyini", daha sonra Tehrana, oradan isə Beyruta getdiyini, fransız, rus dillərini mükəmməl öyrəndiyini, Beyrutda tibb təhsili aldığını, rus şairlərindən Qoqol, Puşkin, Lermontovdan tərcümələr etdiyini, onun səyi ilə Şamaxıda "bir irfan və ədəbiyyat ocağı vücuda" gətirildiyini, "Sabirə "Hophopnamə" ismini bulduğunu" da vurğulayır.

M. Ş. Əfəndizadə oxucularla Sabirin Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu ilə görüşlərinə, Məhəmməd Hadi ilə münasibətlərinə dair xatirələrini də bölüşür. O, Əli bəy Hüseynzadənin Sabirin yaradıcılıq üslubuna təsirindən bəhs edərkən göstərir ki, büsbütün yeni olan məlum tərzdəki – yəni söyləmək istədiyi mövzunun əksini deyirmiş kimi görünmək – üslubunun intihab edişinə bir amil də Hüseynzadə Əli bəy olmuşdur. M. Ş. Əfəndizadə yazır: "Əli bəy İstanbuldan Bakıya gəldikdən sonra Şamaxıdakı xalalarını ziyarət etmək üçün oraya gəlmişdi. Sabir ilə mən də xalaları Mirzə Mehdinin evində ziyarətimizdə bu üslubu Əli bəy Sabirə ilham etdi və rus şairlərindən birisini buna misal göstərdi". Müəllif yazının sonuna doğru Ağaoğlu ilə görüşü xatırlayır: "Ağa oğlu Əhməd bəyi ziyarətimizdə də Əhməd bəy: Sabir sizmisiniz? – deyincə – Əvət, yoxsa, "Bangi döhül şenidən ez dur hoşet" (yəni davulun səsi uzaqdan xoş gəlir, – deyəmi düşündünüz, demiş və Əhməd bəyi də güldürmüşdü".

Tənqidçi, publisist Məhəmməd Əli Rəsulzadə "Azəri ədəbiyyatında Sabir" adlı məqaləsini "Sabirin şeirlərindəki tənqid nə nəşəli ruhu göstərmək məqsədi ilə" yazdığını bildirir. Zənnimizcə, müəllif qarşısına qoyduğu vəzifəni irihəcmli və sanballı yazısında peşəkarlıqla icra etmişdir: "Ölçüyəgəlməz bir mizah nəşəsinə malik", "ən acı ilacları kəndi xəstələrinə

oxşamaqla verən doktor", "yalnız Azərbaycan və Qafqaz türklərinin deyil, islam aləminin hamısının ehtiyac və nöqsanlarını görmüş və mənimsəmiş", "millətin dərdi ilə yanan", "bənzərsiz şair və tənqidçi" adlandırdığı Sabirin ömür yolu və yaradıcılığını əhatəli araşdırmış və dəyərləndirmişdir. M.Əli Rəsulzadə Sabirin şeirlərinin mövzu və ideyasını onun irsindən konkret nümunələr gətirərək təhlil edir və ədəbi-nəzəri mülahizələrini irəli sürür.

Mühacir soydaşlarımızın Ankarada nəşr etdikləri "Mücahid" (1955-1964-cü illər, cəmi 59 nömrə) aylıq ictimai fikir məcmuəsində Türkiyənin tanınmış ictimai xadimi, nüfuzlu ədəbiyyatşünas Agah Sırrı Levendin "Azəri şairi Ələkbər Sabir" adlı məqaləsi dərc olunmuşdur. Redaksiya bu yazının "Ulus" qəzetinin (Türkiyədə 10 yanvar 1920-ci il tarixindən çıxmağa başlamış, bir müddət "Xalqçı", "Barış", 1974-cü ildən "Yeni Ulus" adı ilə nəşr olunmuşdur –T.A) 21.05. 1962-ci il tarixli nömrəsindən götürüldüyünü qeyd etmişdir. O, Sabir yaradıcılığının bütün problemlərini – ideya, məzmun, dil, üslub, sənətkarlıq məsələlərini incəliklərinə qədər təhlil etmiş, dəyərləndirmiş, maraqlı elmi-nəzəri ümumiləşdirmələr aparmışdır. Agah Sırrı Levend M.Ə.Sabirin Türkiyə sevgisini və təəssübünü də yüksək qiymətləndirmişdir: "Sabir haqsızlığa və keyfə görə yönətimə də saldırmaqdan çəkinməmiş. İrandakı olayları izləyərək şahlara çatmış (sataşmış – T.A), Türkiyədəki Məşruyyət dövründən sonra Türkiyə türkləri ilə ilgilənərək "31 Mart vakası"nı (II. Əbdulhəmid idarəsinə qarşı ilk üsyan – T.A) öncədən xəbər vermiş

Osmanlılar, aldanmayın, Allahı sevərsiz,
İranlı kimi yatmayın, Allahı sevərsiz –

deyərək bizi uyarmaq istəmişdir.

Yuxarıda M.Ə.Sabir haqqındakı materialları məzmununa, məqsədinə görə təsnifatında şairin yaradıcılığından nümunələrə, foto və karikaturalara da mühacirət mətbuatında yer verildiyini qeyd etmişdik. Demək olar ki, bütün məqalələrdə şairin şeirlərindən gen-bol sitat gətirilərək istifadə olunur, bəzən də şeirlər tam halda verilir. Təkcə onu demək kifayətdir ki, "Azərbaycan" (Ankara) dərgisi müxtəlif saylarında "Hophopnamə"dən 15-dən çox nümunə dərc etmişdir.

Biz mühacirət mətbuatında M.Ə.Sabir haqqında dərc olunan məqalələrin bir qismindən ilk dəfə olaraq bəhs etdik. Xüsusi vurğulamaq lazımdır ki, ünlü satira ustası ilə bağlı mühacirət ədəbiyyatşünaslığındakı mənbələr bu məqalələrlə və bu araşdırma ilə məhdudlaşmır, mühacirət ədəbiyyatşünaslığında M.Ə.Sabirin həyat və yaradıcılığına dair dəyərli araşdırmalar var və bu istiqamətdə tədqiqatlar bu gün də uğurla davam etdirilir. Fil.e.d. N.Cabbarlı 25 il öncə dərc edilmiş "Sabir mühacirət ədəbiyyatşünaslığında" məqaləsində ("Ədəbiyyat qəzeti", 30 may 1997) problemi müəyyən qədər araşdırmışdır. Araşdırmanın daha dolğun variantı onun "Mühacirət və klassik ədəbi irs" monoqrafiyasında yer almışdır. Fil.e.d. prof. V.Sultanlı "Azərbaycan mühacirət ədəbiyyatı" kitabında M.Ə.Rəsulzadənin Sabir yaradıcılığına münasibətinə toxunmuş, fil.e.d. prof. Təyyar Salamoğlu (Cavadov) 2016-cı ildə Bakıda keçirilən "Azərbaycan mühacirət ədəbiyyatı: Reallıqlar, problemlər, vəzifələr" II Beynəlxalq elmi konfransında "Azərbaycan mühacirət ədəbiyyatşünaslığı Mirzə Ələkbər Sabir yaradıcılığına metodoloji münasibət kontekstində" adlı məruzəsində Əbdülvahab Yurdsevərin bu sahədəki araşdırmalarından söz açmışdır. Bütün bu tədqiqatlar XX əsrin əvvəllərində Sabir irsinin öyrənilməsində xidmətləri olan Abbas Səhhət, Seyid Hüseyn, Firudin bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Tağı Şahbazi Simurq kimi xadimlərin, eləcə də sovet dövründə sabirşünaslığın tədqiqində xüsusi bir mərhələ yaratmış Ə.Şərif, Ə.Mirəhmədov, M.Cəfərov, A.Zamanov, M.İbrahimov, K.Talıbzadə, Ə.Cəfər, T.Hacıyev, M.Cəlal, Y.Qarayev, N.Paşayeva, M.Məmmədov, T.Novruzov, A.Məmmədov (Bayramoğlu), R.Məhərrəmova və digər görkəmli ədəbiyyatşünasların araşdırmaları ilə mühacirət ədəbiyyatşünaslığı arasında bir növ körpü yaratmış və bütövlükdə sabirşünaslığın zənginləşdirilməsinə yardım etmişdir.

Şəfəq SAHİBLİ

***

Bir sehrli qaranlığın
Köynəyindən keçib gəldik.
Alnımızın yazısını
Boyumuza biçib gəldik.

Ömrü güllə darağıtək
Boşaltdıq vaxtın köksünə.
Son nəfəsi güzgü kimi
Tutduq dünyanın üzünə.

Yoxmuş cavabsız bir sual,
Ölüm də bir cavab imiş.
Ölüm sevməzlər içində
Ölməkdə bir savab imiş.

***

Qarışıb dünyan –
Yaman qarışıb.
Yenə gözlərindən
kədər asılıb,
kimdi arzusunda
göynədən səni?!
Kimin gecəsində
boğulur səsin?!
Soruşsan, adını
unudub belə.
Onun sevgiləri
əbədi yuxu!
Sənin sə qəlbində
bir ömür onun
Rəsmi...

***

Fırlanır özüyçün
boşuna dünya.
Ömür balıq kimi
sürüşür əldən.
Əllərim qəlbim kimi
buz bağlayır.
Sağım quru, solum quru –
Göynəm-göynəm göyəribdi.
Bürünüb bu gecəyə
Ömrü büküm boğçasına.
Bu dünya verdiyin
Alır bizdən sitəm-sitəm!..

***

Damarımdan bu torpağa
qanqarışıq Laçın damır,
Şuşa damır...
Bu sevgidən
qəlbim
lalə-lalə bayraqlanır...
Alnımı söykəyib lalələrin
birinə
ruhumla yol gedirəm
zəfər səsinin o üzünə...

AZON SEVGİM

Sən mənim içimdə
azon sevgimsən.
Söylənmə, gözüm nuru,
illər, aylar keçir...
Nə yazı gördük,
nə qışı
ağlayır çəmənlər,
əriyir buzlar!..
Hər gün ürəyim
bir köynək sökülür,
dilimdə söz göynəyir.
Sən mənim içimdə
azon sevgimsən,
sən mənim içimdə
vaxtsız açan-solan
sevgimsən –
nə soruşa bilən,
nə cavab olan.
İçimdəki elə
şirin
azon sevgimsən...

SÖZ ADAM

Dur aç yaxasın xatirələrin,
Qoxla nəfəsini ötən illərin.
Ömrün dan yerindən əsən yellərin
Özgədir ləzzəti, ayrıdır tamı,
sözün adamı!

Adlayıb ömründən neçə qərinə,
Xəyal çəkib səni, çəkib dərinə.
Dünyanın düşüncə badələrinə
Zaman misra-misra süzür adamı,
sözün adamı!

Bu keçib gəldiyin ömür yolunda
Gözü doluxsunub bəzən yolun da.
Ürəkdən deyilən bir "sağ ol"un da
İsidir həniri, közü adamı,
sözün adamı!

Ümidin yollarda cəfakeş oldu,
Həyat başdan-başa keşməkeş oldu.
Ömür haçan gəlib əlli beş oldu?!
Əzəldən doğrunun, düzün adamı!..
sözün adamı!

Ürək ağrı çəkər söz üşüyəndə,
Ocaq inildəyir köz üşüyəndə,
Bir qərib baxışdan göz üşüyəndə,
Doğmatək isidir gözün adamı,
sözün adamı!

Düşüncə fatehi, fikrin əsədi,
Duyğu çiçəklərin tərdi, təzədi,
İrfan dünyasını ruhun bəzədi,
Ürəyin söz gəzir, sözün adamı,
sözün adamı!

***

Göz yaşımın
təbəssümü qədər
tənhayam.
Oxuya bilməzsən
bu adam dolu
tənhalığı!
Sənin kimi hamı
unudub
tənhalıq əlifbasını!
Mən də
misra-misra
döyməyi unutmuşam
ümid qapısını!

***

Boyuna həsrət əllərim
   məğlub olmuş
   bayraq kimi
   enib yanıma!
Dost bildiyimin
      tikanlı sözləri
         hər gün
      gülə-gülə,
      güllə-güllə
         sancılır canıma!

QƏLƏBƏ ƏTİRLİ BAYRAQ

Payızın saçını öpən torpağın
Barıt qoxuyurdu dərəsi, düzü.
Yol olub gedirdi zəfərə sarı
Əsgər qədəmində "Qarabağ" sözü.

Eşqlə köklənmişdi döyüş əmrinə
On milyon ürəkdə bir ulu duyğu.
Düşmənin başına enirdi hər gün
Ali komandanın "dəmir yumruğu".

Şəhadət zirvəsi salamlayırdı
Qeyrət libasını geyən əsgəri.
Qarabağ torpağı gülümsəyirdi,
Geriyə dönmüşdü xatirələri.

Qeyrət dastanıtək o qırx dörd günü
Yazdı öz qanıyla şəhid oğullar.
İki min yeddi yüz səksən üç ömür
Zəfər köynəyitək geyibdi yollar.

Qələbə ətirli üçrəngli bayraq,
Bu gün əl eyləyir Cıdır düzündən.
Anatək əyilib Vətən torpağı
Şəhid balasının öpür üzündən!..

UNUDULMAQ

Bir səhər ayrılıq öpər üzündən,
Qəfil ağaracaq saçı illərin.
Bir qərib nəğmətək əl eylər sənə
Yaddaşı üşüyən xatirələrin.

Doğma da, tanış da baxar uzaqdan,
Özündən özünə əlin uzanar,
Deyə bilmədiyin tənha bir sətir
Dilindən alışar, dodaqda yanar.

Sevən duyğuların payızı başlar,
Xəzan yarpağına dönər gözəllik.
Tutar əllərindən vəfalı dosttək
Uzaqdan yol gələn tənhalıq, təklik...

Suya həsrət qalan torpağa bənzər
Öpüşsüz çatlayan qönçə dodağın.
Onda anlayarsan, onda bilərsən,
Ağrısı yamanmış unudulmağın.

***

Boğulur bu şəhərdə
   tərtəmiz arzular...
Acılar dolu
   oyun oynayır
      dünya...
İnsafsızlar da
"bəy-bəy" oynayırlar
bəmbəyaz qar havasına!..



***

Şəhid sevgisinin ətrini alıb,
Diz çöküb torpağı yalayır bu yaz.
Qanlı köynəyini sərib çəmənə,
Qaragöz lalələr ağlayır bu yaz.

Kövrəlir içində çiçəklər, otlar,
Ahımı bağrına basıb buludlar.
Yuxumda kişnəyir yiyəsiz atlar,
Sönmüş yaddaşımı qalayır bu yaz.

Dərdə xəbər verin ömrün yazından,
"Dilqəmi" göyərir Şəmşir sazından.
Yetim ömürlərin qəm bacasından
Yaşıl xurcununu sallayır bu yaz...

***

Sənin sahilin
İçimdə bir dəniz olub,
Duzlu suların yuxusu
Ləpələnir xatirələrimdə...
Yaşıl-yaşıl
Yosun qoxusu gəlir
kirpiklərimdən...

Üzür göz yaşlarımda
Ölü balıqların səsi.
Bu ölü dəniz sahilində
Səbrim
Havalı-havalı gəzir.

...İçimdə ölən dəniz...
Əvvəlmi, sonramı –
Ölmək ölməkdir.
Ölmək – Tanrı səbrinin
sahilinə gəlməkdir...

Mən sənin sahilinəm,
içimdə ölən dəniz...

***

Sözün gözlərində
yaş donub.
Ayrılıq qar kimi yağır
dilimdən
qərib-qərib üşüyən adına.
Gəl, gəl barı, ay insafsız,
unutmaq öyrət
unutduğun qadına...

ŞƏHİD ANASI

Şərəf zirvəsindən əl edir yolun,
Kədər bir qolundu, həsrət bir qolun.
Şəhid köynəyini geyibdi oğlun,
Sən qeyrət tacısan, Şəhid Anası!

Dilində qərib bir layla üşüyür,
Səssiz bir harayla, hayla üşüyür.
Dilinin ucunda Allah üşüyür,
Sən qüdrət tacısan, Şəhid Anası!

Tufanlı dəniztək qarışır ömrün,
Ah çəkib, dərdiylə barışır ömrün.
Vətənin dilində danışır ömrün,
Sən qismət tacısan, Şəhid Anası!

Vətənə qələbə ətri səpirsən,
Allahın verdiyi ən ulu sirsən.
Millətin gözündə ocaqsan, pirsən,
İbadət tacısan, Şəhid Anası!

Ağlayır sinəmdə min arzu, güman,
Zəfər yollarına adındır ünvan.
Ürəyim yaralı qəlbinə qurban,
Sən heyrət tacısan, Şəhid Anası!



Rene Genon –
Əbdül Vahid Yəhya

ŞƏRQ METAFİZİKASI

Bu essenin mövzusunu Şərq metafizikası təşkil edir. Bəlkə də, metafizika sözünü eləcə, yəni ümumi şəkildə işlətmək daha yaxşı olardı. Düzünə qalsa, xalis metafizika mahiyyətcə bütün formaların fövqündə və kənarındadır, habelə onun bütün təzahürləri universaldır, nə Şərqə aiddir, nə də Qərbə. Zahiri formalar mövcud olan zərurətin izahına, ifadə edilə bilən nəyinsə ifadə olunmasına xidmət göstərir. Formalar məxsusiyyətinə görə Şərqi və ya Qərbi ola bilər; lakin həmişə müxtəlifliyin təzahürünün əsasında vəhdət dayanır. İstənilən halda əsl metafizikanın hər yerdə mövcud olması çox sadə bir səbəblə bağlıdır. Ona görə ki, həqiqət birdir, vahiddir, bölünməzdir.

Əgər belədirsə, onda xüsusi olaraq Şərq metafizikası ilə məşğul olmağa nə ehtiyac var? Səbəb budur ki, Qərb dünyasının indiki intellektual vəziyyətində metafizika unudulmuşdur, ümumiyyətlə, əhəmiyyətsiz bir şey hesab edilərək, demək olar, tamamilə itirilmişdir. Şərqdə isə metafizika hələ də effektiv bilik obyekti olaraq qalır. Beləliklə, əgər kimsə metafizikanın əsl mənasını kəşf etmək, yaxud da bir çox cəhətdən indiki dövrlə müqayisədə keçmişdə Şərqə daha yaxın olmuş Qərbdə əvvəllər mövcud olan bəzi metafizik ənənələri bərpa etmək arzusundadırsa, o zaman Şərqə baxmalıdır. Bu məsələdə hər şeydən əvvəl Şərq təlimlərinin köməyi ilə və onları müqayisə etməklə uğur qazanmaq olar. Hələ də bunlar metafizika sahəsində birbaşa öyrənilə bilən yeganə təlimlərdir, doktrinalardır.

Təlimlərə gəldikdə isə tamamilə aydındır ki, həmin təlimləri şərqlilərin öyrəndikləri kimi öyrənmək lazımdır. Öyrənmə zamanı da bəzən tamamilə xəyali ola biləcək hipotetik interpretasiyalara, yozumlara yol verilməməlidir. Çünki çox vaxt Şərq sivilizasiyalarının hələ də mövcud olması unudulur. Lakin bilməliyik ki, sözügedən mövzunun mahiyyətini soruşub öyrənməkdən ötrü Şərqdə yüksək ixtisaslı nümayəndələr mövcuddur.

Mən "Şərq metafizikası" dedim, təkcə Hinduizm metafizikası demədim. Ona görə ki, bütün nəzərdə tutulanlar ilə birlikdə bu sistemin doktrinalarına bəzi insanların inandığı kimi təkcə Hindistanda rast gəlinmir, üstəlik də, onların əsl mahiyyəti çətinliklə dərk olunmur. Bəzi hallarda Hindistan bu baxımdan istisna deyil. Ancaq bütün sivilizasiyaların ənənəvi bazisə malik olması dəqiqdir. Əksinə, belə bazisi olmayan sivilizasiyalar qeyri-adi və anormaldır. Düzünə qalsa, bizə məlum bazisi olmayan yeganə sivilizasiya müasir Qərb sivilizasiyasıdır. Əgər

yalnız əsas Şərq sivilizasiyalarını götürsək, Hinduizm metafizikasının ekvivalentinə Çində (Taoizmdə, yaxud Daoizmdə), habelə İslamın bəzi ezoterik məktəblərində rast gələcəyik. Lakin bir şeyi başa düşmək lazımdır ki, yunan fəlsəfəsindən qaynaqlanan İslam ezoterizminin ərəblərin öz fəlsəfəsi ilə açıq-aşkar heç bir əlaqəsi yoxdur.

Hindistan istisna olmaqla, yeganə fərq ondan ibarətdir ki, həmin doktrinalar nisbətən məhdud və qapalı elita üçün qorunur. Bu, orta əsrlərdə Qərbdə də belə idi, bir çox cəhətdən ezoterizmlə müqayisə oluna bilən ortodoks İslamda və İslam kimi sırf metafizik bir ezoterizmdə də belədir. Həmin təlimlərin metafizik varlığına indi də müasirləri qətiyyən şübhə etmirlər. Ezoterik doktrinal dualizmi olmadığı üçün Hindistanda sözün əsl mənasında ezoterizmdən danışmaq mümkün deyil. Deyilənlər orada yalnız təbii ezoterik məzmun kəsb edə bilər. Dərindən yanaşanda təlimlərin hər biri öz imkanlarının ölçüsünə uyğun olaraq ezoterik doktrinaya az-çox uyğun gəlir. Bütün təlimlərdə təbiətlərinə məxsus müəyyən individuallıq və fərqlənmək naminə məhdudiyyətlər mövcuddur ki, bunları da aradan qaldırmaq mümkün deyil.

Düzdür, formalar bir sivilizasiyanı digərlərindən fərqləndirir. Lakin hindu formalarına daha çox bələd olan biri kimi bəzi məqamları başa düşməkdən ötrü digər formaları lazım gəldikdə tədqiqata cəlb edəndə mən çox tərəddüd edirəm. Çünki bunlar eyni şeyin ancaq fərqli formalarda ifadələri olduğu üçün fundamental müqayisə aparıb nəyi isə rədd edə bilmirsən. Bir daha qeyd edirəm ki, həqiqət birdir. Hansı yolla olur-olsun, həqiqətin dərkinə nail olanların hamısı üçün həqiqət eynidir.

Bununla belə, "metafizika" sözünün hansı mənada işlədilməsi aydınlaşdırılmalıdır. Hamı onu eyni şəkildə başa düşmür. Düşünürəm ki, qeyri-müəyyənliyə səbəb ola biləcək sözlər üçün ən yaxşı yol onların mümkün qədər ilkin, etimoloji mənalarına qayıtmaqdır. Tərkibinə görə "metafizika" sözü hərfi mənada "fizikadan kənar" deməkdir. Qədimdən "fizika" sözünün mənası "təbiət", "təbiət elmi"-dir. Fizika təbiət sahəsinə aid olan hər şeyi öyrənir; metafizika isə təbiətdən kənarda olanları öyrənir.

Bəs necə ola bilər, bəziləri istər obyektinə, istərsə də fakültələrinə (qabiliyyətlərinə) görə metafizik biliyin əsl bilik olduğunu iddia edir? Orada bizim üçün tam yanlış təsəvvürlər, terminlər baxımından ziddiyyətlər var. Təəccüblüdür ki, həmin çaşqınlıq və ziddiyyətlər hətta həqiqi metafizikaya dair müəyyən təsəvvürləri qoruyub saxlamağa və onu müasir filosofların psevdometafizikasından ayırmağı bacaranlara da təsirsiz ötüşmür.

Yaxşı, əgər "metafizika" sözü çaşqınlıq yaradırsa, ondan imtina edib onu daha uyğun bir ifadə ilə əvəz etmək daha yaxşı olmazdımı? Açığı, bu, məqsədəuyğun olmazdı. Çünki həmin söz formalaşmasına görə tələblərə dəqiq cavab verir; həm də onu dəyişmək mümkün deyil, həmçinin Qərb dillərində həmin xüsusda eyni dərəcədə işlədilməyə uyğunlaşdırılmış başqa söz yoxdur. Hindistandakı kimi sadəcə "bilik" sözünü işlətmək məqbul hesab edilə bilər. Bilik sözü mükəmməl olmaqla yanaşı, həqiqətən, həmin məfhumu ifadə etməyə layiq yeganə sözdür. Şübhəsiz ki, bilik sözü Qərb insanına daha çox doğma və aydındır. Elmdən və rasionallıqdan kənar hər bir şeyi biliklə əlaqələndirməyə və ondan ayırmağa qərblilər adət ediblər. Elədirsə, bu və ya digər sözün məruz qaldığı təhriflərdən bu qədər narahat olmağa dəyərmi? Əgər biz bütün bunları beləcə rədd etsək, onda yerdə nə qalardı? Bəyəm yanlış anlaşılmaların və yanlış yozumların qarşısını almaqdan ötrü tədbir görmək lazım deyil? Xülasə, biz "metafizika" sözünə digərlərindən daha çox heyran deyilik, lakin onun yerinə daha yaxşı bir termin təklif edilə bilinmədiyi üçün onu əvvəlki kimi istifadə etməyə davam edəcəyik.

Təəssüflər olsun ki, bir çoxları bu xüsusda özləri heç nə bilmədikləri halda, başqalarını "metafizika"nı sırf humanitar və rasional biliyə (bizim üçün bu, ancaq elm və ya fəlsəfədir) aid etdiklərinə görə "mühakimə etmək" iddiasındadır. Təsəvvür edin, Şərq metafizikası bu cür biliklərdən nə fərqlidir, nə də ondan artıqdır. Həmin mühakimə yürüdənlər məntiqə əsaslanıb iddia edirlər ki, guya metafizika real olaraq heç bir xüsusi nəticələrə gətirib çıxara bilməz. Halbuki onlar bunun təsirli bir bələdçi olduğunu görə bilmirlər. Çünki metafizika düşündüklərindən tamamilə fərqli bir şeydir. Eyni zamanda da nəzərdə tutduqlarının metafizika ilə heç bir əlaqəsi yoxdur. Onların elm dedikləri məfhumlar toplusu yalnız təbii nizam, zahiri və zəhlətökən biliklərə əsaslanır; bizim də haqqında danışmaq istədiyimiz, ümumiyyətlə, bu deyil.

O zaman belə gedişlə biz "metafizika" sözünü "fövqəltəbii" sözünün sinoniminə çevirmirikmi? Bu cür bənzətməni, assimilyasiyanı qəbul etməyə hazırıq, çünki təbiətin, yəni təzahür edən dünyanın bütövlükdə (təzahür edən dünya əhəmiyyətsiz dərəcədə kiçik bir hissiyyatla qəbul edilə bilməz) sərhədləri yoxdur. Ona görə də əgər insan təbiətdən kənara çıxmazsa, fiziki məhdudiyyət çərçivəsində qalır. Metafizika, artıq dediyimiz kimi, təbiətdən kənardır və onun fövqündədir; bu səbəbdən də onu düzgün olaraq "fövqəltəbii" kimi təsvir etmək məqbuldur.

Amma bu məqamda, şübhəsiz, bir etiraz ortaya çıxacaq: təbiətdən kənara çıxmaq olarmı? Biz açıq şəkildə cavab verməkdən çəkinmirik. Bu nəinki mümkündür, hətta faktdır. Yenə də deyilə bilər ki, bu, sadəcə, bir iddia deyilmi; buna hansı sübutları əlavə etmək olar? Əslində, qəribədir ki, onlar metafizik biliyin əldə edilməsi üçün lazım olan işləri görüb ona əmin olmağın əvəzinə, onun mümkünlüyünün sübutunu tələb edirlər. Yaxşı, həmin bilik sahibi olanların bütün belə müzakirələrdə marağı nədir? Cavab birbaşa olmasa da, deməliyəm ki, biliyin özünü "bilik nəzəriyyəsi" ilə əvəz etmək, bəlkə də, müasir fəlsəfədə acizliyin ən böyük etirafıdır.

Halbuki bütün inam və yəqinliklərlə ötürülə bilməyən yeganə bir şey var. Belə ki, kimsə ciddi şəxsi təşəbbüsü olmadan heç bir biliyə, həqiqətən, nail ola bilməz. Birinin başqası üçün edə biləcəyi şey ona ancaq fürsət vermək və həmin biliyə çatması üçün vasitələri göstərməkdir. Odur ki, sırf intellektual müstəvidə hər hansı bir inancın tətbiqinə cəhd etmək əbəs olardı; ən yaxşı arqument belə bu halda birbaşa və faktiki biliyi əvəz edə bilməz.

İndi özümüzə sual verək: metafizika sözünü anladığımız kimi müəyyən etmək olarmı? Xeyr, çünki müəyyən etmək həmişə məhdudlaşdırmaqdır və bizi maraqlandıran şey özündə, həqiqətən də, tamamilə qeyri-məhduddur və heç bir düstur, yaxud hər hansı sistemlə məhdudlaşdırıla bilməz. Metafizikanı qismən təsvir etmək olar, məsələn, o, ümumbəşəri prinsiplər haqqında bilikdir. Lakin bu da düzgün tərif deyil, yalnız təxmini, qeyri-müəyyən bir fikir yaradır. Bir şey əlavə etmək olar ki, bu prinsiplərin əhatə dairəsi, metafizikanı qismən və ya natamam şəkildə öyrənən bəzi qərblilərin düşündüyündən qat-qat böyükdür. Beləliklə, Aristotel metafizikanı varlığın idrakı hesab edərkən onu ontologiya ilə eyniləşdirir, yəni hissəni bütövə görə götürür. Şərq metafizikasına görə, xalis varlıq prinsiplərin nə əsası, nə də ən universalı deyil. Artıq o, müəyyənlikdir. Ona görə də varlığın hüdudlarından kənara çıxmaq lazımdır, ən vacibi məhz budur.

Bütün əsl metafizik konsepsiyalarda və ya təsəvvürlərdə ifadə edilə bilməyənləri nəzərə almaq lazımdır. Belə ki, ifadə oluna bilən hər şey ifadə ediləndən üstün olanla müqayisədə sözün əsl mənasında heç olduğu kimi, böyüklüyü nə olursa-olsun, fani olan da Baqi olanla müqayisədə bir heçdir. İfadə olunandan daha çox şey nəzərdə tutula bilər və bu, zahiri formaların oynadığı roldur. Bütün formalar, istər sözlər, istərsə də hər hansı bir simvol onları müqayisəolunmaz dərəcədə üstələyən konseptual biliyin imkanlarına yüksəlmək üçün ancaq dayaq nöqtəsidir. Mövzuya sonra qayıdacağıq.

Biz metafizik anlayışlardan danışırıq, çünki bununla bağlı başa düşüləcək başqa bir termin yoxdur. Lakin belə nəticəyə gəlmək olmaz ki, burada elmi və ya fəlsəfi konsepsiyalarla müqayisə edilə bilən nəsə var. Söhbət hansısa "abstraksiyalar"dan deyil, intuitiv və bilavasitə fövqəlrasional biliyə nail olmaqdan gedir. Həqiqi metafizikanın mövcud olmadığı sırf intellektual intuisiyanın, bəzi müasir filosofların dediklərinin əksinə olaraq, infrarasional (subrasional) intuisiya ilə heç bir əlaqəsi yoxdur. Belə ki, intellektual intuisiya var, həssas intuisiya var. Biri səbəbin üstündədir, digəri onun altındadır. Yalnız bunun sonuncusu dəyişikliklər və varlıqlar aləmini, yəni təbiəti, daha doğrusu, təbiətin çox kiçik bir hissəsini qavraya bilər. İntuisiyanın mülkiyyəti əbədi və dəyişməz prinsiplər sahəsindədir, bu da metafizika səltənətidir.

Ümumbəşəri prinsipləri bilavasitə qavramaq üçün transsedent intellektin özü də universal nizama aid olmalıdır. Transsedent intellekt artıq fərdi qabiliyyət deyil və onu belə hesab etmək ziddiyyət doğurardı. Çünki bunsuz fərdin öz hüdudlarını aşması, onu bir fərd kimi müəyyən edən şərtlərdən kənara çıxması qeyri-mümkündür. Lakin ağıldan kənarda olan şey, həqiqətən, "qeyri-insani"dir; metafizik biliyi mümkün edən də məhz budur və bu bilik, bir daha vurğulamaq lazımdır ki, insan biliyi deyil. Başqa sözlə desək, insan onu insan kimi deyil, belə əldə edə bilər ki, bir halında insan olan bu varlıq, eyni zamanda insandan daha

üstün, başqa və daha çox nəsə olsun. Bu, metafizikanın, daha doğrusu, metafizik biliyin əsl obyekti olan fərdlərüstü vəziyyətlərin effektiv şüurunun əldə edilməsidir. Biz burada ən həyati məqamlardan birinə toxunuruq və təkrar etmək lazımdır, əgər fərd kamil varlıq olsaydı, Leybnits monadası kimi qapalı sistem təşkil etsəydi, metafizika mümkün olmazdı; daim eyni vəziyyətdə qalmaqla özünə qapalı olan bu varlığın öz mövcudluğundan kənarda nəyisə bilmək imkanı da olmazdı. Amma vəziyyət başqa cürdür: əslində, fərd həqiqi varlığın yalnız keçici və şərti təzahürüdür. Bu, eyni varlığın qeyri-müəyyən digər çoxlu vəziyyətləri arasında yalnız bir xüsusi vəziyyətidir; və həmin varlıq özündə özünün bütün təzahürlərindən tamamilə müstəqildir. Necə ki hindu mətnlərində tez-tez rast gəlinən bir illüstrasiyadan istifadə etsək, Günəş əks olunduğu müxtəlif şəkillərindən tamamilə müstəqildir. "Öz" ilə "mən", şəxsiyyət və fərdilik arasındakı əsas fərq də işıq şüalarının Günəş mənbəyi ilə bağlılığı kimidir. Bu cür nizam olmasa idi, nə varlıq, nə də reallıq mümkün olardı.

Eləcə də fərdilik – istər insan fərdiliyi, istərsə də hər hansı şeyin digər oxşar təzahür vəziyyətinin fərdiliyi ilkin mərkəzi varlığa haqqında danışdığımız transsedental intellekt vasitəsi ilə bağlıdır. Belə məhdud izahetmə çərçivəsində fikir xətlərini daha dolğun şəkildə inkişaf etdirmək və ya varlığın çoxsaylı halları nəzəriyyəsi haqqında daha dəqiq ideya vermək mümkün deyil. Lakin hesab edirəm ki, bütün həqiqi metafizik doktrinaların son dərəcə vacibliyini göstərmək üçün kifayət qədər danışdım.

Mən bayaq "nəzəriyyə" dedim. Burada söhbət təkcə nəzəriyyədən getmir; bu, əlavə izaha ehtiyacı olan bir məqamdır. Dolayı və müəyyən mənada simvolik nəzəri bilik, sadəcə, həqiqi bilik üçün zəruri olsa da, əslində, ona hazırlıqdır. Habelə o ancaq qismən ötürülə bilən bilikdir. Məhz buna görə də bütün anlayışlar biliyə yaxınlaşmaq vasitəsindən başqa bir şey deyil. Əvvəlcə yalnız virtual olan bilik sonradan səmərəli şəkildə həyata keçirilməlidir.

Biz əvvəl istinad etdiyimiz daha məhdud metafizikada, məsələn, Aristoteldə başqa bir uyğunsuzluq tapırıq. Aristotelin metafizikası nəzəri cəhətdən qeyri-adekvat olaraq qalır. Ona görə ki, o, özünü varlıqla məhdudlaşdırır və onun nəzəriyyəsi – bütün Şərq təlimlərində olduğu kimi – müvafiq reallaşma ilə açıq şəkildə bağlı olmaq əvəzinə, özü özünü müəyyən edən kimi təqdim olunur. Hətta bu, qeyri-kamil metafizikada – hətta onu demi-metafizika da adlandırmaq istərdik – bəzən düzgün başa düşülsə belə, ancaq tamamilə fərqli nəticələrə gətirib çıxaran anlayışlar var. Bununla yanaşı, bəyəm Aristotel tam əminliklə demir ki, onun bildiyi hər şey varlıq olaraq təkdir, müstəsnadır? Bilik vasitəsilə identifikasiyanın təsdiqlənməsi prinsipcə metafizik reallaşdırmanın özü deyilmi? Əlbəttə, özüdür. Amma burada prinsip çıxdaş edilir; çünki onun sırf nəzəri mülahizədən başqa heç bir dəyəri yoxdur və görünür, irəli sürüldükdən sonra insan onun haqqında daha düşünmür. Bəs necə olur ki, Aristotelin özü və onun davamçıları burada nəzərdə tutulanların hamısını görə bilməyiblər? Bu, bir çox başqa hallarda da eynidir. Belə çıxır, digər eyni dərəcədə vacib olan şeylər, məsələn, təmiz intellekt və ağıl arasındakı fərq, hətta onları aydın şəkildə müəyyən etdikdən sonra da unudulur; bunlar qəribə missiyalardır. Bəzi nadir, lakin həmişə mümkün istisnalar istisna olmaqla, Qərb şüuruna xas müəyyən məhdudiyyətlərin təsirini burada görmək mümkündürmü? Müəyyən mənada bu, doğru ola bilər; lakin həmişə Qərb intellektinin indiki dövrdə olduğu kimi dar çərçivədə, məhdud olduğuna inanmaq lazım deyil. Biz təlimlərin yalnız zahiri təzahürlərini nəzərimizdə tutaraq danışırıq. Halbuki həmin metafizik təlimlər bir çox başqalarından daha üstündür, həm də onlar həqiqi metafizikanın bir hissəsini təşkil edirlər. Əminik ki, Qərbdə orta əsrlərdə və qədim dövrlərdə, şübhəsiz, sırf elit mükəmməl metafizik təlimlər və onların həyata keçirilməsi mövcud olmuşdur. Bu, əlbəttə, müasirlərimizin əksəriyyəti üçün indi ağlasığmaz görünür. Əgər Qərb onların yaddaşını tamamilə itiribsə, bu, öz adət-ənənəsi ilə əlaqəni kəsdiyi üçündür. Buna görə də müasir Qərb sivilizasiyası əxlaqsız və azğın sivilizasiyadır.

Əgər sırf nəzəri biliyin sonu olsaydı və metafizika bundan irəli getməsəydi, şübhəsiz ki, yenə də o bir şeyə dəysəydi belə, yenə tamamilə qeyri-kafi olardı. Bu cür biliyə riyazi əminlikdən də böyük olan həqiqət əminliyinin şamil edilməsinə rəğmən, o, müqayisə olunmayacaq dərəcədə ali bir nizama məxsus olmasına baxmayaraq, daha aşağı səviyyədə yalnız yerə və insana məxsus elmi-fəlsəfi fərziyyələrin analoqu

kimi görünür. Əslində, metafizika bunu nəzərdə tutmur. Əgər başqaları metafizikanı "zehin oyunları" və ya buna bənzər maraq yaratmaq vasitəsi kimi görürlərsə, bu, onların öz işidir. Bizim üçün belə yanaşmalar tamamilə maraqsızdır və üstəlik, düşünürük ki, psixologiyanın hər şeyi bilmək həvəsi metafizikə tamamilə yad olmalıdır. Metafiziki maraqlandıran şey gerçək və əslində, nəyin nə olduğunu yalnız özünü tanıyan şəkildə bilməkdir.

Metafizik reallaşdırma vasitələrinə gəlincə, biz onun mümkünlüyünə etiraz etməyi özlərinə borc hesab edənlərin iradlarını yaxşı başa düşürük. Həmin vasitələr, doğrudan da, insanın öz əlində olmalıdır. Onlar ən azı ilkin mərhələlərdə insanın vəziyyətinə uyğunlaşdırılmalıdır. Çünki sonradan daha yüksək halları qəbul edəcək varlıq məhz bu vəziyyətdə mövcud olur. Bu dünyanın özündən yuxarı qalxmaq üçün insan məhz bu dünyaya aid olan formalarda özünə dayaq tapır. Sözlərin, simvolik işarələrin, ritualların və ya hər hansı hazırlıq üsullarının heç bir əsası, funksiyası yoxdur; dediyimiz kimi, bunlar dəstəkdir, başqa bir şey deyil. Ancaq bəziləri soruşacaqlar ki, sadəcə, şərti vasitələr onları ölçüyəgəlməz dərəcədə üstələyən, tamamilə fərqli bir nizama aid nəticəyə necə gətirib çıxara bilər?

Əvvəlcə şərti vasitələrin, əslində, təsadüfi vasitələr olmasını qeyd etməliyik. Onların meydana gəlməyə kömək etdikləri nəticələr heç bir halda onların nəticəsi deyil; sadəcə olaraq, onlar varlığı elə vəziyyətə gətirirlər ki, həmin nəticəyə nail olmaq daha asan olsun. Əgər yuxarıda qeyd edilən etirazlar səhih olsaydı, vasitə ilə məqsəd arasında daha az uyğunsuzluğun olmadığı, məsələn, dini ayinlərdə, müqəddəs mərasimlərdə də vəziyyət eyni dərəcədə olardı; həmin iradları irəli sürənlərdən bəziləri bu haqda kifayət qədər düşünməmiş ola bilər. Biz isə, sözün həqiqi mənasında, vasitə ilə səbəbi qarışdırmırıq və metafizik reallaşdırmanı təsir kimi qəbul etmirik. Çünki bu, hələ mövcud olmayan bir şeyin törəməsi deyil, daimi və dəyişməz təbiətlə bütün müvəqqəti ardıcıllığın fövqündə mövcud olmanın dərk edilməsidir. Öz prinsiplərinə uyğun nəzərə alınan bütün varlıq halları həm də əbədi indiki zamanda mükəmməl olaraq mövcuddur.

Biz metafizik reallaşdırma ilə ona aparan vasitələr arasında ümumi ölçünün olmadığını dərk etməkdə, istərsə də onu hazırlamaqda heç bir çətinlik görmürük. Elə buna görə də heç bir vasitə ciddi və ya tamamilə zəruri deyil. Lakin, ən azından, bunun üçün yalnız bir ilkin hazırlıq, həqiqətən, tam zəruridir, o da nəzəri bilikdir. Unudulmamalıdır ki, ən mühüm və daimi rol oynayacaq bir vasitə olmadan uzağa gedilə bilməz: həmin üsul konsentrasiyadır. Bu metod hər şeyi dağıtmağa və aramsız dəyişdirməyə meyilli müasir Qərb zehniyyətinə və idraki vərdişlərinə tamamilə yad bir şeydir. Bütün digər vasitələr müqayisədə yalnız ikinci dərəcəlidir; onlar hər şeydən əvvəl konsentrasiyanı təşviq etməyə, fərdilik ilə varlığın ali vəziyyətləri arasında effektiv qarşılıqlı əlaqə yaratmağı asanlaşdırmaqdan ötrü fərdiliyinin müxtəlif elementlərini onlarla uyğunlaşdırmağa xidmət göstərir.

Üstəlik, başlanğıcda bu vasitələr, demək olar ki, qeyri-müəyyən müddətə dəyişə bilər, çünki onlar hər bir fərdin temperamentinə və onun xüsusi qabiliyyət və xasiyyətinə uyğunlaşdırılmalıdır. Sonra fərqliliklər azalmağa başlayacaq. Çünki biz eyni məqsədə aparan çoxsaylı yollardan gedirik. Müəyyən bir mərhələdə bütün çoxluq yox olacaq. Lakin həmin məqama çatana qədər şərti və fərdi üsullar artıq öz rolunu oynayıb başa vuracaqlar. Genişləndirməyə ehtiyacı olmayan bu rol, bəzi hindu mətnlərində insana səyahətinin sonuna daha tez və asanlıqla çatmağa kömək edən atla müqayisə olunur. Lakin bu elə bir səyahətdir ki, səyyah atsız da səyahətinin sonuna çatır. Ayinlər və müxtəlif üsullar metafizik reallığa aparan yolu göstərir. Heç vaxt onlara məhəl qoymamaq mümkün deyil. Varlığın şüurunu və bütün qabiliyyətləri dəyişməz olaraq bu reallaşmanın məqsədinə yönəltməklə, nəhayət, ali məqsədə çatmaq olar. Əgər təşəbbüsləri asanlaşdıran vasitələr varsa, niyə onlara etinasızlıq etməyi üstün tutursunuz? Bizim insani vəziyyətimizin məhdudluğunu hesaba qatmaq fani ilə mütləq baqini qarışdırmaqdır. Çünki məhz özündə fani olan vəziyyətdən başlayaraq biz daha yüksək vəziyyətləri fəth etməyə məcbur oluruq və nəhayət, ali, həmçinin şərti olmayan vəziyyətə gəlib çatırıq.

Bütün ənənəvi doktrinaların ortaq olan xüsusiyyətini nəzərdən keçirdikdən sonra biz indi metafizik gerçəkləşdirmənin əsas mərhələlərinə keçməliyik. Birinci mərhələ yalnız ilkin xarakter daşıyaraq insan aləmində baş verir və fərdilik hüdudlarından kənara çıxmır. O, bu fərdiliyin qeyri-müəyyən genişlənməsindən ibarətdir ki,

onun ən kiçik hissəsini insanda inkişaf edən adi cismani modallıq təşkil edir. Nizamdan götürülmüş həssas vasitələrlə məhz bu cismani modallıqdan başlamaq lazımdır. Lakin bu, insanın digər modallıqlarında da əksini tapmalıdır. Haqqında danışdığımız mərhələ – bir sözlə, insanın bədənində və fərdiliyində faktiki olaraq yer alan bütün imkanların, bədən və hiss sferasının müxtəlif istiqamətlərdə öz hüdudlarından kənara çıxaraq çoxşaxəli genişlənməsinin reallaşması və ya inkişafıdır. Digər vəziyyətlərlə əlaqəni məhz bu genişlənmələr vasitəsilə yaratmaq mümkündür.

Bütün ənənələrdə inteqral fərdiliyin reallaşması və ya dərk edilməsi insanın əsl varlığı hesab edilən və üstəlik, adi vəziyyətdən, xüsusən də müvəqqəti, keçici vəziyyətə xas olan bəzi məhdudiyyətlərdən qaçan "əzəli vəziyyət" adlanan halın bərpası kimi təsvir olunur. Bu "əzəli vəziyyət"ə çatmış şəxs hələ də yalnız fərdi varlıqdır və heç bir təsirli fərdüstü vəziyyətlərə sahib deyil. Bununla belə, o bundan sonra zamandan azad olur və şeylərin zahiri ardıcıllığı onun üçün eyni vaxtda transformasiyaya uğrayır. Həmçinin o, şüurlu şəkildə adi insana məlum olmayan "əbədilik hissi" adlandıra biləcəyimiz bir qabiliyyətə malik olur. Bu, son dərəcə vacibdir, çünki müvəqqəti ardıcıllıq nöqteyi-nəzərindən keçə bilməyən və bütün hadisələri eyni vaxtda görə bilməyən şəxsdə metafizik nizamın ən kiçik təsəvvürü belə yoxdur. Həqiqətən, metafizik biliyə nail olmaq istəyənin etməli olduğu ilk şey zamandan kənara çıxmaqdır. Belə bir ifadə istər-istəməz qəribə və qeyri-adi görünməsəydi, məmnuniyyətlə "zamansızlıq" deyərdik. Haqqında bəhs etdiyimiz "əzəli vəziyyət"ə tam çatmamışdan əvvəl, natamam da olsa, zamansızlığa aid biliyin dərki müəyyən ölçülərlə əldə edilməlidir.

Sual oluna bilər: niyə bu, "əzəli və ya ilkin vəziyyət" adlandırılır? Ona görə ki, bütün ənənələr, o cümlədən Qərb ənənələri (çünki "İncil"də də fərqli bir şey deyilmir) həmin vəziyyətin ilkin olaraq bəşəriyyət üçün normal olması ilə razılaşır. Halbuki indiki vəziyyət, sadəcə olaraq, enişin nəticəsidir, əsrlər boyu və ya müəyyən bir dövr, epoxa ərzində baş verən mütərəqqi maddiləşmənin təsiridir. Biz müasir insanların başa düşdükləri anlamda "təkamül"ə inanmırıq. Onların uydurduqları elmi fərziyyələr heç bir şəkildə reallığa uyğun gəlmir. Hindu doktrinalarında, xüsusilə açıqlanan kosmik dövrlər nəzəriyyəsinə burada çılpaq işarə vurmaqdan başqa bir şey mümkün deyil. Lakin bu, bizim mövzumuzdan kənara çıxacaq. Düzdür, bir-biri ilə sıx əlaqəli olsa da, kosmologiya metafizika deyil. Kosmologiya metafizikanın fiziki nizama tətbiqidir. Həqiqi təbii qanunlar isə ümumbəşəri və zəruri prinsiplərin nisbi və şərti sahədə yalnız nəticələridir. Metafizik gerçəkləşməyə qayıdaq: onun ikinci mərhələsi fərdüstü vəziyyətlərə uyğun gəlsə də, yenə şərtləndirilir, baxmayaraq ki, onun şərtləri insan vəziyyətindən tamamilə fərqlidir. Daha əvvəl bəhs etdiyimiz məhdud insan dünyası burada tamamən və kəskin formada aşılmışdır. Onu da qeyd etmək lazımdır ki, həddi aşılması məqsəd kimi qarşıda duran formalar dünyası ən geniş mənada bütün mümkün fərdi halları özündə cəmləşdirir. Çünki forma bütün bu halların ortaq məxrəcidir və fərdiliyi də müəyyən edən elə odur. Uzaq Şərq ifadələrindən birində deyildiyi kimi, bundan sonra insan adlandırıla bilməyən varlıq artıq "formalar axını"nı tərk edir. Bununla belə, həmin mərhələni alt hissələrə bölmək üçün əlavə fərqlər var. Əslində, o, tam formalaşmamış olsa da, hələ də zahiri varlığa məxsus halların əldə edilməsindən tutmuş, saf varlığa aid olan universallıq dərəcəsinə qədər bir neçə mərhələni əhatə edir.

Lakin bu hallar insan halına münasibətdə nə qədər uca, ondan nə qədər uzaq olsalar da, yenə də nisbidirlər və bu hətta onların bütün təzahür prinsipinə uyğun gələn ən yüksəyinə də aiddir. Onları mənimsəmək yalnız keçici nəticədir. Onu metafizik reallaşdırmanın son məqsədi ilə qarışdırmaq olmaz. O, varlığın xaricindədir və onunla müqayisədə bütün aktlar yalnız bir hazırlıq mərhələsidir. Bu ali məqsəd hər cür məhdudiyyətdən azad olan tamamilə şərtsiz bir vəziyyətdir. Məhz bu səbəbdən də o, tamamilə ifadəolunmazdır. Haqqında deyilə biləcək hər şey onun nisbiliyində bütün mövcudluğu fərqləndirən və müəyyən edən sərhədlərin inkarından irəli gələrək yalnız mənfi anlayışlarla çərçivəyə salına bilər. Belə bir vəziyyətə nail olma hindu doktrinasında Ali Prinsiplə bağlı "Çatma" halı adlandırılır.

Bu şərtsiz vəziyyətdə bütün digər varlıq halları öz yerini tapır. Lakin transformasiya olunaraq müstəsna vəziyyətlər kimi onları müəyyən edən xüsusi şərtlərdən azad olurlar. Yerdə qalan müsbət reallığa malik olandır. Çünki burada hər şeyin öz prinsipi var; "təslim edilmiş" varlıq, əslində, öz imkanlarının tamlığına sahibdir. Və

yoxa çıxanlar yalnız məhdudlaşdırıcı şərtlərdir ki, reallığı tamamilə mənfidir, Aristotelin sözləri ilə desək, "əskikliyi" təcəssüm etdirir. Beləliklə, bəzi qərblilərin inandığı kimi, bu son vəziyyət bir növ tam məhv olmaqdan uzaq, əksinə, mütləq dolğunluq, ali reallıqdır, qarşısında hər şey illüziyadan başqa bir şey deyil.

Onu da əlavə edək ki, varlığın metafizik reallaşdırılması prosesində əldə edilən hər bir nəticə, hətta qismən də olsa, özünəməxsusdur, bənzərsizdir. Belə bir nəticəni varlıq həmişəlik əldə edir və onu heç bir şey ondan məhrum edə bilməz. Bu şəkildə görülən iş son məqsədə çatmamışdan əvvəl kəsilsə belə, zamansızlığına görə birdəfəlik əldə edilir. Bu hətta sırf nəzəri biliklərə də aiddir, çünki bütün biliklər varlığın yalnız bir anlıq dəyişməsi olan və onun müxtəlif təsirlərindən həmişə ayrılan fəaliyyətin əksinə olaraq, faydasını özündə daşıyır. Həmin təsirlər onları yaradanlarla eyni mövcudluq sahəsinə və nizamına məxsusdur. Fəaliyyət hərəkətdən azad ola bilməz və onun nəticələri mümkün qədər geniş şəkildə nəzərdən keçirilən fərdilik hüdudlarından kənara çıxmır. Fəaliyyət nə olursa-olsun, bütün məhdudiyyətlərin kökü olan cəhalətin əksi deyil və o, cəhaləti aradan qaldıra da bilməz. Günəşin işığı qaranlığı dağıtdığı kimi, yalnız bilik cəhaləti dəf edə bilər və beləliklə, bütün aşkar və aşkar olmayan halların dəyişməz və əbədi prinsipi olan "Mən" öz ali reallığı ilə zühur edir, görünür.

Çox qeyri-kamil, qısa, təbii ki, metafizik reallaşmanın nə ola biləcəyi haqqında çox zəif təsəvvür yaradan bu eskizdən sonra ciddi səhvlərə yol verməmək üçün bir məqamı vurğulamaq mütləqdir. Burada maraqlandığımız hər şeyin heç bir qeyri-adi, fenomenal hadisə ilə əlaqəsi yoxdur. Fenomen olan hər şey fiziki nizama aiddir; metafizika isə fenomenal hadisələrdən kənardadır və biz sözü ən ümumi mənasında qəbul edirik. Bundan başqa belə bir nəticə də çıxır ki, bayaq qeyd olunan vəziyyətlərdə "psixoloji" heç nə yoxdur. Xüsusi olaraq vurğulamaq lazımdır, bəzən bununla bağlı qəribə çaşqınlıqlar yaranır. Tərifinə görə psixologiya yalnız insani vəziyyətlərlə əlaqədar ola bilər. Bu gün psixologiya elmi bu elm üzrə mütəxəssislərin təsəvvür edə biləcəyindən daha çoxunu özündə cəmləşdirən fərdin imkanlarının çox məhdud bir sahəsini əhatə edir. Əslində, fərdi insan Qərbdə ümumi hesab ediləndən həm daha çox, həm də daha az bir şeydir. Bir sözlə, öyrəndiyimiz hər şeylə əlaqəli olan cismani modallıqdan kənarda qeyri-müəyyən genişlənmə imkanlarına görə daha böyükdür. O həm də çox az bir şeydir, çünki o, özünü təmin edən kamil varlıq yaratmaqdan uzaq, yalnız zahiri bir təzahürdür. Həqiqi varlığın qəbul etdiyi və sonuncunun mahiyyətinə heç bir təsir göstərməyən keçici bir görüntüdür.

Bu müşahidə təbii olaraq "yoqa" termini ilə bağlı bəzi səhv şərhlərin düzəldilməsinə gətirib çıxarır. Həqiqətən də, bəzən deyilmirmi ki, hindular bu sözlə insanın müəyyən gizli güclərinin inkişafını bildirirlər? Deyəcəklərimiz belə bir tərifin rədd edilməli olduğunu göstərmək üçün kifayət edəcəkdir. Əslində, "yoqa" sözü sanskrit dilində olan "yuj" sözündəndir, orijinala ən yaxın tərcümədə "birlik", "ittifaq" mənasını verir və metafizik reallaşmanın ən yüksək məqsədi deməkdir. "Yoqi" terminini ən doğru mənasında başa düşsək, bu söz məqsədə çatan ayrıca bir insanı simvolizə edir. Düzdür, daha geniş şəkildə şərh edildikdə, eyni terminlər, anlayışlar bəzi hallarda "birliy"ə çatmaq üçün hazırlıq mərhələlərinə, hətta sadə ilkin üsullara, həmçinin bu mərhələlərə uyğun vəziyyətlərə çatmış varlığa, yaxud nailiyyət vasitələrinə də şamil edilir. Bəs necə güman etmək olar ki, ilk növbədə "birlik" mənasını verən bir söz düzgün və orijinal olaraq nəfəs məşqlərinə və ya bu cür başqa şeylərə də aiddir? Bu məşğələlər, eləcə də, ümumiyyətlə, ritm elmi adlandıra biləcəyimiz şeyə əsaslanan digər məşqlər, həqiqətən, metafizik reallaşdırmaya yönəlmiş ən ümumi üsullardan biridir. Ancaq keçici və şərti bir vasitə olanı nəticə ilə səhv salmamalı, həm də sözün ilkin mənasını onun ikinci dərəcəli və az-çox təhrif olunmuş mənası ilə qarışdırmamalıyıq.

"Yoqa"nın ilkin nə olması haqqında danışarkən və bu sözün mahiyyəti etibarı ilə həmişə eyni məna daşıdığını vurğulayanda indiyə qədər qeyd etmədiyimiz bir sual üzərindən düşünmədən keçmək olmaz: Bütün fundamental ideyalarımızı götürdüyümüz bu ənənəvi metafizik doktrinaların, təlimlərin mənşəyi nədir? Cavab çox sadədir, baxmayaraq ki, bu, hər şeyə tarixi nöqteyi-nəzərdən baxanların etirazına səbəb ola bilər. Və budur, onların mənşəyi yoxdur, bununla biz zamana yerləşdirmək üçün heç bir insan mənşəyinin olmadığını nəzərdə tuturuq. Başqa sözlə, ənənənin mənşəyi, əgər, həqiqətən də, mənşə sözünün belə bir vəziyyətdə tətbiqi varsa,

metafizikanın özü kimi "qeyri-bəşəri"dir. Bu nizamın doktrinaları bəşər tarixinin heç bir konkret məqamında meydana çıxmamışdır; "ilkin vəziyyət"ə istinad etməyimiz, həmçinin metafizik olan hər şeyin zamansız təbiəti haqqında dediklərimiz müəyyən qərəzlərin əksinə olaraq, – bəzi şeylər var, onlara tarixi nöqteyi-nəzər tətbiq olunmur şərti ilə – bu məqamı çox çətinlik çəkmədən qavramağa imkan verir. Metafizik həqiqət əbədidir; məhz buna görədir ki, həmişə onu, həqiqətən və tam olaraq bilən varlıqlar olub. Yalnız zahiri formalar və şərti vasitələr dəyişə bilər; lakin bu dəyişikliklərin müasir insanların "təkamül" adlandırdıqları ilə heç bir əlaqəsi yoxdur, onlar yalnız bu və ya digər konkret şəraitə, irqin və ya konkret dövrün spesifik xüsusiyyətlərinə uyğunlaşmadır. Buradan formaların çoxluğu yaranır; lakin doktrinanın əsasları heç bir şəkildə təsirlənmir və dəyişdirilmir, necə ki varlığın mahiyyəti, birliyi və özünəməxsusluğu onun təzahür hallarının çoxluğu ilə dəyişmir.

Metafizik bilik və onun nəzərdə tutduğu reallaşma, yəni onun həmişə və hər yerdə həyata keçməsi üçün ən azı prinsipcə və belə bir imkan müəyyən mənada mütləq hesab edildikdə mümkündür. Amma reallıqda – praktiki olaraq, əgər belə deyə bilərəmsə, nisbi mənada hər hansı bir mühitdə və müvafiq şərtlər nəzərə alınmadan eyni dərəcədə mümkündürmü? Xüsusən həyata keçirməyə gəldikdə biz bunu daha az israr edəcəyik. Bu onunla bağlıdır ki, onun başlanğıcda məhz bu şəraitlər səviyyəsində dayağı olmalıdır. Müasir Qərbdəki şərait o qədər əlverişsizdir ki, belə bir iş, demək olar, qeyri-mümkündür. Kənardan, yəni ətraf mühitdən heç bir dəstəyin olmaması belə bir iş görən birisinin səylərini yalnız əngəlləyə və ya məhv edə biləcək qədər təhlükəli ola bilən vəziyyətə gətirib çıxardar. Digər tərəfdən, bizim ənənəvi adlandırdığımız sivilizasiyalar elə qurulmuşdur ki, bu, tamamilə zəruri olmasa da, onların hər hansı bir zahiri formasından daha çox orada təsirli dəstək mexanizmi tapa bilərsiniz ki, belə yardım olmadan da effektiv nəticə əldə etmək çətindir. Burada təcrid olunmuş fərdin gücündən kənar bir şey var, hətta həmin fərd başqa cür tələb olunan keyfiyyətlərə malik olsa belə. Biz də bu şəraitdə kimisə ehtiyatsızlıqla bu cür işə tələsməyə təşviq etmək istəməzdik və bu, bizi birbaşa nəticəyə gətirir.

Bizim üçün Şərqlə Qərb arasında böyük fərq var (söhbət yalnız müasir Qərbdən gedir). Yeganə, həqiqətən, əhəmiyyətli fərq (qalanların hamısı onun törəmələridir) bir tərəfdən ənənənin qorunub saxlanmasıdırsa, digər tərəfdən həmin ənənənin unudulması və itirilməsidir; habelə bir tərəfdən metafizik biliyin qorunub saxlanmasıdırsa, digər tərəfdən bu sahə ilə bağlı tamamilə məlumatsızlıq və cahillikdir. İmkanlarına nəzər saldığımız və effektiv realizasiya üçün ən uyğun vasitələr təklif etdiyimiz öz elitalarına açıq olan sivilizasiyalar arasında (bu yol onların heç olmasa bəziləri tərəfindən həyata keçirilməsinə imkan verir) – bu ənənəvi sivilizasiyalar ilə sırf maddi xətt üzrə inkişaf etmiş sivilizasiya arasında hansı ümumi ölçü tapmaq olar? Bəs mən nəyin zərərli olmasını bilmədən maddi üstünlüyün intellektual aşağılığı kompensasiya etdiyini iddia etməyə necə cəsarət edə bilərəm? İntellektual dedikdə, nə insani, nə də təbii nizamla məhdudlaşan və öz mütləq transsendensiyasında xalis metafizik biliyi mümkün edən həqiqi ziyalılıq nəzərdə tutulur. Mənə elə gəlir ki, bu suallar üzərində yalnız bir anlıq fikirləşmək verilməli olan cavaba dair heç bir şübhə və ya tərəddüd yeri qoymur.

Müasir Qərbin maddi üstünlüyü danılmazdır; heç kim onunla bu barədə nə mübahisə edir, nə də onun paxıllığını çəkir. Həqiqətən, daha irəli getmək olar; belə ki, əgər Qərb vaxtında özünə gəlməzsə, "mənşəyinə qayıtmaq" haqqında ciddi düşünməzsə, həddindən ziyadə maddi inkişaf – bəzi İslam ezoterik məktəblərində işlədilən ifadə ilə desək – gec-tez onu məhv etməklə hədələyir. Bu gün bir çox dairələrdə "Qərbi müdafiə etmək" haqqında çox eşidirik; lakin təəssüflər olsun ki, Qərbin xüsusilə özündən qorunmağa ehtiyacı var. Çünki Qərbi, həqiqətən, təhdid edən bütün təhlükələrin ən əsası və ən qorxulusu onun indiki meyilləridir. Bunun üzərində dərindən düşünmək yaxşı olardı və hələ də düşünmək qabiliyyəti olan hər kəsi belə bir düşüncəyə dəvət etmək artıq hərəkət deyil. Mən əlimdən gələni etdim. Düzdür, tam başa düşülməsə də, Qərbdə analoqu olmayan Şərq intellekti barədə az-çox fikir yaradan məqaləmi bununla bitirirəm. Bu, Hindistanın müqəddəs əsərlərinə görə, yalnız tamamilə doğru, mütləq, sonsuz və ali olan həqiqi metafizikanın, biliyin, hətta qeyri-kamil olsa da, eskizi idi.

Çevirdi: **Elmar Vüqarlı**

ƏDƏBİ FRAQMENTLƏR: AİDA ADIGÖZƏL

Vaqif YUSİFLİ

Onu şeirlərindən tanıyıram və bu şeirlər məndə qəribə hisslər oyatdı. Üzünü görməsəm də, şeirlərində özünün və ürəyinin səsini eşitdim və bu səslər içinə sığmayan bir şairin duyğularından söz açır.

BİRİNCİ təəssürat:

Bir gün anladım ki, qopub düşmüşəm,
saralmış, xallanmış xəzəl olmuşam.
Anladım, anladım, elə sən demə,
Sən demə, sevirəm xəzəl baxtımı,
sən demə, sevirəm payız evimi.

Aida Adıgözəldən oxuduğum şeirlərin bir qismi məhz payıza bürünmüş – payızlaşmış-xəzəlləşmiş duyğuların əksidir. İnsan ömrünün ekvator xəttinə çatanda təkliyə, tənhalığa alışır və payız fəsli yarpaqları saralmış, xəzəlləşmiş, küləkləşmiş, yağışlaşmış dərdi ilə ürəyə yol tapır. Və burada insanın payızlaşmağı təbii bir prosesə çevrilir.

İnsan "İçində nə varsa, uçub dağılan, bütün xarabalığı, kədəri, qəmi… payız dərdini götürüb, beləcə ayrılır öz budağından". İnsan payız olmaq istəmir, Tanrıya yalvarır: "Bu payızı gəl çək üstümdən".

İKİNCİ təəssürat: Yox, payızı təkcə saralmış yarpaqlarıyla, xəzəliylə, dəli küləyiylə tanınmır, bəlkə, daha artıq düşüncə fəslidir, yəni insanın qışa doğru yol alan ömrünün ağıl, idrak, beyin məşqlərinin düşüncəyə tabe olmasıdır. Aida Adıgözəl –müasir şeirimizin bu kürdəmirli xanımı həyatın, gerçəkliyin, olumun və ölümün serenadalarını poetik lövhələrə çevirir, bəzən mənasızlıqda məna axtarır, peşmançılığın rəsmini çəkir, kölgələrin rəqsini, gedənlərin göynəyən yerini, ağlayan şəkilləri, yanan körpüləri düşüncə sferasına daxil edir.

Aida Adıgözəli sevgi şairi kimi də təqdim edərdim. Amma onun sevgi şeirlərində ənənəvi motivlərə ənənəvi qayıdış yoxdu, "ayrılıq-dar ağacı", "həsrət seli", "ölürəm səndən ötəri" etirafları səslənmir, təzadların və ayrılıqların mənbəyinə, mahiyyətinə çəkib aparan bir xətt var. Sevgini və sevgidən doğan təzadı, ayrılığı əksər şairlər (xüsusilə, zərif cinsdən olan şairlər) bəzən eyni tempdə, eyni ahəngdə təsvir edirlər. Aida Adıgözəldə isə bir qədər fərqlidir:

Hərdən sor məni bağlı qapıdan,
qaranquş yuvalı tozlu eyvandan.
Hərdən otağa gir, evə də baş çək,
göz gəzdir ətrafa, zəngli saata,
gör saat səkkizdə yenə vururmu?
Dolabları dağıt, eşib səpələ,
gör o çox sevdiyim yaşıl pijama
həmin siyirmədə hələ dururmu?

Deməli, bu sevgi hekayəti hələ bitməyib, hələ davam edir. Və sevgi şeirlərində Aida Adıgözəl bitməmiş, ümidlə ümidsizlik arasında dövr edən bir həyat qüssəsindən söz açır. Bu sevgi şeirlərindən xatirə yağışları yağır, payız küləkləri əsir:

Məni belə xatırla:
qara dəli qız kimi.
Yavanlıq çörəyilə
son səpilən duz kimi.
Məni belə xatırla,
ruhumun son günahı,
qoca kor balıqçının
dənizdə vida ahı.

ÜÇÜNCÜ təəssürat: Aida Adıgözəlin şair fərdiyyəti, özünəməxsusluğu barədə nə demək istərdim? Şairliyə aidiyyəti olan bir sıra əsas xüsusiyyətlər var ki, o, bunları qədərincə bilir və şeirlərində də apaydın göstərir. Birincisi və ən ümdəsi budur ki, Aida Adıgözəl vərdişlə şeir yazmır, şeir misra-misra, sətirbəsətir içinə, ruhuna köklənəndə yazır. Sadəcə, içini boşaltmaq "əməliyyatı" yox, içini bəyan etmək prosesi… İkincisi. Aida Adıgözəl metaforalarla işləməyi çox sevir. Bu gün metafora müasir şeirimizin qanına, canına hopub. Hərçənd ki, uğursuz cəhdlərlə də çox qarşılaşırıq. Aida Adıgözəl "ölmüş şeirlər"də sırf metafora yolu ilə gedir:

Səndən sonra qalxmaq da var,
içindəki məzarlıqdan boylanmaq
ayrılığa acıq vermək...
Səndən sonra toparlanıb durmaq da var,
ağrıların qabağında
suallara cavab tapmaq.
Səndən sonra bu dünyaya oyanmaq var,
içimdəki qaranlıqdan.

Üçüncü təəssürat: Sizə elə gəlmirmi, Aida Adıgözəl yalnız özünün subyektiv aləmini, daxili dünyasını əks etdirir şeirlərində? Elədir ki var. Nə yazırsan-yaz, istər sevgi şeiri olsun, istər "yaz etirafları", istər payız duyğuları, istərsə də Vətənlə, Şuşayla, Laçınla, Kürdəmirlə bağlı şeirlər…bütün bunlar həmin o daxili dünyadan, subyektiv aləmdən keçib gəlir:

Sən hardan biləsən bölünmək nədir?
Sən hardan biləsən Araz nə çaydır?
Sən hardan biləsən hər gün ürəyim
gecələr o taydır, gündüz bu taydır?
Sən hardan biləsən o taylıyam mən,
Araz deyə-deyə Kürlə böyüdüm?
O taydan başlanan yüz illik yolu
Bu tayda bir kənddə həsrət bitirdim.

Aida Adıgözəlin şeirləri içərisində ŞEİR KİMİ yonulmamışları, cilalanmamışları da var. Bəzi şeirləri, məsələn, "Sənsizlik zəhəri" fikrin tutumunu həcmin tutumuna gətirib çıxarır. "Laübalıq" şeirində lirik qəhrəmanın "ittihamları" həddini aşır və s. Bəzi şeirlərdə ara-sıra, çox olmasa da, ədəbi dilin qanunlarına bir etinasızlıq duyulur. Amma Aida xanımın şeirlərində sərbəst düşüncə tərzi xoşagələn haldır, şeirdə "nazlanmır", həqiqətə pərdə çəkmir.

Aida Adıgözəlin şeirləri barədə çox danışmaq olar. Yəni bu şeirlər sənə danışmaq, söz açmaq imkanı verirsə... Amma burada qeydlərimi bitirir və mənim üçün maraqlı olan bir şairi tanıdığıma sevinirəm, deyirəm…

DƏRGİDƏ KİTAB



Elvin İNTİQAMOĞLU

MƏN

Düşmənim oddur, suyam,
öz sözümdə doğruyam.
Mən İntiqamoğluyam,
Məmmədovlardı nəslim...

Söz adamı olsam da,
bezmirəm, yorulsam da.
Sumqayıtda qalsam da,
Yardımlıdandı əslim...

Dünya mənə lağ etdi,
həddin aşdı, ağ etdi.
Cismimi dustaq etdi,
Ruhum olmadı təslim...

O qız çıxandan yoxa,
kədər buraxmır yaxa...
Çətin yadımdan çıxa
hörüklü incə səslim...

MÜHASİRƏ

("Müharibə xatirələri"ndən)

Ölüm qorxusu deyil,
əsir düşmək qorxusudur
qorxusuz müharibənin dərd tərəfi –
On iki oktyabr.
Füzuli.
İki daşın arasında
tora düşdük iki dağın arasında:
Ermənidir dörd tərəfi...

Rabitə xətlərindən
asılı qalıb komandir:
Kömək edin,
cənab polkovnik-leytenant,
kömək göndərin bizə;
etibarsız çıxdı rabitə daşı...
Təki Vətən sağ olsun,
çıxarın daraqları –
İçindən hərə bir güllə götürsün,
atsın cibə:
Ola bilsin, oldu bizlər üçün
son müharibə;
Mən onda bildim güllənin tərifin –
Bir dəqiqəlik sükut,
bir ömürlük göz yaşı...

Başımıza güllə yağdı,
daş töküldü,
qaya düşdü –
səsimiz də çıxmadı,
birdən eşidən olar...
Susuzluqdan can verən əsgərlərin
arzuları suya düşdü...

Bu səhər oxşamır əvvəlkilərə,
güllə günəşdən seçilir...
Göydəki rəhmlidi –
O bizi görməsəydi,
orda nələr olardı...
Allah bilir!

QƏM BİZƏ İRSİ KEÇİB

Sizi deyə bilmərəm,
qəm bizə irsi keçib –
O vaxtı ulu babam,
dərd çəkə-çəkə ölüb...
Külqabının ağzını
tütünlə bağlayarmış –
ulu nənəm həyətə
kül tökə-tökə ölüb...

Ulu babam oğluna
bircə dərd qoyub gedib –
babam ağlı kəsəndən
ev tikə-tikə ölüb...
Babam atası kimi
tütünə aldanmayıb –
nənəm küllü torpağa
gül əkə-əkə ölüb...

Atam babam kimidi,
mən də ulu babamam...

YERƏCƏNDİ

Dünyanın olmayıb axı
ucsuz-bucaqsız çağı –
Dünyanın ucu-bucağı
səmadan yerəcəndi...

Səhv addım atdıq yanaşı,
yıxıldıq addımbaşı –
İnsanın ən gözəl yaşı
sıfırdan birəcəndi...

Kişinin həyatı boyu
içindədir kədər payı.
Qadının gözünün suyu
Arazdan Kürəcəndi...

Sağda vüsal, solda həsrət,
ya cəhənnəm, ya cənnət –
Allahın yazdığı qismət
xeyirdən şərəcəndi...

AYRILAQ

Mən də amin deyirəm
ovcundakı duaya –
O günü Allah bizə
qismət etsin, ayrılaq...

Ağlı itmiş adamlar
yanlış qərarlar verir:
Ağlım itsin, ayrılaq...

Deməsinlər dalımca:
tərk edib aşiq yarı –
Hamı getsin, ayrılaq...

Bir az da sıx dişini –
Həsrətə bir gediş var,
oyun bitsin, ayrılaq...

KEÇMİŞİN QIRINTILARI

Görüş təşkil edərdim,
həyəcanla gedərdim.
Cibimdə gizlədərdim
əlim tir-tir əsəndə...

Çox həssas idik onda,
məndən küsərdi o da
hər hansısa kinoda
qız oğlandan küsəndə...

Keçən günün dünəni –
son dəfə sevdim səni.
Son dəfə sevdin məni
saçlarını kəsəndə...

BOŞ DÜNYA

Təsəvvür et:
yer qatı var, göy qatı var,
insan adlı canlı yoxdu...
Təsəvvür et:
dünyanı yoxdan yaradan Tanrı var,
palçıqdan insan düzəltmək istəyən Tanrı yoxdu...

Təsəvvür et:
nə savab var, nə günah var,
nə cənnət var, nə cəhənnəm...

Təsəvvür et:
insan əliylə qurulan bina yoxdu,
insan əliylə salınan meşə yoxdu...
Sənət yoxdu, peşə yoxdu:
dünya çılpaqdı,
ona paltar tikən yoxdu...
Boş dünyanın boşluqların
karandaşla çəkən yoxdu...



Təsəvvür et:
bir-birini sevən yoxdu,
xəyanət eyləyən yoxdu –
Tanrı boş-bikar dayanıb göy üzündə
şikayət eyləyən yoxdu...

Təsəvvür et:
ölkə yoxdu, şəhər yoxdu...
Pozan yoxdu atəşkəsi –
yoxdu şəhid qarşılayan
ananın ağlamaq səsi...

Təsəvvür et:
şeytan vaxt öldürə bilmir,
özün aldatmaqdan bezib –
yandırmağa günah yoxdu,
qır qazanı oddan bezib...

Gör necə sakitçilikdi:
dünya yoxdu, insan dincdi,
insan yoxdu, dünya dincdi!

VAR AXI

Dünya yüz don geyinir,
zəif, güclü bilinir.
Canavarlar sevinir,
torda şikar var axı...

Tikan gülə bəs etmir,
yağış səhraya yetmir.
Qışla dağ yola getmir,
başında qar var axı...

Yağış, üzü qışa yağ,
yaşayırıq baş-ayaq.
Necə xoşbəxt yaşayaq,
mərdiməzar var axı?..

Kimdən örnək alım mən,
öz yolumda qalım mən?..
Necə zalım olum mən,
Pərvərdigar var axı!

GÜLƏYƏN QIZ

Gözlərinə yaraşmayır göz yaşı,
Səni ağladan nədir, güləyən qız?!
Dözəmmirsən, ağır gəlir qəm daşı,
İlahidən xoş anlar diləyən qız –
Səni ağladan nədir, güləyən qız?!

Bir vaxt şərbətin içdin xoşbəxtliyin,
Sən qapısından keçdin xoşbəxtliyin,
Könüllü dərdi seçdin, xoşbəxtliyin
Sən oldun dalıyca su çiləyən qız –
Səni ağladan nədir, güləyən qız?!

Tək qalmaq çətindir – əsas dərd budur,
Ondan azad olmaq böyük arzudur...
Bilmirsən xoşbəxtlik necə duyğudur,
Doğulandan dərd-qəmə baş əyən qız –
Səni ağladan nədir, güləyən qız?!

Kədər dalğalarında itdi həyat,
Ruhən öldün, sənincün bitdi həyat...
Hər məqamda səni incitdi həyat,
Barışmırsan onunla, küsəyən qız –
Səni ağladan nədir, güləyən qız?!

Çiçək kimi tez açdın, tez də soldun,
Çox ağladın, gözləri yaşla doldun...
Əvvəl belə deyildin, nəzər oldun,
Ətrafında çoxdur gözü dəyən qız –
Səni ağladan nədir, güləyən qız?!

BİR QURANLIQ XƏYANƏT

Peşman olanlar qayıdır,
sən də elə
peşman olub gələnlərin birisən –
oxşadın oxşamışlara...
Mən artıq əvvəlki
mən deyiləm ki,
aldanım aldanışlara...

Yenə başla danışmağa,
yenə de ki, bağışla,
bütün günah məndədi.
Gözüm gözlədiyindən
gözünə baxmaq istəmir,
sən danışmağında ol –
gözüm səndə olmasa da,
qulaqlarım səndədi...

Demədin ki,
bir də belə olmayacaq;
demədin ki,
bir də belə olacaq –

nə o yanlıq danışdın,
nə bu yanlıq danışdın...
Getmək xəyanətdisə,
xəyanət də günahdı –
sən öz xəyanətindən
bir Quranlıq danışdın...

ÖYRƏNDİM

Səni Allah qarşıma
çıxarmayaydı gərək...
Çatdı ayrılıq anı,
qismətdi. Biz neyləyək?!
Təsəllilər, tüstülər
mənə etmədi kömək...
Mən bir qızın yoxluğun
içə-içə öyrəndim...

Nə olsun ki, ayrıyıq...
Tapıb səni soraqla,
atdığın addımları
izləyəcəm maraqla.
Məndən narahat olma,
sən öz gününə ağla...
Mən keçdiyim yolları
keçə-keçə öyrəndim...

HƏDD

Sevinc sizin, qəm mənim,
mən sizdən nə öyrənim?!
Bəxtim mənim düşmənim,
nifrət həddin aşmışam...

Ya qəm ver, ya al qəmi,
yoxdur heç bir önəmi.
Sınıb haqqın qələmi,
qismət həddin aşmışam...

Dünya qəmin bol etsin,
ömürdən ağ gün itsin.
Allah hansın eşitsin,
niyyət həddin aşmışam...

Qiyamətdə qurd ular,
çuxur tapar lal sular.
Ölüb yolda arzular,
sürət həddin aşmışam...

QADINLAR

Qadın var ki, haqqı deyir,
qadın da var, haqqı yeyir.
Qadın var ki, tez inciyir,
qadın da var, dəmir kimi...

Qadın var ki, mah kimidi,
qadın da var, ruh kimidi.
Qadın var ki, şah kimidi,
qadın da var, əsir kimi...

Qadın var ki, şəfəq saçır,
qadın da var, zülmət açır.
Qadın var ki, adam qaçır,
qadın da var, şeir kimi...

GƏRƏK ADAMDA BƏXT OLA...

Ovçular ov parçalayır,
Kabab çəkir, od qalayır.
Ac qalır, ovcun yalayır
Ovun tez tuta bilməyən...

Haram dost olub halala,
Dünya vurur mıxa-nala.
Danışmaq öyrədir lala
Ağzı söz tuta bilməyən...

Artıq oyun çatır sona,
Gərək adamda bəxt ola.
Atır beş qoşa, şeş qoşa
Zərin düz tuta bilməyən...

Zivər Əliyeva







ISNN 0134-522
İNDEKS AZ 1000 1 AZN

"Ulduz"lu nəşrlər

ulduz_ayliq_edebiyyat_derqisi

İMKANLI BƏY

Satırdılar dünyanı,
bir imkanlı bəy aldı...
Dünya ona baş əydi,
ancaq ondan rəy aldı!

Bəy tez düşdü atından,
söz gəldi yer qatından...
Dünyanın ucbatından
hamıdan giley aldı!

Sahibin saldı ələ...
Dərd verdi bilə-bilə,
güldürdü gülə-gülə –
gah elədir, gah belə,
dünya hərdəmxəyaldı!

MƏRHƏLƏ

Öncə dünya yarandı,
Adəm, Həvva yarandı.
Nə var, sonra yarandı,
həyat təkamül etdi...

Seçildi cənnət ünvan,
xoş yaşayırdı insan.
Odlu-alovlu şeytan
nöqtəni vergül etdi...

Buğda İlahi məktub...
nöqsan Həvvaya mənsub,
nəfsinə oldu məğlub,
dünya tənəzzül etdi...

İSTƏMİRƏM YÜZÜ

Sağlığıma içən qardaş,
deyirsən ki, yüz yaşa kaş.
Arzulama mənə yüz yaş,
yüz süz, istəmirəm yüzü...

Ruhumu incitsin ölüm,
məni məğlub etsin ölüm,
doxsan doqquz bitsin, ölüm,
gündüz istəmirəm yüzü...

Yolda ayaqlar yorulur,
dərd insanla bir doğulur.
Təsəvvur et, yaş yüz olur,
dərd yüz, istəmirəm yüzü...